RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 266 (10011) 18 dekabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İkitərəfli əlaqələr genişlənir



## Azərbaycan Prezidenti İlham Əliyev Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə görüşüb, bir sıra tədbirlərdə iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə səfər edib.

AZƏRTAC xəbər verir ki, dekabrın 17-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Əbu-Dabidə keçirilən "Gələcəyin Oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev də öz növbəsində dəvətə görə təşəkkür etdi və bu tədbirin Birləşmiş Ərəb Əmirliklərində yüksək səviyyədə təşkil olunması münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı.

2

## Strateji tərəfdaşlığa əsaslanan uğurlu əməkdaşlıq

### Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri münasibətləri yeni yüksəliş mərhələsindədir

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüş zamanı strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayıb.

Ümumiyyətlə, Birləşmiş Ərəb Əmirlikləri müasir dünyada öz inkişafı ilə seçilən dövlətlərdəndir. Azərbaycan ilə BƏƏ əlaqələrinin əsası 1991-ci ildə qoyulub. Azərbaycanın ərəb dünyası ilə dərin tarixi-mədəni bağlılığı var. Eyni zamanda Ərəb Dövlətləri Liqasının bütün üzvləri Azərbaycanın hazırda sədrlik etdiyi Qoşulmama Hərəkatının (QH) üzvləridir. İslamofobiya meyillərinə qəti şəkildə qarşı çıxan Azərbaycan 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü əsasında başladılan



"Bakı Prosesi" sayəsində müsəlman ölkələri ilə Avropa dövlətlərinin nümayəndələrini bir araya gətirməklə mədəniyyətlərarası dialoqun dünya miqyasında təbliğinə güclü təkan verib. Məhz bu proses çərçivəsində Azərbaycan tərəfindən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları təşkil edilir.

4

## Amnistiya təşəbbüsü geniş sosial əhatəyə malikdir

Prezident İlham Əliyev Azərbaycan dövlətinin humanizm və ədalət prinsiplərinə söykənən siyasətini ardıcıl şəkildə davam etdirərək "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsü ilə çıxış edib. Bu addım dövlətin vətəndaşa yönəlik siyasətinin, sosial ədalətə və insanpərvərliyə verdiyi önəmin növbəti bariz nümunəsi kimi qiymətləndirilir. Təqdim olunan amnistiya aktının layihəsi geniş sosial əhatəyə malikdir və xüsusilə dövlətçilik maraqları naminə fədakarlıq göstərmiş şəxsləri diqqət mərkəzinə alır. Layihəyə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərində iştirak etmiş şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur. Həmçinin bu əməliyyatlarda həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumları, Ermənistanın mülki əhaliyə qarşı hərbi təxribatları nəticəsində əlil olmuş şəxslər də amnistiyanın əhatə dairəsinə daxil edilir.

6

## Regiondakı yeni status-kvo Azərbaycanın hərbi-siyasi qələbələrinin nəticəsidir



Ulu Öndər hakimiyyətə gəldikdən sonrakı 10 il ərzində Azərbaycanın dövlət büdcəsini 17 dəfə artırmağa nail olması, bizim real müstəqilliyə gedən yolumuzun başlanğıcı hesab edilən "Əsrin müqaviləsi"ni imzalaması və neft-qaz ehtiyatlarımızın beynəlxalq bazara çıxarılması üçün layihələrin təməllərinin qoyulması ümumi gedişatı dəyişdi. Ümummilli Liderin siyasi varisi cənab İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və bu istiqamətdə qətiyyətli davranışları Azərbaycanın iqtisadi müstəqilliyinə tam şəkildə nail olunması istiqamətində həlledici amil kimi çıxış etdi. Çoxsaylı maneələrə baxmayaraq, Prezident İlham Əliyev Azərbaycanın artan güc və imkanları hesabına, o cümlədən milli maraqlar zəminində barışmaz mövqeyi ilə, qlobal xarakterli layihələrin reallaşdırılmasına nail olmaqla respublikamızı sıradan postsovet dövlətindən qlobal aktor statusuna yüksəltdi.

4

## Azərbaycan nümunəsi

### Ölkəmizin qlobal tədbirlərə uğurlu evsahibliyi beynəlxalq miqyasda təqdir olunur

Cari il 15 dekabr tarixində Prezident İlham Əliyev 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.

Sərəncamda deyilir ki, Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) Şurasının 2025-ci il 2 oktyabr tarixli iclasında 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının (FIFA U-20 World Cup) 2027-ci ildə Azərbaycanda və Özbəkistanda keçirilməsi barədə qərar qəbul edilmişdir: "Azərbaycanın 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatı kimi mötəbər bir idman tədbirinə evsahibliyi etməsi onun idman ölkəsi kimi artan nüfuzunun daha da möhkəmlənməsinə, gələcəkdə belə mühüm layihələrin respublikamızda yüksək səviyyədə təşkilinə müsbət təsir göstərəcəkdir".

5

## İqtisadi inkişaf və rahat həyat abad yoldan başlayır

Başa vurmaqda olduğumuz il ərzində də yeni yollarımızın açılışı oldu. Başlayaq elə işğaldan azad edilmiş ərazilərimizdən. İyulun 3-də Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa yolunun açılışında iştirak etdi.

Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol məsafəni 19,3 kilometr qısaldır. Birinci texniki dərəcəyə uyğun olan yolun ilk 48 kilometri 6, qalan 33,7 kilometri 4 hərəkət zolağından ibarətdir. Yolboyu bir qovşaq, 11 körpü, 7 tunel, 6 viaduk, yeraltı keçidlər və digər zəruri infrastruktur yaradılıb.

Layihə çərçivəsində inşa edilən körpülərin ümumi uzunluğu 1557 metrdir. Viadukların bəzilərinin tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. İnşaat işləri zamanı yolboyu dəmir-beton və metal sədd çəpərlər, işıqlandırma sistemi quraşdırılıb.



Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Füzuli, Xocavənd, Xocalı və Şuşanı birləşdirir.

7

## Ermənilər qərbi azərbaycanlıların doğma yurdlarına qayıtmalarını niyə böyük təhlükə hesab edirlər

Qərbi Azərbaycan ərazisinin əzəli Azərbaycan torpaqları olması barədə tarixi həqiqətləri daim vurğulayan Prezident İlham Əliyev konfrans iştirakçılarına müraciətində son iki yüz ildə ermənilər tərəfindən dəfələrlə deportasiya, soyqırımı və etnik təmizləmələrə məruz qalan soydaşlarımızın tarixi-mənəvi haqqının bərpa olunmasının bütün beynəlxalq konsepsiyalara uyğun olduğunu bildirmişdir.

XIX əsrin əvvəllərində imzalanmış "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi ilə azərbaycanlıların deportasiya siyasətinin əsası qoyulub. Xüsusilə də 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib. Deportasiya siyasəti tarixi-mədəni irsimizin məhvi ilə də müşayiət olunub, abidələrimiz dağıdılıb, qədim Azərbaycan toponimləri saxta və uydurma adlarla əvəzlənib, ermənilər tərəfindən açıq şəkildə monoetnik dövlətçilik və etnik təmizləmə siyasəti həyata keçirilib.

6

# İkitərəfli əlaqələr genişlənir

## Azərbaycan Prezidenti İlham Əliyev Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə görüşüb, bir sıra tədbirlərdə iştirak edib

*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısının BƏƏ-yə, BƏƏ Prezidentinin isə Azərbaycana səfərləri məmnunluqla xatırlanaraq, bütün bunların və müxtəlif səviyyələrdə həyata keçirilən digər qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında roluna toxunuldu.

Görüşdə Azərbaycan və BƏƏ prezidentləri əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi apardılar.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan "Gələcəyin Oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak ediblər.

Qeyd edək ki, "Gələcəyin Oyunları" hər il təşkil olunması nəzərdə tutulan qlobal idman turniridir. Turnir iki mərhələdə həyata keçirilir. İlk mərhələdə idmançılar fiziki idman növləri üzrə yarışırlar. İkinci mərhələdə isə idmançıların rəqəmsal oyunlar üzrə bacarıqları sınaqdan keçirilir. "Növbəti nəsil insanlar. Gələcəyini oyna" devizi altında təşkil olunan turnirdə müxtəlif ölkələrdən idmançılar ümumilikdə 11 idman növü üzrə yarışacaqlar. Ötən il BƏƏ 9 iddiaçı namizəd arasında qalib gələrək, 2025-ci ildə keçiriləcək "Gələcəyin Oyunları" turnirinə evsahibliyi etmək hüququ qazanıb.

Daha sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib.











**Azərbaycan Prezidenti İlham Əliyev Əbu-Dabidə keçiriləcək "Gələcəyin Oyunları 2025" qlobal idman turnirinin açılış mərasimində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) işgüzar səfərdədir. Dövlətimizin başçısının səfər çərçivəsində BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə ikitərəfli görüşü keçirilib. Bu səfərin məqsədi yalnız idman tədbirində iştirakla məhdudlaşmır, həm də Azərbaycan-BƏƏ strateji tərəfdaşlığının möhkəmlənməsi, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi, həmçinin regionda stabilliyin qorunması baxımından böyük əhəmiyyət kəsb edir.**

## Azərbaycan Prezidentinin BƏƏ-yə işgüzar səfəri:

# Strateji tərəfdaşlıqda yeni mərhələ

Qeyd edək ki, "Gələcəyin Oyunları" turniri hər il təşkil olunur və idmançıların həm fiziki, həm də rəqəmsal oyunlar üzrə bacarıqlarını nümayiş etdirdiyi qlobal platformadır. Turnirin təşkilatçısı "Phygital International" fiziki və rəqəmsal oyunların birgə keçirilməsini təşviq edir. Yarış iki mərhələdə keçirilir: idmançılar ilkin mərhələdə fiziki idman növləri, ikinci mərhələdə isə rəqəmsal oyun bacarıqları üzrə sınaqdan keçirilir. Dekabrın 18-dən 23-dək Əbu-Dabi Milli Sərgi Mərkəzində təşkil olunacaq builki turnirə müxtəlif ölkələrdən idmanın 11 növü üzrə iştirakçıların qatılması nəzərdə tutulub.

AZƏRTAC səfərin əhəmiyyətini Azərbaycan-BƏƏ strateji tərəfdaşlığının möhkəmlənməsi, iqtisadi və humanitar əməkdaşlığın genişlənməsi, həmçinin regionda stabilliyin qorunması baxımından təhlil edir.

### Siyasi iradə və qarşılıqlı etimad münasibətləri dərinləşdirir

Əvvəla diqqətə çatdırmaq yerinə düşər ki, Azərbaycan Respublikası Birləşmiş Ərəb Əmirlikləri ilə sürətlə inkişaf edən strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir. Son illərdə ikitərəfli əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlib, dövlət başçıları arasında mövcud münasibətlər bütün sahələrdə əməkdaşlığın inkişafına təkan verir. Qarşılıqlı səfərlər isə əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir, iqtisadi, siyasi və humanitar əməkdaşlıq üçün geniş imkanlar yaradır.

Prezident İlham Əliyev indiyədək Birləşmiş Ərəb Əmirliklərinə 6 dəfə, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə Azərbaycana 3 dəfə səfər edib. Bu səfərlər iki ölkə arasında strateji dialoqun və qarşılıqlı etimadın möhkəmlənməsində mühüm rol oynayıb. Səfərlər zamanı imzalanan sənədlər və razılaşmalar əməkdaşlığın strukturunu və gələcək hədəflərini dəqiqləşdirir. Belə ki, 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı "Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb, 2025-ci ilin sentyabrında isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" qüvvəyə minib. Bu sənədlər Azərbaycan və BƏƏ arasında ikitərəfli münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldıraraq strateji tərəfdaşlığın bütün sahələrdə möhkəmlənməsinə xidmət edir. Xüsusilə siyasət, iqtisadiyyat, ticarət, enerji və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsini təmin edir, qarşılıqlı faydalı layihələrin daha səmərəli və davamlı şəkildə həyata keçirilməsi üçün mükəmməl hüquqi və institusional zəmin yaradır. Hərtərəfli Strateji Tərəfdaşlıq Bəyannaməsi iki ölkə arasında etimadın artırılmasına, qarşılıqlı dialoqun intensivləşdirilməsinə və uzunmüddətli əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsinə imkan verir.

Bu yanaşma həmçinin Azərbaycan və BƏƏ arasında dostluq və tərəfdaşlıq münasibətlərini daha da dərinləşdirir, gələcəkdə enerji və investisiya sahələrində yeni layihələrin həyata keçirilməsini asanlaşdırır. Sənədlərdə nəzərdə tutulmuş mexanizmlər iqtisadi-ticari əlaqələrin şaxələndirilməsinə, innovasiya və texnologiya sahəsində əməkdaşlığın gücləndirilməsinə, eləcə də sosial və humanitar sahələrdə birgə təşəbbüslərin inkişafına şərait yaradır. Nəticədə iki ölkə arasında əlaqələr yalnız kəmiyyət baxımından deyil, keyfiyyətcə də daha yüksək səviyyəyə çatır, bu isə regionda davamlı sabitlik və inkişaf üçün mühüm amil kimi çıxış edir.

Azərbaycan Prezidentinin Birləşmiş Ərəb Əmirliklərinə budəfəki işgüzar səfəri həm də 2025-ci il iyulun 9-da imzalanmış "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin həyata keçirilməsini sürətləndirir. Bu saziş ticarət həcmlərinin artırılması, investisiya axınlarının şaxələndirilməsi, innovasiya və "yaşıl texnologiyalar" sahələrində əməkdaşlığı genişləndirir. Eyni zamanda biznes dairələri arasında əlaqələrin möhkəmlənməsinə dəstək olur və ikitərəfli iqtisadi münasibətlərin dərinləşməsini təmin edir.

Ümumilikdə bu günədək Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi, iqtisadi, enerji, humanitar və mədəni sahələri əhatə edən 50-dən çox ikitərəfli sənəd imzalanıb ki, bu da münasibətlərin institusional əsaslar üzərində inkişaf etdiyini göstərir. Parlamentlərarası əlaqələr də dinamik xarakter daşıyır və qarşılıqlı siyasi dialoqun mühüm tərkib hissəsi kimi çıxış edir. 2025-ci ildə hər iki ölkənin parlament sədrlərinin qarşılıqlı səfərləri qanunverici orqanlar arasında əməkdaşlığın dərinləşdirilməsinə və qarşılıqlı təcrübə mübadiləsinə geniş imkanlar yaradıb. Bu əlaqələr siyasi etimadın möhkəmlənməsinə, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın daha da genişlənməsinə xidmət edir.

Azərbaycan və BƏƏ eyni zamanda Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla beynəlxalq platformalar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Xüsusilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olduğu 2012-2013-cü illərdə BƏƏ-nin ölkəmizə göstərdiyi siyasi dəstək yüksək qiymətləndirilir. Bu əməkdaşlıq tərəflərin beynəlxalq hüquqa və çoxtərəfli diplomatiyaya verdiyi önəmi nümayiş etdirməklə yanaşı, regional və qlobal səviyyədə sülhün, təhlükəsizliyin və siyasi sabitliyin möhkəmləndirilməsinə mühüm töhfə verir.

### Ticarət, investisiya və "yaşıl enerji" əməkdaşlığı

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi sahədə əməkdaşlıq son illərdə dinamik şəkildə inkişaf edir və konkret rəqəmlərdə öz təsdiqini tapır. Belə ki, cari ilin yanvar-oktyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artaraq 147,49 milyon ABŞ dollarına çatıb. Bu artım qarşılıqlı iqtisadi maraqların genişləndiyini, eyni zamanda imzalanmış sazişlərin real nəticələr verdiyini göstərir. İnvestisiya sahəsində isə Azərbaycan İnvestisiya Holdinqi ilə Əbu-Dabi İnkişaf Holdinqi tərəfindən yaradılmış Birgə İnvestisiya Fondu bir sıra prioritet layihələrin maliyyələşdirilməsinə və uzunmüddətli iqtisadi əməkdaşlığın möhkəmlənməsinə şərait yaradır.

Turizm sahəsində əlaqələrin inkişafında birbaşa aviareyslərin xüsusi rolunu da vurğulamalıyıq. Bakı ilə Əbu-Dabi, Dubay və Şarja şəhərləri arasında həyata keçirilən birbaşa uçuşlar insanların gediş-gəlişini asanlaşdırmaqla yanaşı, humanitar təmasların genişlənməsinə də töhfə verir. Cari il ərzində təxminən 39 min BƏƏ vətəndaşının Azərbaycana səfəri turizm əlaqələrinin artan xətt üzrə inkişaf etdiyini göstərir. Bununla yanaşı, iki ölkə arasında tranzit daşımaların həcminin 20 faizdən çox artması Azərbaycanın regional logistika mərkəzi kimi mövqeyinin möhkəmləndiyini və ticarət əlaqələrinin daha da genişləndiyini nümayiş etdirir.

Enerji sahəsində əməkdaşlıq isə Azərbaycan-BƏƏ strateji tərəfdaşlığının əsas istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət kəsb edir. BƏƏ-nin aparıcı enerji şirkətləri olan "Masdar" və ADNOC-un Azərbaycanın enerji sektorunda fəal iştirakı bu əməkdaşlığın bariz nümunəsidir. Günəş və külək-elektrik stansiyalarının tikintisini nəzərdə tutan bu layihələr ölkəmizin enerji təhlükəsizliyinin gücləndirilməsinə, bərpaolunan enerji mənbələrinin payının artırılmasına və "yaşıl keçid" strategiyasının sürətləndirilməsinə mühüm töhfə verir. Eyni zamanda bu təşəbbüslər Azərbaycanı regionda "yaşıl enerji" sahəsində qabaqcıl ölkələrdən birinə çevirmək məqsədinə xidmət edir.

### Humanitar diplomatiya münasibətlərin mühüm istiqaməti kimi

Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində minatəmizləmə fəaliyyətinə göstərdiyi dəstək ikitərəfli münasibətlərin humanitar ölçüsünü aydın şəkildə nümayiş etdirir. BƏƏ hökumətinin bu məqsədlə ANAMA-ya 5 milyon ABŞ dolları məbləğində maliyyə yardımı ayırması postmünaqişə dövründə təhlükəsizliyin təmin olunmasına, bərpa və yenidənqurma proseslərinin sürətləndirilməsinə mühüm töhfədir. Bu addım eyni zamanda BƏƏ-nin Azərbaycanın ərazi bütövlüyünə və sülh gündəliyinə verdiyi siyasi, humanitar dəstəyin göstəricisi kimi qiymətləndirilir. Humanitar sahədə əməkdaşlıqla yanaşı, təhsil istiqamətində də əlaqələr ardıcıl şəkildə genişlənir və qarşılıqlı mədəni yaxınlaşmanı təşviq edir.

Bu baxımdan, 2024-cü ildə Azərbaycan Dillər Universitetində Şeyx Zayed adına ərəb dili auditoriyasının açılması iki ölkə arasında təhsil və mədəni əməkdaşlığın mühüm nümunələrindən biri hesab olunur. Hazırda Azərbaycanın bir sıra ali və ümumtəhsil müəssisələrində ərəb dilinin tədrisi gənclər arasında dil biliklərinin və mədəni anlayışın formalaşmasına xidmət edir. Eyni zamanda Azərbaycanın və BƏƏ-nin aparıcı ali təhsil müəssisələri arasında imzalanmış anlaşma memorandumları akademik mübadilənin, birgə elmi tədqiqatların və təcrübə proqramlarının genişləndirilməsinə imkan yaradır.

Ölkələrimiz arasında mədəni sahədə əlaqələr də ardıcıl və sistemli şəkildə inkişaf etdirilir. Keçirilən mədəniyyət günləri, sərgilər və təqdimatlar xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə mühüm töhfə verir. Xüsusilə 2024-cü ildə Əbu-Dabi şəhərində təşkil olunmuş "Şuşa Günləri" adlı tədbir Azərbaycanın zəngin tarixi və mədəni irsinin BƏƏ ictimaiyyətinə çatdırılması baxımından əlamətdar hadisə kimi dəyərləndirilir. Bu cür təşəbbüslər humanitar diplomatiyanın güclənməsinə, ölkələrimizin dostluq münasibətlərinin daha da dərinləşməsinə və uzunmüddətli əməkdaşlıq üçün etibarlı əsasların formalaşmasına xidmət edir.

## "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 177-VIIQD nömrəli Qanununun tətbiqi və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 may tarixli 388 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

**№ 392** **Bakı şəhəri, 16 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 177-VIIQD nömrəli Qanununun tətbiqi və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 may tarixli 388 nömrəli Fərmanının 2-ci hissəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası"nın və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 avqust tarixli 295 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1433 (Cild I) aşağıdakı məzmunda 9-11-ci hissələr əlavə edilsin:

"9. "Yanacaqdoldurma və qaz təchizatı obyektlərinin quraşdırılması və istismarına ümumi lisenziya" blankının forması təsdiq edilsin *(10 nömrəli əlavə)*.

10. "Yanacaqdoldurma və qaz təchizatı obyektlərinin quraşdırılmasına xüsusi lisenziya" blankının forması təsdiq edilsin *(11 nömrəli əlavə)*.

11. "Yanacaqdoldurma və qaz təchizatı obyektlərinin istismarına xüsusi lisenziya" blankının forması təsdiq edilsin *(12 nömrəli əlavə)*.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 36 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 299 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 9 oktyabr tarixli 296 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair Tələblər"in 2.4-cü bəndində "təbii qaz təsərrüfatı" sözləri "qaz təchizatı" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Xüsusi İcra Məmurlarının Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

**№ 393** **Bakı şəhəri, 16 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.2.1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xüsusi İcra Məmurlarının Reyestrinin aparılması Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nda dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

**№ 394** **Bakı şəhəri, 16 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Pasportlar haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 214-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; 2025, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli, 1 dekabr tarixli 356 nömrəli və 2 dekabr tarixli 365 nömrəli qərarları) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"ndan "Televiziya və Radio Şurasının Aparatı" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə görüşüb



**Dekabrın 17-də Milli Məclisin Sədri Sahibə Qafarova Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç ilə görüşüb. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, spiker Sahibə Qafarova nümayəndəliyin rəhbərini ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona gələcək işlərində uğurlar arzulayıb.**

Görüşdə Azərbaycanla Aİ arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Xüsusilə 2025-ci il ərzində əlaqələrdə, qarşılıqlı səfər və görüşlərdə müşahidə olunan müsbət dinamikadan məmnunluq ifadə olunub, Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə görüşlərinin tərəflər arasında ikitərəfli gündəliyin müxtəlif aspektlərinin müzakirəsi baxımından əhəmiyyəti qeyd edilib.

Aİ-nın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç Azərbaycan və Ermənistan arasında sülh istiqamətində əldə olunan irəliləyişlər münasibətilə təbriklərini çatdırıb və bunu tarixi hadisə kimi dəyərləndirib. Diplomat tərəflər arasında sülhün əldə olunması istiqamətində irəliləyişlərin həm region, həm qitə, həm də dünya üçün əhəmiyyətli hadisə olduğunu söyləyib.

Milli Məclisin Sədri diplomata Azərbaycan və Ermənistan arasında aparılan sülh prosesi, o cümlədən parlamentlər arasında etimad quruculuğu tədbirləri haqqında məlumat verib. Spiker Sahibə Qafarova bu kontekstdə "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik"də sülh prosesi baxımından narahatlıq doğuran məqamlara toxunub.

Azərbaycan parlamentinin Sədri Milli Məclisin Aİ-yə üzv ölkələrin parlamentləri ilə sıx əməkdaşlığını qeyd edib. O, özünün bu istiqamətdə səfərlərini və görüşlərini məmnunluqla xatırlayıb.

Spiker Sahibə Qafarova Avropa Parlamentinin Azərbaycan əleyhinə qətnamələrinə toxunaraq, bu gün regionda mövcud olan reallıqların, Azərbaycan və Ermənistan arasında sülh prosesində əldə olunmuş nailiyyətlərin bu qətnamələrin nə dərəcədə qərəzli olmasını bir daha sübut etdiyini deyib.

Söhbət zamanı həmçinin Azərbaycanla Aİ arasında əlaqələrin müxtəlif aspektləri nəzərdən keçirilib. O cümlədən enerji sahəsində tərəfdaşlığın əhəmiyyəti vurğulanıb. Eyni zamanda nəqliyyat, ticarət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanların olduğu diqqətə çatdırılıb.

***"Azərbaycan"***

# Parlamentlərin əməkdaşlıq əlaqələrindən razılıq ifadə olunub



**Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 17-də Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Reda ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona gələcək işlərində uğurlar arzulayıb.

Görüşdə ölkələrimiz arasında dostluq münasibətlərinin hazırkı səviyyəsindən razılıq ifadə olunaraq, əlaqələrin inkişafında dövlət başçılarının rolu və dəstəyi xüsusi qeyd edilib.

Söhbət zamanı Milli Məclis və Misir parlamentinin həm yuxarı, həm də aşağı palataları arasında müsbət əməkdaşlıq əlaqələrindən razılıq ifadə olunub. Spiker Sahibə Qafarova özünün Misir Ərəb Respublikasına rəsmi səfərinin və keçirdiyi görüşlərin, həmçinin qarşı tərəfdən ölkəmizə səfərlərin əməkdaşlıq əlaqələrinin inkişafına töhfə verdiyini bildirib, dostluq qruplarının fəaliyyətini qeyd edib.

Səfir Houssam-Eldine Reda görüşə və təbrikə görə təşəkkürünü ifadə edərək, gələcək fəaliyyətində digər sahələrdə olduğu kimi, qanunvericilik orqanları arasında da təmasların genişləndirilməsinə töhfə verməyə çalışacağını söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Prokurorluq orqanları arasında beynəlxalq əməkdaşlıq genişlənir



**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qətər Dövlətinin paytaxtı Doha şəhərində səfərdədir. Səfər çərçivəsində Qətər Dövlətinin baş prokuroru İssa bin Saad Al Nuaiminin dəvəti ilə nümayəndə heyəti Qətər Dövlətinin Baş Prokurorluğunda görüş keçirib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Qətər Dövlətinin baş prokuroru qurumlar arasında yüksəksəviyyəli işgüzar münasibətlərin ölkələrimizin siyasi rəhbərlikləri arasında formalaşmış dostluq münasibətlərindən qaynaqlandığını qeyd edib. O, ölkəmizə səfərini xatırlayaraq göstərilmiş xüsusi diqqətə görə minnətdarlığını bildirib.

Baş prokuror yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək hər iki ölkənin prokurorluqları arasında formalaşmış səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edib.

Bununla yanaşı, daha əvvəl imzalanmış Anlaşma Memorandumunun icrası ilə bağlı konkret tədbirlər, həmçinin digər sahələrdə əməkdaşlıq perspektivləri müzakirə olunub. Baş prokuror həmkarını ölkəmizə səfərə dəvət edib.

Tədbir çərçivəsində bir sıra beynəlxalq təşkilatların və ölkələrin nümayəndələri ilə ikitərəfli görüşlər keçirilib.

Qətər Dövlətinin İnzibati Nəzarət və Şəffaflıq Qurumunun rəhbəri Hamad bin Nasser Al Misnad ilə görüşdə baş prokuror Kamran Əliyev həmkarını BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyasının sədri seçilməsi münasibətilə təbrik edib, ölkəmizdən olan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edərək qurumlar arasında yüksələn xətt üzrə inkişaf edən münasibətlərin olmasını vurğulayıb.

Bu il ölkəmizə səfərinin xüsusilə yaddaqalan olmasını xatırladan ev sahibi iki ölkənin qurumları arasında təcrübə mübadiləsinin vacibliyini bildirib. Bununla yanaşı, birgə fəaliyyətlə bağlı Azərbaycan tərəfinin təşəbbüslərinin dəstəkləndiyi ifadə edilib.

Baş prokuror Kamran Əliyevlə BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin cari direktoru John Brandolino arasında görüşdə qurumlar arasında faydalı əməkdaşlıq əlaqələrinin qurulması və bir sıra birgə layihələrin uğurla icrası vurğulanıb. O, Azərbaycan Prokurorluğunun qurumun fəaliyyətində aktiv iştirakına görə təşəkkür edərək ölkəmizin irəli sürülmüş digər təşəbbüslərinin də BMT tərəfindən dəstəkləndiyini bildirib.

Bundan başqa, baş prokuror İranın ədliyyə naziri Əmin Hüseyn Rəhimi ilə ikitərəfli görüş keçirib.

Görüşdə dövlət başçıları arasında formalaşmış dost münasibətlərinin ölkələrimizin bütün sahələrdə ikitərəfli əməkdaşlığını yeni mərhələyə qaldırması vurğulanıb, hüquq-mühafizə, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, cinayət törətmiş şəxslərin və məhkumların verilməsi sahəsində qarşılıqlı əməkdaşlıqla bağlı konkret məsələlər müzakirə edilib.

Baş prokurorla Beynəlxalq Antikorrupsiya Akademiyasının cari dekanı Drago Kos arasında ikitərəfli görüşdə Azərbaycanın akademiyaya göstərdiyi hərtərəfli dəstəyə görə təşəkkürünü çatdırmaqla tərəflər arasında əməkdaşlığın genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsi müzakirə edilib.

Tədbir müddətində həmçinin baş prokuror Kamran Əliyev Litva Xüsusi İstintaq Xidmətinin direktoru Linas Pernavas, Uqanda Dövlət Prokurorluq Xidmətinin direktoru Lino Anguzu, Moldovanın baş prokuroru Aleksandru Makedon və digər nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirərək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıb.

# Ailə institutunun gücləndirilməsi gündəmdədir



**Dekabrın 17-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə. iclasda Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar İttifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında" "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirə edilib.

Komitənin sədri Hicran Hüseynova bildirib ki, qanun layihəsi vətəndaşların əmək hüquqlarının təmin edilməsinə xidmət etməklə yanaşı, əmək münasibətlərinin müasir və sosialyönümlü hüquqi tənzimlənməsini təmin etməyi, beynəlxalq əmək normalarına uyğunluğun gücləndirilməsini, habelə normativ-hüquqi aktların tələblərinə uyğunlaşdırmanın aparılmasını nəzərdə tutur. Layihəyə əsasən, ölkədə əmək münasibətlərinin gender bərabərliyi prinsipi əsasında qurulması və qadınların məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə mövcud qanunvericilikdə qadın əməyinin qadağan edildiyi 674 peşə, vəzifə və iş yerinin sayı azaldılaraq 204-ə endirilib.

Komitə sədri qeyd edib ki, qanun layihəsinə daxil edilən anlayışlardan biri də "ailə vəzifələri olan işçi" anlayışıdır və bu dəyişiklik ailə institutunun gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Qanun layihəsinin müzakirəsində komitənin sədr müavini Jalə Əliyeva, üzvləri Pərvin Kərimzadə, Könül Nurullayeva, Müşfiq Məmmədli, Sevinc Hüseynova, Günay Ağamalı, Səbinə Xasayeva və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taliyə İbrahimova çıxış edərək sənədin sosial rifahın gücləndirilməsinə öz töhfəsini verəcəyini söyləyiblər, rəy və təkliflərini səsləndiriblər.

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının Əmək siyasəti şöbəsinin müdiri Fuad Heydərov qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Strateji tərəfdaşlığa əsaslanan uğurlu əməkdaşlıq

### Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri münasibətləri yeni yüksəliş mərhələsindədir



**Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə səfər edib.**

Dövlət başçısı Əbu-Dabidə keçirilən "Gələcəyin Oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak edib.

"Gələcəyin Oyunları" hər il təşkil olunması nəzərdə tutulan qlobal idman turniridir. Turnir iki mərhələdə həyata keçirilir. İlk mərhələdə idmançılar fiziki idman növləri üzrə yarışırlar. İkinci mərhələdə isə onların rəqəmsal oyunlar üzrə bacarıqları sınaqdan keçirilir. "Növbəti nəsil insanlar. Gələcəyini oyna" devizi altında təşkil olunan turnirdə müxtəlif ölkələrdən idmançılar ümumilikdə 11 idman növü üzrə yarışacaqlar. Ötən il BƏƏ 9 iddiaçı namizəd arasında qalib gələrək 2025-ci ildə keçiriləcək "Gələcəyin Oyunları" turnirinə evsahibliyi etmək hüququ qazanıb.

Prezident İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüş zamanı strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayıb.

Ümumiyyətlə, Birləşmiş Ərəb Əmirlikləri müasir dünyada öz inkişafı ilə seçilən dövlətlərdəndir. Azərbaycan ilə BƏƏ əlaqələrinin əsası 1991-ci ildə qoyulub. Azərbaycanın ərəb dünyası ilə dərin tarixi-mədəni bağlılığı var. Eyni zamanda Ərəb Dövlətləri Liqasının bütün üzvləri Azərbaycanın hazırda sədrlik etdiyi Qoşulmama Hərəkatının (QH) üzvləridir. İslamofobiya meyillərinə qəti şəkildə qarşı çıxan Azərbaycan 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü əsasında başladılan "Bakı Prosesi" sayəsində müsəlman ölkələri ilə Avropa dövlətlərinin nümayəndələrini bir araya gətirməklə mədəniyyətlərarası dialoqun dünya miqyasında təbliğinə güclü təkan verib. Məhz bu proses çərçivəsində Azərbaycan tərəfindən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları təşkil edilir.

Son illər ölkələrimiz arasında iqtisadiyyat, o cümlədən energetika sahəsində əlaqələr dinamik inkişafdadır. 2017-ci ildən bəri Dubay şəhərində ölkəmizin ticarət nümayəndəliyi, 2019-cu ildən isə yerli məhsullarımızın BƏƏ və Körfəz ölkələrində satışını təşkil etmək və "Made in Azerbaijan" brendini BƏƏ bazarında daha çox tanıtmaq üçün "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Hazırda Azərbaycanda BƏƏ investisiyalı 350-dən çox kommersiya qurumu qeydiyyatdadır.

Prezident İlham Əliyev indiyədək Birləşmiş Ərəb Əmirliklərinə 6 dəfə, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə Azərbaycana 3 dəfə səfər edib. Bu səfərlər iki ölkə arasında strateji dialoqun və qarşılıqlı etimadın möhkəmlənməsində mühüm rol oynayıb. Səfərlər zamanı imzalanan sənədlər və razılaşmalar əməkdaşlığın strukturunu və gələcək hədəflərini dəqiqləşdirir. Belə ki, 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı "Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb, 2025-ci ilin sentyabrında isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" qüvvəyə minib. Bu sənədlər Azərbaycan və BƏƏ arasında ikitərəfli münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldıraraq strateji tərəfdaşlığın bütün sahələrdə möhkəmlənməsinə xidmət edir.

İki ölkə arasında imzalanan sənədlərdən göründüyü kimi, Azərbaycan ilə BƏƏ arasındakı əlaqələr strateji xarakter daşıyır. Qarşılıqlı münasibətlərin dostluq xarakteri daşıması tərəflərin bir-birinə siyasi dəstəyini də təmin edəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Regiondakı yeni status-kvo Azərbaycanın hərbi-siyasi qələbələrinin nəticəsidir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müzəffər liderliyində Vətən müharibəsi və antiterror tədbirlərində qazandığı böyük zəfərin ardınca yaranan yeni geosiyasi konfiqurasiyanın bütövlükdə regionun sülh, sabitlik və əməkdaşlıq mühitində ehtiva olunan qarantına çevrildiyinə şahidlik etməkdəyik. Dövlət başçımızın ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları ilə sülh və əməkdaşlıq şəraitində yaşamaq və bu istiqamətdə fəaliyyət göstərməyi, habelə digər dövlətlərlə beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsipləri rəhbər tutmaqla qurulan əlaqələr formatında həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursunun müşahidə olunan uğurları, eyni zamanda zəfərimizin yalnız hərbi-siyasi reallığa söykənmədiyini, həm də özündə çoxşaxəli pozitiv spektrləri əhatələdiyini göstərməkdədir.**



Qütblərarası ziddiyyətlərin dərinləşdiyi, münaqişələrin daha qlobal və təhlükəli xarakter aldığı bir dönəmdə tarixən əsas münaqişə mərkəzlərindən biri kimi çıxış edən Cənubi Qafqazda sülhə nail olmaqla, əslində, cənab İlham Əliyev yalnız ümumbəşəri dəyərlər zəminində yox, həm də beynəlxalq hüququn və bütövlükdə hüququn aliliyinin təmin edildiyi, investisiya mühiti üçün əlverişli şəraitin formalaşdığı bir status-kvonun yaradılmasına nail olmaqla, bütövlükdə bölgə tarixində yeni bir dövrü başlatmış oldu. Məlumdur ki, uzun bir dövr ərzində özünü beynəlxalq ictimaiyyət kimi təqdim edən bəzi qlobal güclər Azərbaycan və Ermənistan arasında münaqişəyə öz maraqlarının təmini üsulu kimi baxır və mümkün qədər münaqişənin dayanıqlı xarakter alması istiqamətində müxtəlif formalarda, son dövrlərdə isə açıq şəkildə səylər göstərirdi. Adıçəkilən güclər üçün Azərbaycan və Ermənistan arasında sülhün yalnız bir formatı var idi - münaqişənin dondurulması. Bu situasiya isə regionda sülhün və sabitliyin davamlı təhdidinə əsaslanan bir konfiqurasiya meydana çıxarırdı.

Yeni inkişaf yoluna qədəm qoymuş Azərbaycan Respublikasının beynəlxalq hüquqla tanınan ərazilərindən imtina etməməsi, o cümlədən münaqişənin dondurularaq hər an alovlanmasında ehtiva olunan təhlükəli formata çevrilməməsi istiqamətində qətiyyətli mövqeyi fonunda Cənubi Qafqaz əlverişli coğrafi şəraitinə baxmayaraq, təhlükəsizlik səbəbindən o qədər də etibarlı investisiya mühiti kimi görünmürdü. O cümlədən uzun bir dövr ərzində beynəlxalq güclər Azərbaycanın qlobal əhəmiyyətli layihələri reallaşdırması qarşısında açıq əngəl kimi çıxış edir, zəngin təbii sərvətlərə malik olan ölkəmizin potensialının realizəsini özlərinin alternativsiz monopoliyalarında saxlamağa cəhd göstərirdilər.

Xüsusən dünyanın bir çox bölgələrində Qərbdən ixrac olunan rəngli inqilablar, ayrı-ayrı cəmiyyətlərin milli dəyərləri ilə üst-üstə düşməyən və müasir mədəniyyət kimi təbliğ olunan tendensiyalar fonunda adıçəkilən güclər Azərbaycanda milli iradə üzərində nəzarəti bərqərar etmək istiqamətində total və təşkil olunmuş fəaliyyət qurmuşdular. Sovet İttifaqı dağıldıqdan sonra 1993-cü ilə qədərki hakimiyyətlərin milli fikri və milli maraqları təmsil etməməsi, iqtidar naminə bütün formalarda sövdələşməyə hazır olan Mütəllibov və AXC-Müsavat hakimiyyətlərindən fərqli olaraq Ulu Öndərin xalqın təkidli tələbi ilə ölkə idarəçiliyinə qayıtması imperializmin bütün planlarını pozdu. Ulu Öndərin bütün addımlarında milli iradəyə və xalqın mənafelərinə söykənməsi Azərbaycanı bir çox postsovet dövlətlərindən fərqli olaraq forposta çevrilməyə imkan vermədi. Ulu Öndərin qətiyyəti sayəsində Azərbaycan siyasi müstəqilliyini tam şəkildə bərqərar edə bildi, lakin yuxarıda da qeyd olunan səbəblər ucbatından, o cümlədən əvvəlki hakimiyyətlərin dağıdıcı və neobolşevik təfəkkürü, talançılığı nəticəsində iqtisadiyyatın, demək olar ki, çökməsi fonunda Azərbaycanın iqtisadi müstəqilliyinə doğru addımlaması xeyli zaman tələb etdi.

Ulu Öndər hakimiyyətə gəldikdən sonrakı 10 il ərzində Azərbaycanın dövlət büdcəsini 17 dəfə artırmağa nail olması, bizim real müstəqilliyə gedən yolumuzun başlanğıcı hesab edilən "Əsrin müqaviləsi"ni imzalaması və neft-qaz ehtiyatlarımızın beynəlxalq bazara çıxarılması üçün layihələrin təməllərinin qoyulması ümumi gedişatı dəyişdi. Ümummilli Liderin siyasi varisi cənab İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və bu istiqamətdə qətiyyətli davranışları Azərbaycanın iqtisadi müstəqilliyinə tam şəkildə nail olunması istiqamətində həlledici amil kimi çıxış etdi. Çoxsaylı maneələrə baxmayaraq, Prezident İlham Əliyev Azərbaycanın artan güc və imkanları hesabına, o cümlədən milli maraqlar zəminində barışmaz mövqeyi ilə, qlobal xarakterli layihələrin reallaşdırılmasına nail olmaqla respublikamızı sıradan postsovet dövlətindən qlobal aktor statusuna yüksəltdi.

Bir zamanlar özünün təhlükəsizliyi birmənalı şəkildə təhdid olunan Azərbaycan məhz cənab İlham Əliyevin qətiyyəti sayəsində özü çoxsaylı beynəlxalq subyektlər üçün təhlükəsizlik zəmanətçisinə, o cümlədən müstəqilliyinin təminatçısına çevrildi. Zamanında bir çox beyin mərkəzlərinin lüzum görmədiyi halda cənab İlham Əliyevin qətiyyət və uzaqgörənliklə reallaşdırdığı layihələr yalnız Azərbaycanın yox, eyni zamanda Mərkəzi Asiya dövlətləri üçün ümid qapısına çevrildi. Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində qələbəsi ilə bölgədə münaqişəyə son qoyulması və münaqişə dövründə Azərbaycanda beynəlxalq layihələrin icrası, habelə ölkəmizin beynəlxalq öhdəliklərinin vicdanla yerinə yetirilməsi qarşısında hər hansı əngəlin təsirli vasitə kimi çıxış edə bilməməsi tarixində ilk dəfə olaraq Azərbaycanın timsalında tədricən Cənubi Qafqazda əlverişli investisiya mühiti yarandı. Beləliklə, nəticə etibarilə tarix boyu bizim üçün böyük problemlərə yol açan coğrafi mövqeyimiz ölkəmizin inkişaf və tərəqqisində, xüsusən iqtisadi potensialının realizəsində mühüm rol oynayan dividendə çevrilməyə başladı.

Əlbəttə, qeyd olunan proseslər, o cümlədən Azərbaycanın artan iqtisadi potensialının təsiri ilə hərbi-siyasi imkanlarının güclənməsi bölgənin siyasi arxitekturasının müəyyənləşməsində respublikamızın roluna birmənalı müsbət təsir etmiş, Bakı bölgənin aparıcı aktoru kimi qəbullanmışdır. Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanmış sülh prosesinin beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərə əsaslanması, dövlətlərin bərabərliyi və suveren əməkdaşlığı kontekstinin rəhbər tutulması, qarşılıqlı hörmətlə ehtiva olunan niyyətlərin bəyan olunması ölkəmizin irəli sürdüyü direktivlərə münasibətdə hər hansı şübhəyə yer qoymadığı üçün uzun bir dövr ərzində regionda sülh gündəliyi qarşısında əngəl kimi çıxış edən beynəlxalq subyektlər də prosesə dəstək verməyə başladılar. 8 avqust 2025-ci ildə Vaşinqtonda ABŞ və Azərbaycan arasında, o cümlədən Azərbaycan və Ermənistan arasında aparılan danışıqlar və əldə olunan razılaşmalar, həmçinin Azərbaycanla Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin bərqərar edilməsinə dair sazişin paraflanması məhz bu reallığın bariz nümunəsi hesab edilə bilər.

Aydındır ki, qeyd olunan status-kvo Azərbaycanın hərbi-siyasi qələbələrinin birmənalı nəticəsidir. Lakin onu da nəzərdən qaçırmaq olmaz ki, bölgədə marağı olan qlobal güclərin ortaq məxrəcə gətirilməsi, daha dəqiq desək, maraqlarının uzlaşdırılması ən azı zəfərin özü qədər əhəmiyyətlidir. Cənab İlham Əliyev məhz bu uzlaşmanı təmin etməklə Azərbaycanın uzun illərdən bəri təklif etdiyi əməkdaşlıq formatının realizəsi istiqamətində real addımlara start vermiş oldu. Nəticə etibarilə artıq bölgədə Azərbaycan və Ermənistan arasında kommunikasiya xətlərinin açılması istiqamətində real addımların atılması, həmçinin ölkəmizin tranzit potensialının genişlənməsi istiqamətində çoxsaylı razılaşmalar ölkəmizin hərəkətverici qüvvə kimi çıxış etdiyi uğurlu, təhlükəsiz və bütövlükdə bölgə xalqlarının rifahında ehtiva olunan bir dönəmin başlamasından xəbər verir.

*Bəhruz MƏHƏRRƏMOV,*
*Milli Məclisin deputatı*

## Keniyanın tanınmış radiosunda Azərbaycanın qlobal təşəbbüslərindən danışılıb

**Azərbaycanın Keniyadakı səfiri Sultan Hacıyev bu ölkənin tanınmış "Spice FM" radio kanalının "Kenya's Biggest Conversation" adlı canlı yayımlanan verilişinin qonağı olub. Kanalın Yutub hesabında 200 mindən çox izləyicisi var. Verilişə əsasən ölkənin ictimai-siyasi xadimləri, millət vəkilləri, səfirlər dəvət olunur və ictimai-siyasi mövzular ətrafında müzakirələr aparılır.**

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, aparıcının suallarına cavab olaraq səfir Sultan Hacıyev ötən həftə Keniyada baş tutan BMT-nin Ətraf Mühit Assambleyasının 7-ci sessiyasının nəticələri, Azərbaycanın BMT-nin Ətraf Mühit Proqramının Daimi Nümayəndələr Komitəsinə sədrliyi çərçivəsində görülən işlər barədə danışıb.

Səfir dünyada cərəyan edən mürəkkəb proseslər fonunda BMT-nin Nayrobidəki bölməsinin və üzv ölkələrin, o cümlədən Azərbaycanın qlobal iqlim fəaliyyətinə müsbət və konstruktiv töhfə vermək səylərini qeyd edib. O, Azərbaycanın COP29-a evsahibliyi, qlobal şəhərsalma çempionu olaraq qəbul edilən Azərbaycanın gələn il WUF13-ə və WED2026-ya evsahibliyi etməsi ilə ölkəmizin dayanıqlı şəhərsalma və iqlim sahəsində lider fəaliyyətini vurğulayıb.

Səfir Azərbaycan və Keniya arasında mövcud səmimi münasibətlərin dinamik inkişafından, çoxtərəfli platformalarda həmrəyliyindən söhbət açıb. Hər iki ölkənin yerləşdiyi bölgələrdə sülh və inkişaf naminə regional fəaliyyətini diqqətə çatdırıb. O, "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində keniyalı gənclərə verilən təhsil təqaüdlərinin, Heydər Əliyev Fondunun və Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyinin Keniyadakı məktəb və xəstəxanalara humanitar yardımlar göstərməsinin xalqların dostluq münasibətlərinin möhkəmləndirilməsinə böyük təsir göstərdiyini deyib.

## Azərbaycan-BƏƏ strateji tərəfdaşlığı Yaxın Şərq istiqamətində yeni siyasi-iqtisadi mərhələyə qədəm qoyur

**Azərbaycan Prezidentinin Birləşmiş Ərəb Əmirliklərinə səfəri iki ölkə arasında son illərdə formalaşmış strateji tərəfdaşlıq xəttinin ardıcıl davamı və dərinləşməsi baxımından mühüm siyasi hadisə kimi qiymətləndirilir. Bu səfər ikitərəfli münasibətlərin cari gündəliyində olan məsələlərin müzakirəsi ilə yanaşı, Azərbaycanın Yaxın Şərq və Körfəz regionu ilə əlaqələrinin genişləndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Son illər regional və qlobal proseslər fonunda Azərbaycan-BƏƏ münasibətləri təkcə siyasi dialoq müstəvisində deyil, iqtisadi, investisiya və enerji əməkdaşlığı istiqamətində də yeni məzmun qazanıb.**

Bunu AZƏRTAC-a açıqlamasında siyasi şərhçi Ülviyyə Zülfiqar bildirib.

Siyasi şərhçi qeyd edib ki, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub və müstəqillikdən sonra Körfəz ölkələri ilə əlaqələrin inkişafı Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib.

"İlk mərhələdə münasibətlər əsasən, siyasi dialoq və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək üzərində formalaşsa da, zamanla iqtisadi və ticari əməkdaşlıq da əlaqələrin mühüm komponentinə çevrilib. Xüsusilə 2000-ci illərin ortalarından etibarən yüksəksəviyyəli qarşılıqlı səfərlər, iqtisadi komissiyaların fəaliyyəti və investisiya layihələri əlaqələrin praktik müstəviyə keçdiyini nümayiş etdirib", - deyə o qeyd edib.

Ülviyyə Zülfiqar vurğulayıb ki, Prezident İlham Əliyevin BƏƏ-yə səfəri çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi əsas diqqət mərkəzində olub. Enerji, bərpaolunan enerji mənbələri, logistika, nəqliyyat və investisiya sahələrində əməkdaşlıq imkanlarının müzakirəsi tərəflər arasında qarşılıqlı maraqların yüksək səviyyədə uzlaşdığını göstərir. Onun sözlərinə görə, BƏƏ-nin qlobal investisiya təcrübəsi və Azərbaycanın regional tranzit imkanları bu əməkdaşlığı uzunmüddətli və strateji xarakterli edir.

Siyasi şərhçi qeyd edib ki, səfər zamanı siyasi dialoq da mühüm yer tutur. Azərbaycan və BƏƏ beynəlxalq platformalarda bir-birinin suverenliyi və ərazi bütövlüyünə ardıcıl dəstək nümayiş etdirir.

"Regional təhlükəsizlik, Yaxın Şərqdə və Cənubi Qafqazda baş verən proseslər ətrafında aparılan fikir mübadiləsi tərəflərin bir sıra əsas məsələlərdə oxşar mövqelərdən çıxış etdiyini təsdiqləyir", - deyə o bildirib.

Ü.Zülfiqar postmünaqişə dövründə Azərbaycanın həyata keçirdiyi bərpa və yenidənqurma layihələrinə BƏƏ şirkətlərinin artan marağını da xüsusi vurğulayıb. Onun sözlərinə görə, "yaşıl enerji" zonalarının yaradılması, "ağıllı şəhər" konsepsiyalarının tətbiqi ilə bağlı aparılan müzakirələr gələcək əməkdaşlığın konkret və praktik nəticələr verəcəyini göstərir.

Siyasi şərhçinin fikrincə, Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri Azərbaycan-BƏƏ münasibətlərinin artıq daha institusional mərhələyə keçdiyini, siyasi və iqtisadi sahələrdə konkret əməkdaşlıq mexanizmlərinin formalaşdığını nümayiş etdirir və bu səfər iki ölkə arasında strateji tərəfdaşlığın uzunmüddətli perspektivini daha da möhkəmləndirir.

# Azərbaycan nümunəsi

## Ölkəmizin qlobal tədbirlərə uğurlu evsahibliyi beynəlxalq miqyasda təqdir olunur

**Prezident İlham Əliyevin şəxsi nüfuzu, qlobal liderlik səriştəsi, diplomatik bacarığı, yürütdüyü balanslaşdırılmış siyasət sayəsində respublikamız mötəbər qurumlarda uğurla təmsil olunur, aktiv şəkildə beynəlxalq çağırışlara qoşulur və dünyanı narahat edən problemlərin həllinə mühüm töhfələr verir. Azərbaycanın regionda yaratdığı yeni reallıqlar, təhlükəsizlik və sülh vəd edən əməli işlər isə ölkəmizin həm də nüfuzlu beynəlxalq mərkəz rolunu oynamasına gətirib çıxarıb.**



Bu gün beynəlxalq tədbirlərin baş tutduğu, qlobal problemlərin dialoq yolu ilə həll edildiyi platforma kimi tanınan Azərbaycan həm də evsahibliyi etdiyi toplantıları yüksək təşkilatçılıq səviyyəsində keçirməsi ilə dünyada rəğbət qazanıb. Özü də təkcə paytaxt Bakıda deyil, ölkəmizin Qarabağ və Şərqi Zəngəzur da daxil olmaqla hər bir bölgəsində yüksəksəviyyəli qlobal miqyaslı tədbirlər, konfranslar keçirilir ki, bu da respublikamızın hərtərəfli inkişafından xəbər verir.

20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının (FIFA U-20 World Cup) 2027-ci ildə Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilməsi, eyni zamanda Bakının 2026-cı il "Dünya İdman Paytaxtı" elan olunması da Azərbaycanın qlobal nüfuzuna əyani nümunələrdir.

### Böyük etimadın təzahürü

Ötən il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar beynəlxalq ictimaiyyət tərəfindən yekdil qərar verilməsinin özü ölkəmizə göstərilən böyük etimadın və hörmətin təzahürü idi.

COP29-a evsahibliyi edən Azərbaycan dünyanı birləşdirən ölkə olaraq beynəlxalq səviyyədə adından söz etdirdi. Həmin vaxt 196 ölkədən gəlmiş 70 mindən çox iştirakçı, o cümlədən 80-dən artıq prezident, vitse-prezident və baş nazir dünyanın ekoloji fəlakətdən xilası üçün Bakıya toplaşaraq iqlim dəyişmələrinin yaratdığı fəsadların aradan qaldırılması üçün real həll yolları aradılar, konkret təkliflər irəli sürdülər və bu sayədə müsbət nəticələr əldə edildi. Həmçinin ölkəmizə gələn əcnəbi qonaqların hər birinin Azərbaycanın COP29-a yüksək səviyyədə təşkilatçılıq etdiyini məmnunluqla vurğulaması ölkəmizin bu qlobal tədbirə layiqli evsahibliyindən xəbər verirdi.

Ümumiyyətlə, iştirakçı sayına görə nəhəng tədbir olan COP29-a qədər də Azərbaycan neçə-neçə dünyamiqyaslı tədbirə layiqincə evsahibliyi edib. Hələ illər əvvəldən belə kütləvi tədbirləri keçirməklə bağlı yetərincə təcrübə sahibi olan Azərbaycan hər zaman ortaya örnək götürüləcək nümunə qoyub. İstər siyasi, iqtisadi, mədəni, idman və sair olsun, fərqi yoxdur, ölkəmizdə keçirilən tədbirlər ideal formada həyata keçirilməsi ilə diqqət çəkib. Təşkilatçılığın yüksək səviyyədə olmasından tutmuş, nümunəvi evsahibliyinə, qonaqpərvərliyə, insanlarının mehribanlığına görə qonaqlarında unudulmaz təəssüratlar yaradıb. Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, "Eurovision", eləcə də Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə bu çərçivədə ölkəmizdə həyata keçirilən SPECA-nın Zirvə görüşü, Beynəlxalq Astronavtika Konqresi kimi mühüm tədbirlər yaddaşlarda silinməz izlər buraxıb.

Xüsusi vurğulanmalıdır ki, adıçəkilən beynəlxalq miqyaslı tədbirlərin təşkilində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri olub. Birinci xanım Mehriban Əliyevanın Təşkilat Komitəsinə rəhbərliyi sayəsində həmin tədbirlər yüksək səviyyədə keçirilib.

### İdman ölkəsi

Cari il 15 dekabr tarixində Prezident İlham Əliyev 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının 2027-ci ildə Azərbaycanda keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.

Sərəncamda deyilir ki, Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) Şurasının 2025-ci il 2 oktyabr tarixli iclasında 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatının (FIFA U-20 World Cup) 2027-ci ildə Azərbaycanda və Özbəkistanda keçirilməsi barədə qərar qəbul edilmişdir: "Azərbaycanın 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatı kimi mötəbər bir idman tədbirinə evsahibliyi etməsi onun idman ölkəsi kimi artan nüfuzunun daha da möhkəmlənməsinə, gələcəkdə belə mühüm layihələrin respublikamızda yüksək səviyyədə təşkilinə müsbət təsir göstərəcəkdir".

Yuxarıda vurğuladığımız kimi, Bakı 2026-cı il "Dünya İdman Paytaxtı" elan olunub. Bu münasibətlə dekabrın 16-da dövlət rəsmilərinin və Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının (ACES) nümayəndələrinin iştirakı ilə "Dünya İdman Paytaxtları" xatirə lövhəsinin rəsmi imzalanma mərasimi keçirilib.

"Dünya İdman Paytaxtı" titulu rəsmi olaraq Monakodan Bakıya təhvil verilib.

"İdman Paytaxtı" layihəsi ACES Brüsseldə yerləşən qeyri-kommersiya assosiasiyasıdır və hər il müxtəlif qitələrdən şəhərlərə "İdman Paytaxtı" və digər idman sahəsi üzrə mükafatlar təqdim edir. Bu titul və mükafatlar etik prinsiplər əsasında verilir və cəmiyyətin sosial inteqrasiyası, psixofiziki rifahı və həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. ACES həmçinin Avropa Komissiyasının Avropa İdman Həftəsinin və UNESCO-nun tərəfdaşıdır.

Bütün bu uğurlar, respublikamızda beynəlxalq yarışların həyata keçirilməsi ilə bağlı verilən qərarlar həm də ölkəmizdə idmana göstərilən qayğının, bu sahənin inkişafı üçün yaradılan hərtərəfli şəraitin, qurulan müasir infrastrukturun, keyfiyyətli idman obyektlərinin nəticələri kimi də qiymətləndirilməlidir.

Azərbaycan, paytaxt Bakı qarşıdakı illərdə də dünyanın diqqət mərkəzinə çevriləcək, ölkəmizdə idman bayramı yaşanacaq. Və tam əminliklə demək olar ki, indiyə qədər Azərbaycanda keçirilən müxtəlif səpkili qlobal tədbirlər olduğu kimi, 20 yaşınadək kişilər arasında futbol üzrə dünya çempionatı da yüksək səviyyədə keçiriləcək və sərgilənən mükəmməl evsahibliyi, qonaqpərvərliklə nümunə ortaya qoyulacaq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Qətər Azərbaycanın Yaxın Şərqdə mühüm tərəfdaşıdır

**Bəşər sivilizasiyarı tarixində mühüm rol oynamış Ərəbistan yarımadası özünün keçmişi və bu günü ilə fəxr edə bilər. Müasir Almaniyanın ərazisindən beş dəfə böyük olan bu yarımada qədim ərəb qəbilələrinin məskəni olmaqla yanaşı, həm də iudaizm, xristianlıq və islam dinlərinin beşiyi olmuşdur.**



Vaxtilə Məhəmməd peyğəmbərin zamanında 1000-dən çox ərəb qəbilə və tayfalarının birləşməsi nəticəsində ərəb xalqı formalaşmış və sonrakı əsrlərdə ərəb-müsəlman mədəniyyəti dünya mədəniyyəti xəzinəsinə dəyərli töhfələr vermişlər.

Bu gün bu arealda çiçəklənən dövlətlər göz önündə canlanır. Ərəb şərqində bir ulduz kimi parlayan Qətər Dövləti qısa zaman kəsiyində həyatın müxtəlif sahələrində möhtəşəm nailiyyətlərə imza atmışdır. Qətəri Ərəbistan yarımadasının incisi adlandırsaq, yanılmarıq. Ərazisi cəmi 12 min kilometr olan Qətər ölkəmizdən 7 dəfə kiçikdir. Ölkəni avtomobillə bu başdan o başa cəmi 1 saata keçmək mümkündür.

Hər il dekabrın 18-də Qətər Dövlətinin Milli Günü ölkə daxilində və xaricində böyük uğurlarla təntənə ilə qeyd olunur. Qətər ərazisinin kiçik olmasına baxmayaraq, iqtisadi, maliyyə məsələlərində özünəməxsus rol oynayır və dünyanın ən zəngin ölkələrindən biridir. Qətərdə əhalinin (3,1 milyon nəfər) adambaşına düşən ümumi daxili məhsulu 2025-ci ildə 71,441 dollar təşkil edib ki, bu da 2024-cü il göstəricisindən 447 dollar çoxdur.

Neft və qaz istehsalı ümumi daxili məhsulun 50 faizindən çoxunu, ixrac dəyərinin 85 faizini və dövlət gəlirlərinin 70 faizini təşkil edir. Neft və qaz adambaşına düşən ümumi daxili məhsula görə, Qətəri dünyanın aparıcı ölkəsinə çevirib. Ümumi daxili məhsulun strukturunda sənaye sahəsi üstün yer tutur (75 faiz), xidmət bölməsi 25 faiz, kənd təsərrüfatı isə 0,1 faiz təşkil edir.

Eyni zamanda bu dövlət bir sıra beynəlxalq qurumlarda söz sahibidir, regional və beynəlxalq sülhyaratma proseslərində fəal iştirak edir, mühüm humanitar təşəbbüslərin müəllifi kimi çıxış edir. Qətər Dövlətinin sorağını dünyanın müxtəlif bölgələrində baş verən hərbi-siyasi münaqişələrin həlli prosesindən almaq olar. Bu dövlətin başçısının sülh təşəbbüsləri bir sıra qaynar bölgələrdə uğurla nəticələnmişdir.

Qətər Dövlətinin Əmiri, Şeyx Təmim bin Hamad Al Taninin müdrik rəhbərliyi ilə Milli Vizyon - 2030 inkişaf konsepsiyası uğurla həyata keçirilir və o, indiki zamanla gələcək arasında bir körpü rolunu oynayır. Bu, hər kəs üçün iqtisadi və sosial ədalətin təmin edildiyi, təbiətlə bəşəriyyətin harmoniyada inkişaf etdiyi dinamik və çiçəklənən bir ölkənin mənzərəsini özündə əks etdirir. Bu konsepsiyanın məqsədi rifah, çiçəklənmə və davamlı inkişafdır. Bu konsepsiya çərçivəsində dost, qardaş Azərbaycan Respublikasının da özünəməxsus yeri var.

Azərbaycan ilə Qətəri birləşdirən oxşar cəhətlər çoxdur. Hər iki xalq həm qədim sivilizasiyaların qurucularıdır, həm də müştərək tarixə malikdirlər. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra onu rəsmən tanıyam ilk dövlətlərdən biri Qətər olmuşdur. Bu məsələdə geoiqtisadi və geosiyasi amillərlə yanaşı, mənəvi, o cümlədən dini amillərin də mühüm rolu var. Hər iki xalqa xas olan qonaqpərvərlik, səxavətlilik, alicənablıq, sülhsevərlik, dar gündə qonşusunun əlindən tutmaq və sairə kimi müsbət keyfiyyətləri qeyd etmək olar.

İki ölkə arasında diplomatik əlaqələr qurulduqdan sonra siyasi münasibətlər yüksələn xətlə inkişaf etmişdir. Bu amil iqtisadi-ticarət, humanitar, mədəni sahələrdə də əlaqələrin davamlı inkişafına təkan vermişdir. İki dövlət başçısı arasımda şəxsi münasibətlərin isti olması da qarşılıqlı siyasi əlaqələrin müsbət məcrada inkişafına münbit zəmin yaratmışdır.

Qətər Dövləti həmişə Azərbaycanın ərazi bütövlüyünü qətiyyətlə dəstəkləmişdir. Bir sıra beynəlxalq problemlərə baxışda tərəflərin maraqları bir-birinə uyğun olmuşdur. Qətər Azərbaycanın işğaldan azad edilmiş rayonlarının bərpa və abadlaşdırılmasında fəal iştirak edir. Eyni zamanda hər iki ölkənin iqtisadiyyatında bənzər strukturların olması Azərbaycan tərəfinin Qətərin müstəqil dövlətçilik təcrübəsindən yararlanmasına şərait yaratmışdır.

Qətər sürətli inkişaf yoluna düşmüş bir dövlətdir. Karbohidrogen ehtiyatlarının ixracından əldə edilən vəsaitin bir hissəsi gələcək nəsillərin ehtiyaclarının ödənilməsi üçün ehtiyat fonduna yığılır. Digər bir hissəsi isə qeyri-neft sektorunun inkişafına sərf edilir. Sosial proqramların həyata keçirilməsi də Qətər hökumətinin prioritet sahələrindən biridir. Qətər həmçinin tez-tez donor dövlət kimi çıxış edir. Dünyanın bir sıra bölgələrinə müxtəlif yardım proqramlarının müəllifidir.

Respublikamızın Körfəz Əməkdaşlığı Şurasında (KƏŞ) yer almasından sonra iki ölkə arasında əlaqələrin dinamikası daha da genişlənmişdir. Qətər BMT, Ərəb Dövlətləri Liqası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və ÜTT platformalarında da Azərbaycanla əlaqələri inkişaf etdirir.

Azərbaycan və Qətər arasındakı münasibətlər güclü siyasi iradə, dini və mədəni bağlılıqlar, həmçinin iqtisadi və ticarət sahəsində əməkdaşlıqla xarakterizə olunur. Xüsusilə də energetika, kənd təsərrüfatı, turizm və investisiyalar sahələrində imzalanmış sazişlər və Birgə İqtisadi Komissiyanın fəaliyyəti ilə bu əlaqələr daha da inkişaf edir.

Azərbaycan və Qətər hökumətləri arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiya uğurlu fəaliyyət göstərir. Azərbaycan-Qətər münasibətləri geniş formatlıdır və müxtəlif sahələrdə daha da dərinləşməkdə davam edir.

İki ölkə arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş mövcuddur. Azərbaycanın İqtisadiyyat Nazirliyinin nümayəndə heyətinin 2025-ci ilin sentyabrında Qətərə səfəri oldu. Səfər zamanı nümayəndə heyətini Qətər Dövlətinin Baş naziri və xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani qəbul edib. Tərəflər energetika, nəqliyyat-logistika, qarşılıqlı investisiya qoyuluşu və iqtisadiyyatın digər sahələrində əməkdaşlığın genişləndirilməsi imkanlarını nəzərdən keçirib.

Azərbaycan İnvestisiya Şirkəti ilə Qətərin İnvestisiya Qrupu birgə sərmayələrin təşviqi, bərpaolunan enerji sahəsində əməkdaşlığın genişləndirilməsi barədə səmərəli əməkdaşlıq blokları qurub. Həmçinin vergidən yayınmanın qarşısının alınması üçün saziş imzalanıb. Kənd təsərrüfatı sahəsində əməkdaşlıq memorandumu imzalanıb.

Azərbaycan və Qətər Qətər-Türkiyə-Azərbaycan üçtərəfli əməkdaşlığı çərçivəsində də fəaliyyət göstərirlər. Yaxın və Orta Şərq kimi Cənubi Qafqaz regionu da bu gün dünyanın ən həssas rayonudur. Hər iki dövlət ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlığa can atır. Bunun üçün hər iki ölkədə əlverişli mühit formalaşıb. Qətərli iş adamlarını Azərbaycana cəlb edən amillər də mövcuddur.

Son illər mədəniyyət, elm və təhsil, turizm sahələrində də əlaqələr durmadan inkişaf edir. Cari il aprelin 10-dan 13-dək Bakıda Qətər Mədəniyyəti Günləri keçirilib. Qətərdə də Azərbaycan günlərinin keçirilməsi hər iki xalqın bir-birilə daha da yaxınlaşmasında mühüm rol oynayır. Turizm sahəsində əməkdaşlığa dair anlaşma memorandumu fəaliyyət göstərir və bu da təsirsiz ötüşməyib. Azərbaycana gələn qətərli turistlərin sayı çoxalıb.

Elm və təhsil sahəsində də əlaqələr ürəkaçandır. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin nəzdində fəaliyyət göstərən Qətər Mərkəzi tədris və tərcümə xidmətlərini həyata keçirir. Burada dil kurslarını bitirənlərə müxtəlif səviyyələr üzrə sertifikatlar verilir. Eyni zamanda mərkəzdə dördüncü kurs tələbələri üçün səmərəli və keyfiyyətli təcrübə imkanı da verir. Tədris və tərcümə BDU və Qətər Universitetinin müəllimləri tərəfindən həyata keçirilir. Bu mərkəz Qətər səfirliyi, Qətər Fondu, Qətər Universiteti və digər qurumlarla əlaqə saxlayır. Eyni zamanda Qətər Universiteti tərəfindən fakültənin kitab fonduna yeni nəşrlər də hədiyyə edilmişdir.

Hazırda hər iki dövlət bir-birinə etibarlı tərəfdaş kimi baxır. Yaxın gələcəkdə bu tərəfdaşlığın bəhrəsini təkcə bu ölkələrin sakinləri deyil, həmçinin hər iki regionun qonşu xalqları və dövlətləri də görəcəklər. Yetər ki, həm Yaxın və Orta Şərqdə, eyni zamanda Cənubi Qafqazda sülh prosesi davamlı olsun.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# Azərbaycan-Qazaxıstan əməkdaşlığı nəticəsində hər iki ölkə Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayacaq

**Son illər Azərbaycan ilə Mərkəzi Asiya respublikaları arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yüksələn xətlə inkişaf edir. Bu respublikalar arasında Qazaxıstan öz potensialı və iqtisadi inkişaf trayektoriyası ilə seçilir.**

Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında energetika sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə fərmanı da təsadüfi xarakter daşımır.

AZƏRTAC xəbər verir ki, bu gün hər iki dövlətin iştirak etdiyi ambisiyalı layihələrdən biri "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"dir.

Bu layihəyə əsasən, Mərkəzi Asiyada istehsal olunan bərpaolunan enerji Azərbaycandan tranzit keçməklə Avropaya ixrac olunacaq. Bu barədə ilkin sənəd 2024-cü ildə Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) çərçivəsində imzalanıb.

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" isə təkcə Azərbaycanın deyil, eyni zamanda Mərkəzi Asiyanın da enerji ixracında tranzit rolunu oynamaqla daha əhəmiyyətli tərəfdaşa çevriləcək.

### Bəs Qazaxıstanın "yaşıl enerji" potensialı nə qədərdir?

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) hesabatına görə, Qazaxıstanın Canbul, Türküstan, Alma-Ata, Karaqanda, Akmolinsk vilayətləri külək, günəş və su-elektrik stansiyalarının tikintisi üçün çox əlverişlidir. Qazaxıstan parlamenti 2009-cu ildə alternativ enerjiyə keçidlə bağlı qanun qəbul edib və buna uyğun olaraq hökumət "yaşıl enerjiyə" transformasiya üçün "Qazaxıstanın strategiyası-2050" məqsədini müəyyənləşdirib. Bu məqsədə görə ölkə enerji bazarında alternativ və bərpaolunan (ABE) enerjinin payını 2030-cu ilə kimi 15, 2050-ci ilə kimi isə 50 faiz artırmaqdan ibarətdir.

Hazırda respublikada 148 bərpaolunan enerji obyekti fəaliyyət göstərir ki, bunlardan da 59-u külək, 46-sı günəş, 40-ı su, bioqaz elektrik stansiyalarıdır. 2024-cü ilin birinci yarısında yuxarıda göstərilən obyektlərdə 3,896 milyard kilovat-saat elektrik enerjisi istehsal olunub ki, bu ölkə üzrə ümumi



enerji istehsalının 6,47 faizini təşkil edib. Bərpaolunan enerji mənbələri üzrə 50 layihənin həyata keçirilməsi planlaşdırılıb ki, həmin layihələr üzrə 1231 meqavat elektrik enerjisi istehsal ediləcək.

BMT-nin Sənayenin İnkişafı bölməsinin (UNİDO) hesabatına əsasən, Qazaxıstan planetimizin Şimal yarımkürəsinin külək axınları olan regionunda yerləşdiyi üçün böyük həcmdə külək enerjisi istehsal etmək potensialına malikdir. Təşkilatın ekspertləri bu potensialın 1820 milyard kilovat-saat olduğu qənaətindədirlər.

Qazaxıstan hökuməti 2030-cu ilədək ölkənin 46 rayonunda ümumilikdə 1 milyon kilovat-saat külək enerjisi istehsal edəcək stansiyalar quraşdırmağı planlaşdırıb və artıq bu istiqamətdə işlər aparılır. Bununla yanaşı, ölkənin dağlıq ərazilərindəki çaylar üzərində 65 milyard kilovat-saat istehsal gücü olan kiçik su-elektrik stansiyaları tikmək imkanı var. Qazaxıstanda ildə 3000 saat günəş işığının olması irihəcmli günəş enerjisi istehsal etmək üçün şərait yaradır. Ölkədə 1 milyard giqavat-saat günəş enerjisi istehsalı potensialı var.

Böyük "yaşıl enerji" potensialına sahib olan Qazaxıstan daxili tələbatını ödəməklə yanaşı, enerji ixrac etmək imkanına da malikdir. Qazaxıstan ilə yanaşı, Mərkəzi Asiyanın digər respublikalarının da alternativ və bərpaolunan enerji potensialı var. Bütün bunlar "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin formalaşmasını zərurətə çevirib.

### Azərbaycanda "yaşıl enerji" potensialı

Bərpaolunan enerji mənbələri üzrə Azərbaycanda ümumi gücü 1829,6 meqavat olan elektrik stansiyaları fəaliyyət göstərir. Onlara 1443,5 meqavat gücündə 65 su-elektrik stansiyası, 63,5 meqavat gücündə 5 külək-elektrik stansiyası, 278,2 meqavat gücündə 9 günəş-elektrik stansiyası, 37 meqavat gücündə bioelektrik stansiyası və 7,3 meqavat gücündə 3 hibrid elektrik stansiyası daxildir. Bərpaolunan enerji mənbələri ümumi enerji gücünün təxminən 18,8 faizini təşkil edir. 2027-ci ilədək ümumi gücü 2 qiqavatdan çox olan "yaşıl enerji" layihələrinin reallaşdırılması nəzərdə tutulur. Bu layihələr arasında yerli və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən külək və günəş stansiyaları xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan-Qazaxıstan əməkdaşlığı nəticəsində hər iki ölkə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayaraq iqtisadi dividendlə yanaşı, siyasi zəmanət də qazanacaq.

# Azərbaycan-Türkiyə strateji müttəfiqliyi gündən-günə möhkəmlənir

**Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq münasibətləri gündən-günə möhkəmlənir. İkinci Qarabağ müharibəsində Türkiyənin və onun Prezidentinin Azərbaycana göstərdiyi mənəvi və siyasi dəstək bu dostluğun və qardaşlığın necə sarsılmaz olduğunu dünyaya göstərdi. Müharibənin davam etdiyi günlərdə beynəlxalq təzyiqlərə baxmayan Türkiyə sonadək Azərbaycanın yanında oldu, dostluq, qardaşlıq dəstəyini xalqımızdan əsirgəmədi.**



Azərbaycan və Türkiyə xalqları arasında qardaşlıq və dostluq münasibətləri bütün dövrlərdə yüksək səviyyədə olub. Ümummilli Lider Heydər Əliyev Azərbaycan-Türkiyə dostluğunu çox böyük uzaqgörənliklə "Bir millət, iki dövlət" kimi qiymətləndirmişdir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" demişdir. Ölkələrimizin qardaşlığı və dostluğu dünya xalqları üçün uğurlu nümunədir. Azərbaycan-Türkiyə strateji müttəfiqliyi regionda sülhü və təhlükəsizliyi təmin edən, əməkdaşlığın inkişafına töhfə verən mühüm amildir. İki ölkə arasında gündən-günə inkişaf edən iqtisadi, siyasi və mədəni əlaqələr Azərbaycan və Türkiyə xalqlarının rifahına, dövlətlərin daha da güclənməsinə xidmət edir. O da xüsusi olaraq qeyd edilməlidir ki, qardaş ölkələr arasında münasibətlərin müttəfiqlik səviyyəsinə çatmasının bünövrəsində Prezident İlham Əliyevin və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın səmimi dostluğu dayanır.

Yaxından şahidi olduq ki, 2020-ci il noyabrın 10-da Qarabağda qazanılan tarixi Zəfərə Azərbaycan qədər Türkiyə də sevindi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Türkiyənin Azərbaycana dəstəyindən bəhs edərək demişdir: "İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir. Savaşın son dəqiqəsinə qədər - Şuşa şəhərində bayrağımız ucalana qədər Türkiyə bizim arxamızda idi, bizə arxa idi, dayaq idi və Azərbaycan xalqı heç vaxt bu qardaşlığı unutmayacaq".

Tarixin sınağından çıxmış təcrübə göstərir ki, bəşəri niyyətlərlə bağlanan ikitərəfli müqavilələr dövlətlərarası münasibətləri daha da möhkəmləndirir, siyasi, iqtisadi və mədəni əlaqələri genişləndirir. Dövlətlər arasındakı xoş münasibətlər qardaşlığın, dostluğun təsdiqidir. Azərbaycanla Türkiyə arasında mövcud olan münasibətlər mehriban dostluğa əsaslanır. Yaxın tariximizdən məlumdur ki, 2021-ci il iyunun 15-də Şuşada Azərbaycanla Türkiyə arasında Bəyannamə imzalandı. Qars müqaviləsinin 100-cü ildönümündə imzalanan bu sənəd tarixdə tarixi yaşadan bəyannamə oldu.

"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" Türkiyə Prezidentinin Azərbaycana və Azərbaycanın tarixi, hüquqi və ayrılmaz hissəsi olan Qarabağa səfərinin diplomatik yekunu idi. İşğaldan azad edilmiş Şuşa şəhərində Azərbaycanla Türkiyə arasında məhz Milli Qurtuluş Günündə, Qars müqaviləsindən 100 il sonra dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında müttəfiqlik münasibətlərinə dair imzalanan Şuşa bəyannaməsi hüquqi və siyasi əhəmiyyət daşıyır. Ən əsası, bu bəyannamə region üçün yeni tarixi gerçəklik və reallıq deməkdir.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış müttəfiqlik haqqında Şuşa Bəyannaməsi həm də hərbi-strateji əhəmiyyət daşıyır. Bəyannamə iki ölkə arasında əlaqələrin ən yüksək səviyyədə olduğunu dünyaya nümayiş etdirir. Təsadüfi deyil ki, Azərbaycanın dövlət başçısı Şuşada Türkiyə lideri ilə bəyannamə imzalayarkən Qars müqaviləsini xatırlatdı. Prezident İlham Əliyev bildirdi ki, Qars müqaviləsinin imzalanmasından düz yüz il sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında birgə bəyannamənin rəmzi mənası var və bu sənəd bizim gələcək işbirliyimizin istiqamətini göstərir.

Diplomatiya tariximizin ən mühüm sənədlərindən biri olan Şuşa Bəyannaməsi hər iki dövlətin ümumi maraqlarının qorunmasına, yeni imkanların yaranmasına və birləşdirilməsinə, eləcə də ümumi maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinə güclü təkan verdi.

Sənəddə açıq şəkildə göstərilir ki, tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təcavüz edildikdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və olunan təhdidin aradan qaldırılması üçün BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun addımlar atılacaq.

Azərbaycan və Türkiyə arasında müdafiə məsələlərinin daha da dərinləşdirilməsi istiqamətində yeni sənəd və layihələrin qəbul olunması işi davam etdirilir. Dekabrın 16-da Milli Məclisin növbəti plenar iclasında parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında qanun layihəsini təqdim edib. Komitə sədri layihə barədə məlumat verərək bildirib ki, sənəd Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin, o cümlədən Şuşa Bəyannaməsində təsbit olunmuş müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsinə, tərəflərin qarşılıqlı olaraq dövlətlərinin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, habelə suverenliyinin və müstəqilliyinin qorunması üçün müdafiə sahəsində əməkdaşlığının gücləndirilməsinə xidmət edir. Memorandumun əsas məqsədi hərbi təhlükəsizlik sahəsində qarşılıqlı koordinasiyanın gücləndirilməsi, birgə hərbi təlimlərin keçirilməsi kimi sahələrdə əlaqələrin inkişaf etdirilməsidir.

Komitə sədri onu da deyib ki, 8 maddədən ibarət sənədə əsasən, tərəf dövlətlər birinin silahlı təcavüzə məruz qaldığı halda BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və birgə özünümüdafiə hüquqlarının həyata keçirilməsi üçün bir-birlərinə qarşılıqlı yardımın göstərilməsi öhdəliyini götürürlər. Tərəflərin bir-birilərinə hərbi yardım göstərməsi onlardan birinin sorğusu əsasında və müvafiq milli qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilir. Sənədə uyğun olaraq, tərəflər öz qanunvericiliklərinə əsasən, hərbi sahədə məlumat mübadiləsini və hərbi kəşfiyyat üzrə əməkdaşlığı gücləndirəcək, hərbi təhlükəsizlik sahəsində əldə olunan məlumatları bir-biri ilə paylaşa və bu məlumatlardan birgə əməliyyatlar zamanı istifadə edə biləcəklər.

Müzakirə zamanı qeyd edilib ki, Anlaşma Memorandumu beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həyata keçiriləcək, üçüncü dövlətlərə qarşı yönəlməyib və regionda sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanla Türkiyə arasında əlaqələrin genişləndiyini söyləyib və bunun Azərbaycanın sülh və davamlı inkişaf konsepsiyasına uyğun olduğunu vurğulayıb. O, rəhbərlik etdiyi komitənin sənədə müsbət rəy verdiyini bildirib.

Müzakirələr zamanı komitə sədrləri, deputatlar məsələyə dair təklif və fikirlərini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Azərbaycan - Türkiyə münasibətləri yüksələn xətlə inkişaf edir, iqtisadi və mədəni əlaqələr daha da genişlənir. Hər iki qardaş ölkə Ulu Öndər Heydər Əliyevin "Bir millər, iki dövlət" şüarını rəhbər tutaraq bütün sahələri əhatə edən qarşılıqlı münasibətləri daha da inkişaf etdirmək yolunda uğurla addımlayır. İki qardaş ölkənin rəhbərinin dostluğu, Silahlı Qüvvələrin hərbi əməkdaşlığı Cənubi Qafqazda sülhə xidmət edir, bölgənin taleyüklü problemlərinin həllində əhəmiyyətli rol oynayır. Azərbaycan və Türkiyə dostluğu bundan sonra da möhkəmlənəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Amnistiya təşəbbüsü geniş sosial əhatəyə malikdir

**Azərbaycan müstəqillik illərində demokratik, hüquqi və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü addımlar atmış, bu siyasət real nəticələr vermişdir. Bu gün ölkədə insanların konstitusion hüquq və azadlıqlarından sərbəst şəkildə istifadə etmələri üçün zəruri hüquqi və institusional baza formalaşdırılıb. Vətəndaşların hüquqlarının qorunması dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən edilib və bu istiqamətdə həyata keçirilən tədbirlər həm ölkə daxilində, həm də beynəlxalq aləmdə müsbət qiymətləndirilir.**

Humanizm prinsiplərinə söykənən əfv fərmanları və amnistiya aktları bu siyasətin mühüm tərkib hissəsidir. On minlərlə vətəndaşı əhatə edən bu qərarlar dövlətin cəmiyyətə humanist yanaşmasının bariz nümunəsi olmaqla yanaşı, beynəlxalq birlik tərəfindən də Azərbaycanın demokratik inkişaf yolunda atdığı əhəmiyyətli addımlar kimi dəyərləndirilir. Bu yanaşma cəmiyyətdə sosial ədalətin, barışın və dövlətə inamın möhkəmlənməsinə xidmət edir.

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov bildirib. O qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin 1993-2003-cü illərdə ölkəyə rəhbərlik etdiyi dövr insan hüquq və azadlıqlarının müdafiəsi baxımından əsaslı dönüş mərhələsi olmuşdur. Məhz həmin illərdə hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyulmuş, insan hüquqlarının qorunması dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilmişdir. Konstitusiyanın qəbulundan sonra Azərbaycanda hüquqi islahatlar keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, dövrün tələblərinə cavab verən çoxsaylı qanunvericilik aktları qəbul edilmişdir. 1996-1997-ci illərdə Azərbaycanın insan hüquq və azadlıqlarının, demokratik institutların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara və sazişlərə qoşulması ölkəmizin bu sahədə beynəlxalq öhdəliklərini gücləndirmişdir. Xüsusilə 2000-2003-cü illərdə ratifikasiya edilən, işgəncələrin qarşısının alınması, insan hüquqlarının müdafiəsi, ekstradisiya, cinayət işləri üzrə hüquqi yardım və cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə ilə bağlı konvensiyalar hüquqi sistemin təkmilləşdirilməsində mühüm rol oynamışdır. Humanist dövlət siyasətinin ən mühüm göstəricilərindən biri də 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv edilməsi olmuşdur. Bu qərar insan həyatına verilən ali dəyərin və hüquqi dövlət prinsipinin təntənəsi kimi tarixə düşmüşdür. Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi bu siyasət nəticəsində 1995-ci ildən etibarən əfv və amnistiya institutları bərpa edilmiş, qəbul edilən sərəncam və fərmanlar əsasında minlərlə insan azadlığa qovuşmuşdur. Bütün bunlar göstərir ki, Azərbaycanda humanizm, demokratiya və hüququn aliliyi prinsipləri dövlət siyasətinin əsasını təşkil edir. Bu xətt bu gün də ardıcıl şəkildə davam etdirilir və ölkənin müasir, güclü və vətəndaş mərkəzli dövlət kimi inkişafına mühüm töhfə verir.

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Azərbaycan dövlətinin humanizm və ədalət prinsiplərinə söykənən siyasətini ardıcıl şəkildə davam etdirərək "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsü ilə çıxış edib. Bu addım dövlətin vətəndaşa yönəlik siyasətinin, sosial ədalətə və insanpərvərliyə verdiyi önəmin növbəti bariz nümunəsi kimi qiymətləndirilir. Təqdim olunan amnistiya aktının layihəsi geniş sosial əhatəyə malikdir və xüsusilə dövlətçilik maraqları naminə fədakarlıq göstərmiş şəxsləri diqqət mərkəzinə alır. Layihəyə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərində iştirak etmiş şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur. Həmçinin bu əməliyyatlarda həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumları, Ermənistanın mülki əhaliyə qarşı hərbi təxribatları nəticəsində əlil olmuş şəxslər də amnistiyanın əhatə dairəsinə daxil edilir. Bununla yanaşı, amnistiya təşəbbüsü sosial həssas qruplara xüsusi diqqətin göstərildiyini ortaya qoyur. Qadınlar, 60 yaşına çatmış şəxslər, cinayət törədərkən yetkinlik yaşına çatmayanlar və digər müəyyən kateqoriyalara aid şəxslərin cəzadan azad edilməsi və ya cinayət məsuliyyətindən azad olunması nəzərdə tutulur. Eyni zamanda böyük ictimai təhlükə törətməyən, az ağır və ya ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə azadlıqdan məhrum edilmiş şəxslərin də cəzadan azad olunması və ya cəzalarının çəkilməmiş hissəsinin azaldılması planlaşdırılır.



Ölkə rəhbəri tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunan amnistiya aktı miqyası və əhatə dairəsinə görə ölkə tarixində ən geniş amnistiya təşəbbüslərindən biri kimi qiymətləndirilir. Proqnozlara əsasən, bu amnistiya aktı tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad olunacaq məhkumların sayına görə indiyədək qəbul edilmiş amnistiyalar arasında ən böyüyü ola bilər. Gözləntilərə görə, amnistiya aktı ümumilikdə 20 mindən çox şəxsi əhatə edəcək. Onlardan 5 mindən artıq məhkumun birbaşa azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, bu cəzaya məhkum olunmuş 3 mindən çox şəxsin isə cəza müddətinin azaldılacağı ehtimal olunur. Eyni zamanda 7 mindən artıq məhkumun azadlığın məhdudlaşdırılması cəzasından azad ediləcəyi, 4 minə yaxın şəxsin azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan azad olunacağı bildirilir. Bundan əlavə, mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır. Bu rəqəmlər amnistiya təşəbbüsünün yalnız hüquqi deyil, həm də güclü sosial və humanitar məzmun daşıdığını göstərir. Sözügedən addım bir tərəfdən cəza siyasətində humanist yanaşmanı ön plana çıxarır, digər tərəfdən isə cəmiyyətə reinteqrasiya imkanlarının genişləndirilməsinə xidmət edir. Dövlətin bu qərarı sosial ədalətin təmin olunmasına, ailələrin birləşməsinə və cəmiyyətdə etimad mühitinin möhkəmlənməsinə mühüm töhfə verəcək.

K.Bayramov vurğulayıb ki, bu təşəbbüs həm qanunvericilik sahəsində mühüm addım, həm də dövlətin cəmiyyətə humanist və ədalətli münasibətinin aydın ifadəsi kimi dəyərləndirilir. Amnistiya təşəbbüsünün əsas məqsədi hüquqi sistemdə humanist yanaşmanı gücləndirmək, cəmiyyətin müxtəlif təbəqələri arasında barış və qarşılıqlı etimadı möhkəmləndirməkdir. Belə təşəbbüslər qanunvericilikdə çevik, ədalətli və insanpərvər yanaşmanın formalaşdığını göstərməklə yanaşı, cəmiyyətin hüquq sisteminə inamını da artırır.

K.Bayramov əlavə edib ki, Azərbaycanın müstəqillik dövründə keçdiyi inkişaf yoluna nəzər saldıqda, siyasi sistemin ardıcıl şəkildə təkmilləşdirildiyi, qabaqcıl dünya təcrübəsinin öyrənilərək milli xüsusiyyətlərə uyğun tətbiq edildiyi aydın görünür. Bu yanaşma dövlətimizin sivil və hüquqi dəyərlərə sadiqliyinin yalnız bəyanatlarla deyil, konkret addımlarla sübut olunduğunu təsdiqləyir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, vətəndaş cəmiyyətinin qurulması və möhkəmləndirilməsi, demokratikləşmə prosesinin sürətləndirilməsi və hüquqi dövlətin formalaşdırılması sadəcə şüar və ya niyyət deyil. Bu, Azərbaycanın davamlı və hərtərəfli inkişafı üçün strateji əhəmiyyət daşıyan əsas şərtdir. Məhz bu baxımdan humanizmə əsaslanan amnistiya təşəbbüsü dövlətin uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsi kimi çıxış edir və cəmiyyətlə dövlət arasında qarşılıqlı etimadın daha da möhkəmlənməsinə xidmət edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ermənilər qərbi azərbaycanlıların doğma yurdlarına qayıtmalarını niyə böyük təhlükə hesab edirlər

## Sülhsevər soydaşlarımız əzəli torpaqlarına dönüb mehriban qonşuluq münasibətləri yaratmaq istəyirlər

**Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtmaq istəyinin ciddiləşməsi, Qayıdış Konsepsiyasının beynəlxalq hüquq müdafiəçiləri və dünyanın tərəqqipərvər insanları tərəfindən rəğbətlə qarşılanması istər Ermənistan iqtidarında, istərsə də xaricdəki lobbisində böyük məyusluq yaradıb. Bunu böyük təhlükə hesab edirlər.**

Hətta Ermənistanın Baş naziri Nikol Paşinyan bir neçə gün öncə Hamburqda jurnalistlərlə görüşündə deyib ki, Azərbaycanda bir tərəfdən "Qərbi Azərbaycan" ifadəsini dilə gətirirlər, digər tərəfdən Qarabağ ermənilərinin qayıdışı məsələsinə "ilişirlər". Nikolun sözlərindən belə çıxdı ki, ifadələrin heç biri işlədilməməlidir. Buna yol verilməməsi üçün Ermənistan Azərbaycanla birlikdə nəzarət mexanizmi - "yol xəritəsi" müəyyənləşdirməlidir.

Nikol Paşinyan birdəfəlik bilməlidir ki, hansı "yol xəritəsi"ni müəyyənləşdirirsə müəyyənləşdirsin, qərbi azərbaycanlılar öz doğma yurdlarına avtomobil yolu ilə də, dəmir yolu ilə də, hava yolu ilə də, hətta piyada dağ yolları ilə gəlməyə hazırdırlar.

İlk növbədə Nikol Paşinyan və içi müxalifət qarışıq bütün Ermənistan ictimaiyyəti bilməlidir ki, Qərbi Azərbaycana Qayıdış Konsepsiyası dinc məqsədlidir və bu, Prezident İlham Əliyevin bəyan etdiyi kimi, tanklarla yox, şəxsi avtomobillərlə olacaq. Daha dəqiq desək, qayıdış müəyyən iqtisadi inkişafın, şüur təkamülünün nəticəsində, mədəni səviyyənin, konkret olaraq, ermənilərin və azərbaycanlıların dinc bərgəyaşayış qaydalarının formalaşdığı, ümumən münasibətlərin normallaşdığı mühitdə mümkündür. Bunda, problemli nə isə varmı? Təbii ki, yox.

Almaniyada fransızların və ya ingilislərin, yaxud Britaniyada almanların və ya italyanların evləri yoxdurmu? Əlbəttə, var.

Digər tərəfdən, Ermənistan hakimiyyəti də, müxalifəti də bilir və bir daha xatırladırıq ki, Azərbaycanın qədim torpaqları olan indiki Ermənistanda doğulmuş 300 minədək Qərbi azərbaycanlı var.

Bu barədə Qərbi Azərbaycan İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli mətbuata açıqlamasında demişdir.

- Ermənilər nə qədər böyük və düzəlməsi mümkün olmayan səhv etdiklərini hələ dərk etmirlər. Xatırlatmaq istəyirəm ki, 1905-ci ildən ta sovet hakimiyyəti qurulana kimi ermənilərin İrəvan mahalı kimi tanınan tarixi ərazilərimizdə, Naxçıvan tərəflərdə ərazi iddiaları ilə xalqımızın başına gətirdikləri müsibətlər bir yana, 1947-ci il dekabr ayının 23-də onların təkidi ilə Stalin Ermənistan SSR ərazisindən 100 min nəfər azərbaycanlı əhalinin deportasiyası barədə qərar qəbul etmiş və bu qərar 150 minə yaxın insanı evindən-yurdundan didərgin salmışdı.

İstər 1900-cü illərdə, cümhuriyyət dövründə, istərsə ermənilər tərəfindən etnik təmizləməyə məruz qalan soydaşlarımızın böyük əksəriyyəti Azərbaycanda məskunlaşsa da, keçmiş SSRİ-nin müxtəlif bölgələrinə köçənlər, qaçanlar da az olmayıb. Məsələn, Gürcüstanla sərhəddə yerləşən Dağ Borçalısına Loru mahalına aid olan dörd rayondan - Allahverdi, Cəlaloğlu, Barana və Vorontsovkadan, həmçinin Amasiya rayonundan qovulan soydaşlarımızın bir hissəsi sığındı, indi də orada yaşayırlar.

İndi vəziyyət dəyişmişdi. 44 günlük Vətən müharibəsi ilə millətin milli ruhu özünə qayıtmış, Prezidentimiz mümkün olmayanı etmişdi. Bu gün artıq heç kəs şübhə etmir ki, biz nəinki Zəngəzura, Göyçəyə dönəcəyik, həm də tarixi torpaqlarımız olan Qərbi Azərbaycanın hər qarışına qayıdacağıq: Zəngəzurdan tutmuş Ağbabaya qədər, Vedidən tutmuş Göyçəyə qədər.

Bu günlərdə Bakıda 60-dan çox xarici ölkədən gəlmiş mütəxəssislərin iştirakı ilə keçirilən "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III Beynəlxalq konfransda da bu barədə əsl reallıq bir daha diqqətə çatdırılmışdır.

Qərbi Azərbaycan ərazisinin əzəli Azərbaycan torpaqları olması barədə tarixi həqiqətləri daim vurğulayan Prezident İlham Əliyev konfrans iştirakçılarına müraciətində son iki yüz ildə ermənilər tərəfindən dəfələrlə deportasiya, soyqırımı və etnik təmizləmələrə məruz qalan soydaşlarımızın tarixi-mənəvi haqqının bərpa olunmasının bütün beynəlxalq konsepsiyalara uyğun olduğunu bildirmişdir.

XIX əsrin əvvəllərində imzalanmış "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi ilə azərbaycanlıların deportasiya siyasətinin əsası qoyulub. Xüsusilə də 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib. Deportasiya siyasəti tarixi-mədəni irsimizin məhvi ilə də müşayiət olunub, abidələrimiz dağıdılıb, qədim Azərbaycan toponimləri saxta və uydurma adlarla əvəzlənib, ermənilər tərəfindən açıq şəkildə monoetnik dövlətçilik və etnik təmizləmə siyasəti həyata keçirilib.

Qərbi Azərbaycana qayıdış ideyası artıq beynəlxalq müstəviyə çıxarılıb. Hazırda Qərbi Azərbaycan İcmasının yeddi sənədi BMT-nin rəsmi sənədi kimi bütün dillərdə və bu beynəlxalq qurumun üzvü olan dövlətlər arasında yayılıb. 2025-ci ilin mayında Bakıda keçirilən "Qərbi Azərbaycana dönüş" mövzusunda beynəlxalq konfransın yekun sənədində qayıdış hüququnun beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi tanınması vurğulanıb, bu sənəd BMT-yə təqdim edilib və Qərbi Azərbaycandan olan azərbaycanlıların öz doğma yurdlarına təhlükəsiz, ləyaqətli geri dönüşünün təmin edilməsi çağırışı edilib, eyni zamanda Ermənistanın hərəkətsizliyi pislənilib, bu məsələnin beynəlxalq gündəmdə saxlanması tələb olunub. Bu günlərdə Bakıda keçirilən "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda beynəlxalq konfrans zamanı 300 000-dən çox qaçqın soydaşımızın geri dönməsi məsələsi gündəmə gətirilib.

Prezident İlham Əliyev "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfransın iştirakçılarına müraciətində Qərbi Azərbaycan İcmasının öz ata-baba yurdlarına qayıdacağına inandığını bəyan edib: "2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın bir araya gəlməsi, Birgə Bəyannamənin imzalanması və sülh sazişi layihəsinin paraflanması hər iki xalqın gələcək birgəyaşayışının təmin olunması üçün ümid və inam yaradır. İnanırıq ki, Qərbi Azərbaycan İcmasının sülhsevər üzvləri öz ata-baba yurdlarına qayıdacaq və xalqlarımız arasında mehriban qonşuluq münasibətləri yaranacaqdır".

1970-ci və 1980-ci illərdə Ümummilli Lider Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə bu proseslərin qarşısı alınıb, xalqımız növbəti deportasiya və etnik təmizləməyə məruz qalmayıb. Lakin 1987-ci ildə Ulu Öndərin Sovetlər Birliyinin rəhbərliyindən uzaqlaşdırılması Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın növbəti acı taleyinin başlanğıcı olub. 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu və ən dəhşətli mərhələsi baş tutub. Həmin dövrdə Ermənistanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdı, 90-a yaxın kənddə, eləcə də böyük şəhərlərdə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Həmin kəndlərdə və şəhərlərdə yaşayan soydaşlarımız 3 il ərzində Ermənistandan zorla çıxarılıb, soyqırımı və işgəncələrə məruz qalıblar.

Konfransda bir daha vurğulanmışdır ki, soydaşlarımızın öz əzəli torpaqlarına qayıtmaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Məhz bu səbəbdən də Zəngəzurda, İrəvanda və digər əzəli Azərbaycan torpaqlarında yaşamaq hüququnu beynəlxalq birlik qarşısında qaldıran xalqımız əmindir ki, bu, Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışın davamı olaraq Qərbi Azərbaycana da sülh yolu qayıdış reallaşacaqdır. Prezident İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bildirib ki, gün gələcək soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi torpaqlarına böyük həvəs və çoşqu ilə qayıdacaqlar: "Bunu deməyə əsas verən bir çox amillər var. Onlardan yəqin ki, ən önəmlisi xalqımızın tarixi yaddaşıdır. Bu gün Zəngilan rayonunun Ağalı kəndinin nümunəsi bunu deməyə əsas verir. Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni, bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar".

Yeni "yol xəritəsi" hazırlamaq istəyində olan Ermənistan hakimiyyəti, habelə təşviş keçirən müxalifət və xain-xoflular bilməlidirlər ki, "yol xəritəsi", ilk növbədə, Azərbaycanın tələbləri, beynəlxalq hüququn tələbləri baxımından yaradılmalıdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

**Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasındakı iqtisadi əlaqələr son illər xeyli inkişaf edib. Hər iki ölkənin strateji mövqeyi, iqtisadi potensialı və qarşılıqlı maraqları əməkdaşlığın genişlənməsinə əlverişli zəmin yaradıb. Ticarət dövriyyəsinin artması, investisiya layihələrinin reallaşması və enerji sektorunda əməkdaşlıq bu münasibətlərin əsas sütunlarını təşkil edir.**



## İşgüzar səfər, strateji hədəf

### İlham Əliyevin BƏƏ-yə növbəti səfəri həmçinin iqtisadi tərəfdaşlığın genişlənməsinə xidmət edir

Azərbaycan - BƏƏ iqtisadi əlaqələrinin indiki vəziyyəti, uğurları və perspektivlərinə daha ətraflı nəzər salaq. Ondan başlayaq ki, 3 ay öncə - sentyabrın 16-da BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana səfəri tarixi əhəmiyyət kəsb edən hadisə kimi yadda qaldı. Xüsusən işğaldan azad edilmiş Şuşada BƏƏ Prezidentinin qarşılanması iki ölkə arasındakı dostluğun və strateji tərəfdaşlığın yüksək səviyyəsini nümayiş etdirdi. Səfər çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin davamını nəzərdə tutan 14 sənəd imzalandı ki, bu da tərəflərin münasibətlərinə verilən yüksək qiymətin göstəricisidir. Əsasən də "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə"nin əhəmiyyətini qeyd etmək lazımdır. Bəyannamədə iki dövlət arasındakı iqtisadi, siyasi və digər sahələrdə münasibətlərin inkişafının zəruriliyi vurğulanır və bu inkişafın hər iki tərəf üçün faydalı olduğu xüsusi qeyd edilir.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanmasının da iki ölkə üçün böyük əhəmiyyəti var. Sirr deyil ki, Azərbaycan və BƏƏ neft ixracatçıları kimi zəngin təcrübəyə malikdirlər. Ona görə də təcrübə mübadiləsi hər iki ölkə üçün qarşılıqlı fayda gətirir və əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə şərait yaradır. Azərbaycan neft gəlirlərindən səmərəli istifadə edərək Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Ticarət Limanı, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) və Zəngəzur dəhlizi (TRIPP) kimi beynəlxalq ticarət üçün strateji əhəmiyyət daşıyan infrastruktur layihələrini uğurla həyata keçirib. BƏƏ isə neft gəlirlərini ölkənin turizm və texnologiya sektoruna yönəldərək iqtisadiyyatını şaxələndirib, neftdən asılılığını minimuma endirib.

Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə səfəri çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə BƏƏ-nin Ticarət və Sənaye Palataları Federasiyası arasında "Azərbaycan - BƏƏ Birgə Biznes Şurasının yaradılması haqqında imzalanan Anlaşma Memorandumu" da iki dövlət arasında iqtisadi və ticarət əlaqələrini genişləndirib. Bu günə qədər BƏƏ Azərbaycana təxminən 2,24 milyard dollar sərmayə yatırıb və bu rəqəmin yaxın gələcəkdə daha da artacağı gözlənilir. BƏƏ-nin tanınmış şirkəti "Masdar" Azərbaycanın enerji sahəsində fəal investor kimi önəmli rol oynayır. Şirkətin tikdiyi 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası bir neçə ildir fəaliyyət göstərir. Bu qəbildən icrasının müxtəlif mərhələlərində olan digər layihələr də var. Bundan əlavə, ölkəmizin Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında imzalanan "yaşıl enerji" zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu şirkətin Azərbaycanda bərpaolunan enerji istehsalının genişlənməsinə, investisiyaların artırılmasına və istehsal gücünün yüksəlməsinə şərait yaradır. Bütün bunlar onu deməyə əsas verir ki, iqtisadi, enerji və investisiya sahələrindəki əməkdaşlıq Azərbaycan - BƏƏ münasibətlərinin yalnız sözdə deyil, real layihələrdə də güclü tərəfdaşlıq olduğunu göstərir.

Söz yox ki, Azərbaycan və BƏƏ arasındakı iqtisadi əməkdaşlıq ildən-ilə genişlənir. Ticarət dövriyyəsinin artması, birgə investisiya layihələrinin həyata keçirilməsi və enerji, infrastruktur, eləcə də turizm sahələrində əməkdaşlıq münasibətlərin əsas sahələrini təşkil edir. Bu ilin yanvar-oktyabr aylarında Azərbaycan və BƏƏ arasında ticarət dövriyyəsinin dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artaraq 147,49 milyon dollara çatıb. Bu yüksəliş iki ölkə arasındakı qarşılıqlı iqtisadi maraqların genişləndiyini və imzalanmış sazişlərin konkret, real nəticələr verdiyini təsdiqləyir. Ticarətdəki uğurlar Azərbaycan məhsullarının BƏƏ bazarına çıxışını asanlaşdırır və BƏƏ-nin investisiya potensialının ölkəmizə yönəlməsinə şərait yaradır.

İnvestisiya sahəsində qeyd olunan əməkdaşlığın perspektivləri aydın görünür. Bu mənada Azərbaycan İnvestisiya Holdinqi (AİH) ilə Əbu-Dabi İnkişaf Holdinqi tərəfindən yaradılmış Birgə İnvestisiya Fondu prioritet layihələrin maliyyələşdirilməsinə dəstək verir, uzunmüddətli iqtisadi əməkdaşlığın möhkəmlənməsinə zəmin yaradır və bölgədə davamlı inkişaf üçün yeni imkanlar açır. Bu addımlar iki ölkə arasındakı strateji tərəfdaşlığın sadəcə rəsmi sənədlərdə qalmadığını, konkret layihələr və uğurlu nəticələr vasitəsilə reallaşdığını göstərir. Unutmayaq ki, BƏƏ şirkətlərinin Azərbaycana qoyduğu investisiyalar ölkəmizin iqtisadi inkişafına mühüm töhfə verir, regionda iqtisadi inteqrasiyanı gücləndirir.

İnvestisiya və iqtisadi əməkdaşlıqda əldə olunan nəticələr fonunda Prezident İlham Əliyevin BƏƏ-yə növbəti işgüzar səfəri strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərir. İlham Əliyevin "Gələcəyin oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirakı isə Azərbaycanın beynəlxalq idman platformalarında fəal iştirakını və qlobal idman əməkdaşlığına verdiyi töhfəni nümayiş etdirir. Bu səfər həm də 2025-ci il iyulun 9-da imzalanmış "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin praktiki icrasına yeni dinamika verir. Səfər sözügedən sənədin konkret mexanizmlər və real əməkdaşlıq formatları vasitəsilə həyata keçirildiyini göstərir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan və Oman enerji sahəsində əməkdaşlıq imkanlarını müzakirə ediblər

**Energetika naziri Pərviz Şahbazov və Oman Sultanlığının iqtisadiyyat naziri Said bin Mohammed bin Ahmed Al Saqri arasında görüş keçirilib.**

Energetika Nazirliyinin yaydığı xəbərdə bildirilir ki, görüşdə Azərbaycanın neft hasilatı sahəsində tarixi təcrübəsi, təbii qazın təchizatçısı kimi enerji təhlükəsizliyində mühüm rolu, həmçinin bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində həyata keçirilən layihələr barədə məlumat verilib, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin elektrik enerjisi, fiber-optik və hidrogen komponentlərindən bəhs edilib, həmçinin məlumat mərkəzlərinin yaradılması və onların elektrik enerjisi ilə təchizatı, bu sahəyə investisiyaların təşviqi ilə bağlı fikir mübadiləsi aparılıb.

Görüşdə Omanın neft və qaz sahəsinə davamlı investisiyaları qeyd olunub. Bu sektorun həm Oman, həm də dünya üçün uzun müddət əhəmiyyətini saxlayacağı vurğulanıb. Bildirilib ki, Oman mayeləşdirilmiş təbii qaz (LNG) istehsalına investisiya edir və bu sahədə regionun əsas ixracatçılarından biri olmağı hədəfləyir. Eləcə də, ölkədə artıq dörd böyük günəş sənaye parkı fəaliyyət göstərir və hədəf 2040-cı ilə qədər enerji ehtiyaclarının 40 faizini bərpaolunan mənbələrdən təmin etməkdir. Omanın 2030-cu ilə qədər 1 milyon ton "yaşıl hidrogen" istehsalını planlaşdırdığı qeyd olunub.

Görüşdə iki ölkə arasında neft və qaz sektorunda imzalanmış sənədlər çərçivəsində əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi, günəş panelləri və külək turbinlərinin istehsalı, habelə bütün enerji sektoru üzrə əməkdaşlıq imkanlarının qiymətləndirilməsi razılaşdırılıb.

## Kommersiya qurumlarının sayı 7,5 faiz artıb

**Cari ilin dekabr ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 667 min 152 vergiödəyicisinin 86,8 faizi fiziki şəxslər, 13,2 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.**

Dövlət Vergi Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə vergiödəyicilərinin ümumi sayı 4,8 faiz, o cümlədən fiziki şəxslərin sayı 4,5 faiz, hüquqi şəxslərin sayı isə 6,9 faiz artıb.

Məlumata əsasən, həmin müddət ərzində qeydiyyatda olan kommersiya qurumlarının sayı ötən ilin eyni dövrünə nisbətən 7,5 faiz artaraq 203 min vahid təşkil edib.

2025-ci ilin yanvar-noyabr aylarında 12 min 957 kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların 88,8 faizi yerli investisiyalı, 11,2 faizi xarici investisiyalıdır. Kommersiya qurumlarının 85,1 faizi elektron qaydada qeydiyyata alınıb. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi 96,4 faiz təşkil edib.

Dekabr ayının 1-nə dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 92 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,1 faizi səhmdar cəmiyyət, 1,1 faizi kooperativ və s. formalarda yaradılıb.

## Qarabağ "DOST Evi"nə daha 21 benefisiar qəbul olunub

**DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin Bərdədə yerləşən Qarabağ "DOST Evi" şöbəsinə növbəti qəbul prosesi keçirilib. Qiymətləndirmə Komissiyası tərəfindən üç həssas kateqoriyadan olan 21 yeni benefisiar müəssisədə təlimlərə cəlb edilib.**



Onlar Qarabağ "DOST Evi"ndə təsviri incəsənət, floristika, xalçaçılıq və musiqi istiqamətləri üzrə təlimlərdə bacarıqlarını təkmilləşdirəcəklər. Bununla da müəssisədə xidmətlərdən yararlanan benefisiarların sayı 72 nəfərə çatıb.

Qarabağ "DOST Evi"ndə həmçinin kulinariya, toxuma, tikmə və bədii oyma üzrə üzrə təlimlər də keçirilir. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində təlim müddətini uğurla tamamlayan 4 benefisiar hazırda şöbədə təlimçi kimi fəaliyyətini davam etdirir.

Müəssisə Bərdə və ətraf rayonlarda yaşayan əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələrin üzvlərinin yaradıcılıq potensiallarını inkişaf etdirməsinə dəstək göstərir.

Bölgənin bu kateqoriyadan olan sakinləri DOST mərkəzləri və ya Sosial Xidmətlər Agentliyinin yerli nümayəndəliklərinə müraciət edərək Qarabağ "DOST Evi"nin xidmətlərindən faydalanmaq üçün qeydiyyata alına bilərlər.

### İlə yekun vurulur

## İqtisadi inkişaf və rahat həyat abad yoldan başlayır

**İnsanların rahat yaşaması, iqtisadiyyatın dinamik inkişaf etməsi üçün yolların nə dərəcədə əhəmiyyətli olduğu hamıya yaxşı bəllidir. Elə buna görə də yeni yolların çəkilişi, köhnələrin isə əsaslı təmiri Azərbaycan dövlətinin iqtisadi siyasətində öndə dayanan məsələlərdəndir.**

2004-cü ildən başlayaraq, regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramları çərçivəsində hər il Azərbaycanda ümumi uzunluğu ən azı min kilometr olan yollar tikildi və ya təmir olundu. İşğal altındakı torpaqlarımız azad olunandan sonra bu istiqamətdə işlər daha geniş vüsət aldı. Yeni yollar bizi azad Qarabağa və Şərqi Zəngəzura qovuşdurdu.

Başa vurmaqda olduğumuz il ərzində də yeni yollarımızın açılışı oldu. Başlayaq elə işğaldan azad edilmiş ərazilərimizdən. İyulun 3-də Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa yolunun açılışında iştirak etdi.

Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol məsafəni 19,3 kilometr qısaldır. Birinci texniki dərəcəyə uyğun olan yolun ilk 48 kilometri 6, qalan 33,7 kilometri 4 hərəkət zolağından ibarətdir. Yolboyu bir qovşaq, 11 körpü, 7 tunel, 6 viaduk, yeraltı keçidlər və digər zəruri infrastruktur yaradılıb.

Layihə çərçivəsində inşa edilən körpülərin ümumi uzunluğu 1557 metrdir. Viadukların bəzilərinin tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib. İnşaat işləri zamanı yolboyu dəmir-beton və metal sədd çəpərlər, işıqlandırma sistemi quraşdırılıb.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Füzuli, Xocavənd, Xocalı və Şuşanı birləşdirir.

Qeyd edək ki, bu yol dövlətimizin başçısının sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən inşa olunub. Layihənin icrası daxili yol şəbəkəsinin şaxələndirilməsi, bölgə ilə respublikanın digər rayonlarının nəqliyyat əlaqəsinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir. Bundan başqa, bu yol beynəlxalq nəqliyyat dəhlizlərinin ölkəmizdən keçən hissəsinin də tərkibinə aid olmaqla mühüm rol oynayır. Yeni yol eyni zamanda bölgədə turizmin inkişafına və iqtisadi fəallığı artırmağa da böyük töhfə verəcək.

Oktyabrın 28-də isə Prezident İlham Əliyev Hacıqabul-Bəhrəmtəpə-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 197-ci kilometrindən Cəbrayıl rayonu ərazisində inşa olunan "Şəfəq" Günəş-Elektrik Stansiyasına gedən avtomobil yolunun açılışında iştirak etdi.

IV texniki dərəcəyə uyğun inşa edilən yolun ümumi uzunluğu 11,5 kilometrdir. İki hərəkət zolağından ibarət yolun eni 6 metrdir. Bu yolun inşası ötən ilin dekabrında dövlətimizin başçısının imzaladığı sərəncama əsasən həyata keçirilib.

Bu, uzun bir yol olmasa da, əhəmiyyəti böyükdür. Belə ki, yolun istifadəyə verilməsi bu istiqamətdə nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyini, əhalinin və ərazidə çalışan işçilərin rahat gediş-gəlişini təmin edəcək.

Lakin yeni yol çəkilişi təkcə işğaldan azad olunmuş ərazilərimizi əhatə etmir. Yol şəbəkəmiz hər tərəfə şaxələnməkdədir. Hazırda ölkəmizin bir sıra bölgələrində yeni yolların tikintisi davam edir. Dövlətimizin başçısı mayın 26-da belə yollardan birində - Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsində görülən işlərlə tanış oldu.

İkinci texniki dərəcəyə uyğun qurulan yolun ümumi uzunluğu 85,6 kilometrdir. Yenidənqurma nəticəsində yol 8,8 kilometr qısalacaq. Yolboyu Ağsuçay çayı üzərində asma körpü inşa olunur. Körpüdən sonra yolun davamı olaraq uzunluğu 885 metr olan tunelin tikintisi aparılır. Ümumilikdə yeni layihə üzrə yolboyu tunel və biri asma olmaqla 17 körpü layihələndirilib.



Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolu əhalinin rahat gediş-gəlişində xüsusi əhəmiyyətə malik olmaqla paytaxt Bakını İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları ilə birləşdirən ən qısa magistral hesab edilir. Respublikanın mühüm turizm bölgələrinə gedən və ilk dəfə ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə salınmış bu yolun yenidən qurulması Prezident İlham Əliyevin tapşırığına əsasən layihələndirilib.

Dövlətimizin başçısı yekunlaşmaqda olan 2025-ci ildə yol çəkilişi və təmiri ilə bağlı yeni sərəncamlar da imzalayıb. Belə ki, bu il sentyabrın 25-də imzalanmış sərəncama əsasən, iki min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Göygöl-Topalhəsənli-Şəhriyar (8 km)-Zurnabad-Gəncə-Mollacəlilli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə vəsait ayrılacaq.

Sentyabrın 25-də imzalanmış daha bir sərəncamla səkkiz min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Xıl-Sirəbil-Allahyarlı-Molalan-Çayqıraq avtomobil yolu əsaslı təmir olunacaq.

Prezidentin Zərdab rayonunun Zərdab-Məlikumudlu-Çallı-Salahlı-Hüseynxanlı-Xanməmmədli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında 1 dekabr 2025-ci il tarixli sərəncamı da var.

İki min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Yardımlı-Deman-Arvana avtomobil yolunun dağılmış hissəsinin bərpası və istinad divarlarının tikintisi isə Prezidentin 24 oktyabr 2025-ci il tarixli sərəncamı ilə həyata keçiriləcək.

Bu siyahıya digər yaşayış məntəqələrinin adlarını da əlavə etmək mümkündür. Bu isə o deməkdir ki, növbəti ildə də yeni yollarımız olacaq, onlar bizi yeni arzu və amallara qovuşduracaq və daha yüksək zirvələrə çatdıracaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# İşğaldan azad edilmiş ərazilərə qayıdış davam edir

## Ağdam

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük qayıdış Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıdışı davam edir. Dekabrın 17-də yola salınan növbəti köç karvanı Ağdam rayonunun Xıdırlı kəndinə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu mərhələdə Xıdırlı kəndində 45 nəfərdən ibarət 16 ailəyə mənzillərin açarları təqdim olunub. Xıdırlıya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Qayıdışın sevincini yaşayan Xıdırlı kəndinin sakinləri açarları təhvil alıb, yeni evlərində məskunlaşıblar.





## Laçın

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Laçın şəhərinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşub.

Laçın şəhəri 17 ailə olmaqla 69 nəfərə qucaq açıb. Şəhərə qədəm qoyan ailələr sevinc göz yaşları ilə öz doğma yurduna qovuşub və yaradılan gözəlliyi seyr ediblər.

Növbəti köç karvanı ilə Laçın şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Qeyd edək ki, bu mərhələdə Laçın şəhərinə 17 ailə olmaqla 69 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.










## Hadrut

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Xocavənd rayonunun Hadrut qəsəbəsinə növbəti köç prosesi gerçəkləşib, yola salınan ailələr doğma yurdlarına qovuşub.

Hadrut qəsəbəsi 6 ailə olmaqla, 26 nəfərə qucaq açıb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Qəsəbədə sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və kommunikasiya xətləri bərpa edilib.

Növbəti köç karvanı ilə Hadrut qəsəbəsinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

## Qırmızı bazar

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Xocavənd rayonunun Qırmızı bazar qəsəbəsinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.

Qırmızı bazar qəsəbəsi 18 ailə olmaqla, 90 nəfərə qucaq açıb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Qəsəbədə sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və infrastruktur bərpa edilib.

Növbəti köç karvanı ilə Qırmızı bazar qəsəbəsinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

# Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq mənim üçün mənəvi borcdur

**"Qarabağın işğaldan azad olunmasından sonra həyata keçirilən bərpa və yenidənqurma prosesi təkcə fiziki infrastrukturun qurulması ilə məhdudlaşmır, eyni zamanda tarixi yaddaşın, milli kimliyin və mənəvi ədalətin bərpasını özündə ehtiva edir. Bu proses Azərbaycanın uzunmüddətli strateji baxışının və ardıcıl dövlət siyasətinin nəticəsi kimi qiymətləndirilir".**

Bunu AZƏRTAC-a açıqlamasında britaniyalı yazıçı, "Revival of Karabakh: The Story of Azerbaijan's Renaissance" ("Qarabağın Dirçəlişi: Azərbaycan İntibahının Hekayəsi") kitabının müəllifi Qrem Vilson deyib.

Onun sözlərinə görə, o, ilk dəfə 2009-2010-cu illərdə Azərbaycana səfər edib və həmin dövrdə Azərbaycan xalqının dözümlülüyü, enerjisi və milli iradəsi onu dərindən təsirləndirib. Yazıçı bildirib ki, həmin illərdə Prezident İlham Əliyevin rəsmi bioqrafiyası üzərində çalışarkən dövlət başçısının tövsiyəsi ilə Ermənistana və işğal altında olan Azərbaycan ərazilərinə səfərə gedib, real vəziyyəti yerində müşahidə edib.

"Prezident İlham Əliyevin bioqrafiyası üzərində işləyərkən həmkarlarımla birgə Qarabağa səfər etdim. İşğal dövründə orada gördüklərimiz dəhşətli idi. Qarabağda qanunsuz fəaliyyətlər, insan alveri, silah və narkotik dövriyyəsi, eləcə də genişmiqyaslı ekoloji dağıntılar açıq şəkildə müşahidə olunurdu. Bu, təkcə hərbi işğal deyil, eyni zamanda humanitar və ekoloji fəlakət idi. Mən ekosidə, tarixi-mədəni irsin məqsədli şəkildə məhv edilməsinə şahid oldum", - deyə Qrem Vilson vurğulayıb.

Yazıçı qeyd edib ki, İrəvanda araşdırmalar zamanı tez-tez səsləndirilən "böyük Ermənistan" ideologiyası onun üçün ciddi suallar doğurub: "Əgər doğrudan da Qarabağın sizə məxsus olduğuna inanırdınızsa, niyə orada yaşayan insanları qoruyub saxlamadınız, ətraf mühiti məhv etdiniz?"

Qrem Vilson səfərdən sonra belə qənaətə gəlib ki, Ermənistan heç vaxt sülhə getməyəcək. "Təəssüf ki, 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi bu fikri təsdiqlədi", - deyə o qeyd edib.

Yazıçı əlavə edib ki, sonrakı illərdə 50 dəfədən çox Azərbaycana səfər edib, Ümummilli Lider Heydər Əliyev, Azərbaycan Xalq Cümhuriyyəti və ölkənin tarixi ilə bağlı bir sıra kitablar yazıb. Bununla belə, Qarabağ mövzusu onun qəlbində həmişə xüsusi yer tutub.



"Ürəyimdə bir arzu vardı: işğal bitəndən sonra Qarabağ haqqında dəyərli və real faktlara əsaslanan bir əsər yazmaq. Mən xarici vətəndaşam, lakin Azərbaycanı sevən xarici vətəndaşam. Qarabağda həm işğal dövründə, həm də azadlıqdan sonra dəfələrlə olmuşam. İşğal dövründə Xocalının təxmini yerini bilirdik, lakin onu tapa bilmirdik. Xocalı demək olar ki, yer üzündən silinmişdi", - deyə Qrem Vilson bildirib.

O qeyd edib ki, bir neçə il əvvəl Qarabağ Dirçəliş Fondunun əməkdaşları ilə birlikdə həmin ərazilərə səfər zamanı yol nişanında "Xocalı" sözünü gördükdə avtomobili saxlatdırıb və piyada oraya gedib: "Bu torpaq müqəddəsdir. Orada dayanmaq həyatımın ən təsirli və unudulmaz anlarından biri oldu. Xocalı faciəsi Azərbaycan üçün milli yaddaşın ən ağrılı səhifələrindən biridir".

Qrem Vilson vurğulayıb ki, məhz bu müşahidələr və Qarabağın azad olunmasından sonra başlanan genişmiqyaslı dirçəliş prosesi onu "Revival of Karabakh: The Story of Azerbaijan's Renaissance" kitabını yazmağa sövq edib. Onun sözlərinə görə, əsər Qarabağın bərpasını, Azərbaycan xalqının tarixi ədalətin təmin olunması uğrunda keçdiyi mürəkkəb, lakin qürurverici yolu beynəlxalq oxucuya çatdırmaq məqsədi daşıyır.

"Bu gün Qarabağda baş verənlər təkcə regionun bərpası deyil, eyni zamanda beynəlxalq hüququn və tarixi ədalətin bərpasıdır. Azərbaycan bu prosesi ardıcıl, planlı və məsuliyyətli şəkildə həyata keçirir", - deyə britaniyalı yazıçı vurğulayıb.

# Ailə hüququnda aliment institutunun müasir tələbləri

## Boşanma hüquqi fakt kimi valideyn məsuliyyətini aradan qaldırmır

**Müasir Azərbaycan cəmiyyətində ailə münasibətlərinin transformasiyası fonunda boşanma halları artmaqdadır. Lakin hüquqi baxımdan vacib olan məqam ondan ibarətdir ki, nikahın pozulması valideynlərin uşaqları qarşısında öhdəliklərinə xitam vermir.**

Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, bu ilin yanvar-oktyabr aylarında boşanmaların sayı 17 mini keçmiş, eyni dövrdə bağlanan nikahların sayı isə təxminən 40 min olmuşdur. Bu statistik göstəricilər bir daha sübut edir ki, ailə hüququnun ən həssas seqmenti - uşağın hüquqi və sosial müdafiəsi məsələsi xüsusi diqqət tələb edir.

Hazırda Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən, aliment öhdəlikləri əsasən valideynin rəsmi gəlirindən müəyyən edilmiş faiz nisbində tutulur. Bu yanaşma hüquqi texniki baxımından sadə olsa da, uşağın mənafeyinin tam təmin edilməsinə həmişə imkan vermir. Aliment ödəyicisinin real gəlirlərinin rəsmi gəlirlərdən kəskin fərqlənməsi, gəlirlərin qəsdən gizlədilməsi və ya formal minimum əməkhaqqı səviyyəsində göstərilməsi kimi hallar nəticəsində aliment institutu uşağın mənafeyini təmin edən hüquqi mexanizm olmaqdan çıxaraq formal icra olunan öhdəliyə çevrilir. Əslində isə uşağın mənafeyi - aliment hüququnun əsas meyarı olmalıdır.

Ailə hüququnun fundamental prinsiplərindən biri uşağın üstün mənafeyinin təmin edilməsidir. Bu prinsip həm Azərbaycan Respublikasının konstitusiyasında, həm də beynəlxalq hüquq normalarında öz əksini tapmışdır. Bu baxımdan, aliment mexanizminin islahatı sərtləşmə deyil, normativ yanaşmanın yenilənməsi kimi qiymətləndirilməlidir.

### Uşağa baxılması üçün minimum təminat standartı

Hüquqi baxımdan Ailə Məcəlləsində uşağa baxılması üçün minimum təminat standartı anlayışı ayrıca təsbit edilməsi məqsədəuyğundur. Bu standart yaşayış minimumundan aşağı olmamaqla yanaşı, həm uşağın sağlamlığı, təhsili, inkişafı və gündəlik ehtiyacları ilə bağlı real xərcləri əhatə etməli, həm də valideynin rəsmi gəlirindən asılı olmayaraq, təmin olunmalıdır. Uşağın maddi təminatı valideynin gəlirlərini gizlətməsi və ya süni şəkildə azaltması ilə risk altına düşməməlidir.

Məhkəmə təcrübəsində vahidliyin təmin edilməsi məqsədilə alimentlərin hesablanması üçün oriyentir xarakterli hüquqi bələdçilər - uşağın yaşı və sayı, valideynin maliyyə imkanları və s. bu kimi meyarları nəzərə alaraq məhkəməyə hüquqi istiqamət verə bilər. Belə mexanizmlər bir sıra Avropa ölkələrində uğurla tətbiq olunur və məhkəmənin mülahizə səlahiyyətini məhdudlaşdırmadan hüquqi sabitlik yaradır.

Normativ dəyişikliklər çərçivəsində məhkəmənin aliment məbləğini müəyyən edərkən uşağın nikahın pozulmasına qədərki həyat səviyyəsi, təhsil və sosial mühitinin dəyişdirilməsinin uşaq üçün yaratdığı risklər və sağlamlıqla bağlı xüsusi halların nəzərə alınması birbaşa öhdəlik kimi təsbit edilməlidir. Bu yanaşma alimenti sadə hesablamadan hüquqi müdafiə alətinə çevirir.

### Ödəmə qabiliyyətinin qiymətləndirilməsi

Ailə hüququnun icrasında ən ciddi problemlərdən biri aliment ödəyicisinin süni ödəmə qabiliyyətsizliyini göstərmək hallarının artmasıdır. Əmlakı, biznes fəaliyyəti və yüksək xərcləri olan şəxsin rəsmi olaraq işsiz və ya minimum gəlirli görünməsi hüquqi ədalət prinsipinə ziddir və birbaşa uşağın hüquqlarını pozur. Odur ki, məhkəməyə alimenti müəyyən edərkən ödəyicinin həyat tərzini, faktiki xərclərini, mülkiyyət və kommersiya fəaliyyətini nəzərə almaqla qiymətləndirilmiş gəlir modelini tətbiq etmək səlahiyyəti verilməlidir. Bu yanaşma beynəlxalq ailə hüququ təcrübəsinə də uyğundur.

### Aliment qərarlarının icrasında institusional yeniliklər

2026-cı il yanvar ayının 1-dən etibarən Azərbaycanda özəl icra məmurları institutunun tətbiqi aliment qərarlarının icrasında yeni mərhələdir. Lakin bu mexanizmin effektivliyi yalnız o halda təmin edilə bilər ki, icra orqanlarının bank və vergi məlumatlarına operativ çıxışı olsun, məlumatların gizlədilməsinə görə məsuliyyət mexanizmləri gücləndirilsin.

Qeyd edilməlidir ki, aliment hüququnun tətbiqi sahəsində Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun mövqeyi artıq formalaşmışdır və məhkəmələr üçün hüquqi istiqamət rolunu oynayır. Belə ki, Ali Məhkəmə Plenumunun izahlarına əsasən, valideynin nikahın pozulmasından sonra uşağı qarşısında aliment öhdəliyi onu əmək vəzifəsindən azad etmir və aliment məbləğinin müəyyən edilməsi formal yanaşma ilə məhdudlaşmamalıdır.

Plenumun hüquqi mövqeyinə görə, "Məhkəmə tərəfindən alimentin miqdarı müəyyən edilərkən uşağın əvvəlki təminat səviyyəsinin mümkün qədər maksimal saxlanılması əsas meyar olmalı və bu zaman yalnız bir tərəfin deyil, hər iki valideynin ailə və maddi vəziyyəti hərtərəfli öyrənilməlidir". Ali Məhkəmə xüsusi vurğulayır ki, məhkəmələr aliment məbləğini müəyyən edərkən valideynlərin birgə yaşadıqları dövrdə ailənin maddi vəziyyətini, ayrı yaşadıqları müddətdə uşağa baxılması üçün könüllü qaydada ödənilmiş vəsaitləri və həmin ödənişlərin dayandırıldığı vaxta qədər uşağın faktiki təminat səviyyəsini nəzərə almalıdırlar. Eyni zamanda plenumun mövqeyinə əsasən uşağın əlavə ödəniş hesabına məktəbəqədər tərbiyə müəssisəsinə, ödənişli ümumtəhsil məktəbinə, musiqi, rəsm, idman, rəqs və digər dərnəklərə davam edib-etməməsi aliment məbləğinin müəyyən edilməsi zamanı hüquqi baxımdan əhəmiyyətli hal kimi qiymətləndirilməlidir.

Bu yanaşma onu göstərir ki, Ali Məhkəmənin formalaşdırdığı hüquqi mövqe alimenti yalnız minimum təminat mexanizmi kimi deyil, uşağın nikah dövründə formalaşmış sosial, təhsil və inkişaf mühitinin qorunmasına xidmət edən hüquqi alət kimi qəbul edir. Lakin vacib məqam ondan ibarətdir ki, bu prinsip Ailə Məcəlləsində hələlik sistemli və birbaşa normativ ifadəsini tapmamışdır və əsasən məhkəmə təcrübəsi vasitəsilə tətbiq olunur. Bu isə qanunvericilikdə müvafiq dəyişikliklərin zəruriliyini bir daha aktuallaşdırır.

Aliment hüququ valideynlər arasında mübahisə predmeti deyil. Bu institut uşağın hüquqlarının təmin edilməsinə yönəlmiş hüquqi mexanizmdir. Azərbaycan Respublikasının Ailə Məcəlləsində bu istiqamətdə islahatlar sosial ədalətin, hüquqi sabitliyin və uşağın üstün mənafeyinin qorunmasına xidmət etməklə yanaşı, gələcəkdə aliment öhdəliklərinin icrasında daha şəffaf və effektiv mühitin yaradılmasına imkan verəcək.

***Vüsalə MURADXANLI,***
***Azərbaycan Uşaq Fondunun direktoru,***
***Vəkillər kollegiyasının üzvü***

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 15 iyun (Bazar günü) tarixli 204-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 16 ramazanül-mübarək sənə 1337. 15 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

Yarından etibarən açıq dildə gündəlik **"Xalq sözü"** adında bir qəzetə nəşr ediləcəkdir. Bu qəzetədə "Azərbaycan" qəzetəsi mühərrirləri iştirak edəcəklər. Zamanın fövqəladəliyi nəzərə alınaraq qəzetə gündüzləri saat 2-də nəşr [ediləcək] və tək nüsxəsi Bakıda bir manatdan satılacaqdır.

* * *

Müharibə meydanına göndərilmiş Azərbaycan əsgərləri üçün tərtib olunacaq cəmiyyətlər və xəstə ya ki yaralı əsgərlərə müavinətlər xüsusunda məsləhət olunmaq üçün iyun 16 bazar ertəsi saat 10-da Birinci Ünas [Qızlar] məktəbinə (Nijni Kladbişinski və Zavedenski küçələrin küncündə) ümumi müsəlman xanımları dəvət olunurlar.

*T-150*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Azərbaycan Məclisi-Məbusan rəisi həzrətlərinin əmrnamələri**

*Əmrnamə nömrə 104*

Kazımoğlu Seyid Hüseyn Sadiq 1919 sənəsi may ayının 1-dən etibarən Azərbaycan Məclisi-Məbusanının türk məzbətə mühərriri [protokol katibi] təyin edilir.

*Əmrnamə nömrə 105*

Azərbaycan Məclisi-Məbusanının türk məzbətə mühərriri Süleyman Nəzif 1919 sənəsi aprel ayının 8-dən etibarən vəzifəsindən kənar edilir.

*Əmrnamə nömrə 106*

Azərbaycan Məclisi-Məbusan idarəsinin telefonçusu Ceyran xanım Şirinzadə 1919 sənəsi may ayının 1-dən etibarən məzkur [deyilən] idarədə təhrirat [məktub] xidmətçisi təyin edilir.

*Əmrnamə nömrə 108*

Abbasəli Hacırzazadə 1919 sənəsi may ayının 20-dən etibarən Azərbaycan Məclisi-Məbusan idarəsinin İcraat şöbəsi müdirliyinə təyin olunur.

*Əmrnamə nömrə 109*

Abbasəli Əsgərzadə 1919 sənəsi may ayının 24-dən etibarən Azərbaycan Məclisi-Məbusan idarəsinin mühasib müavini təyin edilir.

*Əmrnamə nömrə 110*

Təbib Əli bəy Seyidov 1919 sənəsi may ayının 28-dən etibarən Parlaman Qorucu bölüyü təbibliyinə təyin edilir.

*Əmrnamə nömrə 111*

Parlaman idarəsinin təhrirat [məktub] xidmətçisi Şahin Mirsəyyabzadə 1919 sənəsi iyun ayının 5-dən etibarən qulluğundan əzl [kənar] edilir.

*Əmrnamə nömrə 112*

Parlaman idarəsinin telefonçusu Həcər xanım Zeynalzadə 1919 sənəsi iyun ayının 9-dan etibarən həmin idarədə təhrirat xidmətçisi təyin edilir.

*Məclisi-Məbusan rəisi namına: Həsən bəy Ağayev*
*Əslinə mütabiqdir.*
*Kargüzar: C[amal] Paşazadə*

## QƏZAVƏTDƏN [QAZILIQ İDARƏSİNDƏN]

1919-cu sənədə may ayının 16-da mən də ruhani mollalar barəsində məlumat cəm etmək üçün yeni Qubadan ayrılıb Bakıya mülhəq olmuş [birləşdirilmiş] dağ kəndlərinə çıxmışdım. Gədi kəndlərindən başlayıb Zaratda tamam etdiyim kəndlərdə ruhanilərə dair məlumat və təsəvvüratdan əlavə, siyasi hökuməti xüsusunda dəxi bir qaç məlumat əxz etmişəm. Əvvəlcə ruhanilər barəsində yazıb sonra da siyasi məmurlar barəsində yazacağam.

Məzkur qəryələrdə [deyilən kəndlərdə] prixod mollaları Nikolay zamanından təyin olmuş zəvatdır [şəxslərdir]. Böylə ki, hansı köyün camaatını istintaq etdikdə, məzkur ruhanilərin zülmündən dad edirlər. Hamıdan ziyadə Xızı mollaları molla Ələkbər və molla Pənah cənablarından şikayət edirlər. Həqiqətdə bir parasının şikayətinə diqqətlə fikir verdikdə, insafsızlıq və vicdansızlıq hərəkatları həqiqət olunur.

Məsələn, molla Ələkbər cənabları Nikolay məzul olandan [qovulandan] bu vaxta kimi bircə dəfə də olsa da, dəftərinə mülhəq [daxil, aid] olan köylərə təşrif aparıb nikahlarından, talaqlarından, vəfatlarından və təvəllüdlərindən xəbər tutmamışdır. Hər kəs də şəhadətnamə istədikdə fövqəladə məbləğlər alıb kəndi təsəvvüratı ilə şəhadətnamələr verir.

Azərbaycan hökumətindən əqdəm [qabaq] bolşeviklər zamanında əxzi-əsgər [hərbi çağırış] zamanı hər şəxs ki məzkur[a] para təklif və təslim eyləməzdi, həman şəxsi neçə yaşında olursa-olsun, əsgərlik üçün bolşeviklərə təklif edirdi. Hətta köy camaatından bu barədə ona etiraz edən əşxas[ı] [şəxsləri] bolşeviklər əleyhinə çalışanlardan nisbət verib [bolşeviklər əleyhinə çalışanlarla əlaqələndirib], hökumətə donos yazardı. Hətta məzkurun cibindən düşmüş bu barədə bir donos Xızı kəndində bir küçədən tapılmışdır.

Şimdi isə Azərbaycan Hökuməti-cəliləsi müavinətinə çalışmaq üçün əsgərlər siyahısında bərəks [əksinə] edir. Böylə ki, hər kəs para verirdisə, onu yazmayıb, para verməyənləri yazıb əsgər göstərir. Bu barədə Qarabulaq camaatından Mirsadıq ilə Mirfəttah nam [adlı] şəxslərdən hərədən 700 manat alıbdır ki, sizin 7 və ya 8 yaşında çocuqlarınız əsgər düşür. Təhqiq üçün həman şəxslərin sözlərinə bavər etməyərək [inanmayaraq] sordum [soruşdum]. 7 yaşında çocuq məgər əsgər düşür ki, siz işbu məbləği ona verdiniz? Cavabında: Bizim ailəmiz bu əhvalatı eşitdikdə təşvişə düşüb heç bir növ islah olmadılar, məgərinki paranı molla Ələkbərə verib ondan daha əsgər yazmayacaq vədəsini alınca...

Təəccüb burasıdır ki, camaatın bu qədər etirazlarına ki, hər köydə yazdığımız bəratülqövldə [protokolda] məzkurun zülmü barəsində bəyanat vardır, məzkur molla mən Bakıya gələndən sonra mənə və Məşixət [Şeyxülislamlıq] İdarəsinə ərizə vermişlərdir ki, məzkur şayiələr iftiradır. Xızıda olan "Müsavat" şöbəsinin əzası [üzvü] dəxi bu barədə "Müsavat" idarəsinə məlumat veribdir və həman məlumata dair "Müsavat" dəxi Məşixətə ittila [xəbər] vermişdir.

Mollaların zülümləri camaata o qədər əsər etmişdir ki, köylərin əksərində məscidlər xaraba, məktəb yox, çocuqları bisavad və cahil qalmışdır. Hərgah mollalar yaxşı olardısalar, məktəblər bina etdirib köy çocuqlarını təhsil və tədrisə məşğul edərlərdi. Köylərdə şəriətə muğayir [zidd] bir çox təmirlərin ədəmi [olmaması] məəttəəssüfdür [təəssüf doğurur]. Caddələri (yolları) çox fəna bir haldadır. Lakin həmin Bakı üstə mülhəq olandan bəri asudə güzəran keçirdiklərini bəyan edib, Azərbaycan Hökumətinə bu barədə səmimi-qəlbdən təşəkkürlərini bəyan edirlər.

Bir para istibdad dövründən qalmış müstəbid şəxslərin dəxi dəfinə əlac imdadını rica etmişlərdir. Lakin həman zəvatın kim olduğunu sual etdikdə, qorxudan söyləməyirlər. Fəqət məxfi sorduqda Zərgərli İlyas Əbdül oğlundan şikayət edirlər və bu barədə bəndədən, qubernator həzrətlərinə yazıb dəfinə əlac etmək üçün təmənna etmişdir və mən də onlara vədə vermişəm.

Məzkur qəryələrin məsafəsi biri-birindən uzaq olduğu üçün sabiq qayda ilə hər icmaya bir molla kifayət etmədiyi üçün mən də Gədi icmasına iki molla, Xızı icmasına üç molla, Əngilan, Koxanı üstə mülhəq, Xələnc, Fındığan, Zərgərli, Qalaşıxı və Zarat icmasının hərəsinə bir molla təyin etmək niyyətində olduğum[u] Məşixət İdarəsinə ittila verib təsdiqini xahiş etmişəm.

Bundan əlavə, polis məmurlarından bir para qüsurat [nöqsanlar] məsmu olarsa [eşidilərsə], Balaxanı-Sabunçu polismeysteri bu barədə bir sərəncam çəkməlidir.

*Bakı qazısı: Axund Əbdürrəhim Hadizadə*
*Katib: Həsənağa Yusifxanlı*

## BİRİNCİ ZƏFƏR

Hələ tüfənglər atılmadan, toplar patlamadan birinci zəfərə nail olmağımızla Azərbaycan türk və islamlarını təbşir [müjdələməklə] və təbriklə özümüzü bəxtiyarədd [hesab] edirik.

Bu zəfər diplomatik bir müharibənin nəticəsidir ki, hökumətimiz tərəfindən denikinlilərə qarşı elan edilmişdi.

Dağıstanı zəbt və Azərbaycana qarşı qorxulu bir vəziyyət ixtiyar etmiş olan Denikin macərası hökumətimizi bu qara təhlükəyə qarşı durmaq və təhlükəni üzərimizdən dəf etmək üçün kamaligərmi ilə [tam qızğınlıqla] işə girişməyə və qəhrəman ordumuzun süngüsü ilə bərabər qeyrətli əhalimizin hümmət və həmiyyətinə istinad edən diplomatik bir müharibə elanına məcbur etdi.

Bu müharibə, görünür, böyük bir ustadlıq və məharətlə icra edilirmiş ki, zəfər bizim tərəfdə oldu. Müttəfiqlər tərəfindən kömək və müzahirət [dəstək] görməkdə olan Denikin[in] eyni Müttəfiqlərdən ən nüfuzlusu olan İngiltərə hökumətinin "Haqsız soxulmuş olduğun yerlərdən çəkil!" əmrini alarkən nə qədər təəccüb edəcəyini təsəvvür ediniz.

Denikin və həsrətkeşləri bundan mülahizə etsinlər ki, diplomatiyada onlara qələbə çalmış olan Azərbaycan top və tüfəng müharibəsində dəxi onları məqhur və münhəzim [məhv edilmiş və məğlubiyyətə düçar olmuş] edə bilər.

Rus qaragüruhuna mənsub olanlar dəxi bir kərə bilməlidirlər ki, müstəbid Rusiyanı diriltmək və istiqlallarını elan etmiş olan millətləri təkrar qul və əsir etmək onların təsəvvür etdikləri kimi asan iş deyildir. Qan, can və mal bahası ilə alınmış olan bu istiqlal yüngüllüklə əldən verilməz. Dərədən-təpədən yığılmış, yalnız bir pula və paraya qulluq edən ruhsuz, məfkurəsiz bir taqım səfillərin əlinə silah verməklə onu ordu zənn edib də, istiqlal və azadlıqlarını can və başla mühafizə etmək və göz bəbəyi kimi saxlamaq əzmi ilə ruhən qəvi [güclü] və cismən mətin olan bir millət üzərinə yürütmək nə qədər məntiqsiz, nə dərəcə ağılsız bir təşəbbüsdür ki, bu kimi əməl ancaq denikinlilərdən baş verə bilər!

Azərbaycan türklərinin müqəddəratını əlinə almış olan hökumətimizin bu zəfəri Denikin fəqərəsində [hadisəsində] birinci – və ümid edirik ki, əbədi – bir zəfər isə, istiqlalımızı müdafiə yolunda ikinci böyük zəfərdir ki, bunlardan birincisi keçənki zabastovkanı [tətili] yatırtmaq və istiqlalımızı qırmızı təhlükədən qorumaq idi.

Bundan belə, Azərbaycan türk və islamları mütməinül-qəlb [arxayın] olub müqəddəratlarının, istiqlal və azadlıqlarının möhkəm və ümidli bir əldə olduğunu yəqin edərlər. Yəqin edib də, bu hökumətə əllərindən gələn qədər köməyi, əlbəttə, müzayiqə etməzlər [əsirgəməzlər]. Necə ki etməyirlər.

Şübhə etməməlidir ki, müdəbbir [tədbirli, ağıllı], səbat[lı] və əzmkar bir hökumət ilə ruhən diri və mənən qüvvətli olan bir millət maddən və cismən dəxi böyük və sarsılmaz bir qüvvətə malik olub da, heç bir vaxt ölməz və dünya durduqca yaşar.

*Hacıbəyli Üzeyir*

## DENİKİN ORDUSUNUN İLK HƏZİMƏTİ

Denikin ordusunun Dağıstana qarşı açdığı hərb və Azərbaycan istiqlaliyyəti əleyhində başladığı hücum ilk dəfə olaraq siyasi bir həzimətə [məğlubiyyətə] düçar oldu.

Denikinin bu həziməti Zaqafqaziya cümhuriyyətlərinin istiqlaliyyət uğrunda silah və topa sarılıb düşməni qovmaq, düşmənin haydudca [quldurcasına] çıxışlarına qarşı müqabilə etmək üçün müsaid [əlverişli] bir zəmin verdiyi kimi, Böyük Avropa əfkari-ümumiyyəsini [ictimaiyyətini] də Qafqaziya cümhuriyyətlərinin lehinə tövcih edə bilməsinə [yönəldə bilməsinə] də əmin bir vəsilə [vasitə] bəxş eyləmişdir.

Denikin ordusu – Avropa dövlətləri və bilxassə [xüsusilə] İngiltərə üçün məlum olmuşdu ki – bir macəracu həyula [macərapərəst bir kabus] olaraq Qafqaziyanın istiqbal və müqəddəratına qarşı hərəkət edir. Təyini-müqəddərat etmiş və intizam və mədəniyyətpərvəranə idarələrlə sabiq Rusiyadan daha ziyadə hər tərəfin məhəbbət və hörmətini cəlb eyləmiş kiçik cümhuriyyətləri əzmək, kiçik cümhuriyyətlərin hər dürlü hüququna vəhşicə bir xatimə çəkməkdən ibarətdir.

Bizim əfkari-ümumiyyəmiz [ictimaiyyətimiz] bundan əvvəl pək haqlı olaraq ingilis siyasətinə qarşı ədəmi-məmnuniyyət [narazılıq] göstərmiş və ikiüzlü bir siyasətə qarşı bəzi protestolu təzahürat göstərmişdir. Fəqət əfkari-ümumiyyə onu da bilirdi ki, Azərbaycan türklüyünün bu qədər fədakarlıq, bu dərəcə qəhrəmanlıq göstərərək əldə etdiyi və əldə etdikdən sonra da ən mədəni bir millətə yaxışacaq bir surətdə mühafizəsinə çalışdığı istiqlaliyyəti Avropa dövlətləri kimi mədəni və bilxassə İngiltərə kimi durəndiş [uzaqgörən] bir dövlətin büsbütün hesabsız buraxması mümkün deyildir.

Mümkün deyildir, çünki bu gün Avropa dövlətləri və İngiltərə qarşısında canlı bir surətdə duran bir Azərbaycan[ın] mövcudiyyəti ilə canı da, mövcudiyyəti də bir həyula və yırtıcılıqdan ibarət olan Denikin və bolşevik Rusiyası arasında dağlar qədər böyük bir fərq vardır.

Bu fərq ondadır ki, dünyanın vida etmək istədiyi silah gücünü Denikin təzədən ehya etmək [diriltmək] istəyir, əl çəkmək istədiyi təcavüzi bir hərbi [təcavüzkar müharibəni] o Denikin təcdid eyləyirdi [bərpa edirdi].

Böyük Avropa dövlətləri və məsələn, iştə İngiltərə Qafqaziyada silahsız, gücsüz və ancaq siyasətlə apardığı bir işi kiçik Denikin qüvvətlə həll etmək sevdasına düşərsə, əlbəttə ki, hər tərəfdə düçar olacağı şey həzimət və məğlubiyyətdir. Bu nöqteyi-nəzərlə London hökumətinin Qafqaziya hüdudlarını təyin edərək Denikinə də bir addım irəliyə atmaması haqqında verdiyi qərar Denikin və "Yedinaya Rossiya"çılar üçün, həm də bizim üçün bir həqiqəti havi bulunmaqdadır [bir həqiqəti ehtiva edir].

Denikinçilər və "Yedinaya Rossiya"çılar bilsinlər ki, əski Rusiyanı ehya etmək fikiri bir nəzəriyyə olaraq qalır və heç bir vaxt da əməliyyata uymaz. Binaənileyh [ona görə], denikinçilər bihudə yerə həm özlərinin qanını tökməsinlər, həm də başqalarının hüzur və səadətlərini ixlal eyləməsinlər [pozmasınlar]. Çünki bunun nə axırı vardır, nə də müsbət və faydalı bir qayəsi.

Bizə gəlincə, bizim üçün bu vəziyyət zatən məmul [gözlənilən, arzu edilən] idi. Əgər siyasiyyatda biz böylə bir qələbəyə nail olmasaydıq belə, hüdudlarımızda bəkləyən əsgərlərimiz, istiqlal və hürriyyətimiz uğrunda hazır bulunan yüz minlərcə Azərbaycan türkü Denikin ordusundan qəti bir qələbə və zəfər qazanmayınca və istiqlaliyyətimiz haqqında ciddi bir təminat almayınca yolundan dönməyəcək, əzmindən vaz keçməyəcəkdi.

Son tətil əsnasında millətimizin ən kasıb və demokrat sinfinin göstərdiyi vətənpərvəranə təzahürat dəxi göstərir ki, millətin əzmi, millətin qərarı qətidir:

– Ya istiqlal, ya ölüm!

İştə, o türk demokratiyasının haqlı olaraq çıxardığı səs bu gün Avropa dövlətinin ən böyüyü tərəfindən də müzahirət olunur [dəstəklənir]. O səsə, yaraşan bir cavabla müqabilə edilir. Digər tərəfdən, Dağıstan millətdaşlarımızın dəxi şimal kabusundan qurtulub da bizimlə bərabər yenidən ciddi bir surətdə hökuməti tənzim [nizamlamaq] və istiqlaliyyəti təhkim [möhkəmləndirmək] üçün əl-ələ verərək çalışmaqlığımıza sahə açılmış deməkdir. Hər nə olsa da, İngiltərə dövlətinin məlum qərarı gərək Dağıstan və gərək Azərbaycan haqqında mövcibi-məmnuniyyətdir [məmnuniyyət yaradır] deyə biləriz.

*Ə. Həmdi [Qaraağazadə]*

## ZAQAFQAZİYANIN SƏRHƏDİ

Hökumətimizin siyasi müzəffəriyyəti

Cümə günü ayın 13-də səhər saat 11-də İngilis Komandanlığı tərəfindən Hökumət rəisi Nəsib bəy Yusifbəyli cənablarına yazılan rəsmi bir məktub cüzündə [məktubun bir hissəsi kimi] Zaqafqaziyadakı İngilis Komandanlığı nümayəndəsi general Korinin bir təbliği ilə bir xəritə təslim edilmişdir. Bu xəritədə İngiltərə hökuməti-kraliyyəsi tərəfindən Zaqafqaziya cümhuriyyətləri ilə Denikin ordusu arasında bir xətti-fasil [ayırıcı xətt] (sərhəd) təyin edilmişdir. Bu sərhəd Qara dəniz sahilində Bzıb nəhrinin mənsəbindən başlayıb, bu nəhrdən şimala Suxum sərhədi, oradan şərqə doğru uzanıb Suxum, Kutais, Tiflis və Dağıstan vilayətlərinin hüdudu, Petrovsk-Dağıstan dəmiryolunun 5 mil cənubunda vaqe [yerləşən] nöqtəyə çatır, oradan cənub-şərqə dönüb dəmiryola müvazi [paralel] bir xətlə 5 mil fasilədə [məsafədə] davam edib, Petrovskdan 5 mil aşağıda Kaspi dənizinə dayanır [dirənir].

İngiltərə hökumətinin qərarına görə, Denikin bu sərhəddən aşağıya qoşun göndərə bilməyəcək və Qafqaziya cümhuriyyətləri də bu sərhəddən yuxarıya keçməyəcəklərdir.

---

Bu surətlə bütün Dağıstan vilayəti Petrovsk həvalisindən [ətrafından] bir cüzü [bir hissəsi] müstəsna olmaq üzrə, Denikin ordusu tərəfindən tamamilə təxliyə edilməlidir.

---

Hökumət məhafilində [dairələrində] hökmfərma olan [hökm sürən] bir qənaətə görə, 3-4 günün ərzində Dağıstan ərazisi Denikin ordusundan tamamilə boşalacaq, onun yerini isə Azərbaycan əsgərləri tutacaqdır.

## İTALİYA HEYƏTİNİN TƏBRİKİ

Dün şəhərimizdə bulunan İtaliya heyəti-əsgəriyyəsi [hərbi heyəti] rəisi polkovnik Mişel tərəfindən Hökumət rəisi namına aşağıdakı təbrik məktubu alınmışdır:

Azərbaycan Cümhuriyyətinin hüdudunu təyin haqqında İngilis Komandanlığından aldığınız xoş xəbərdən dolayı Qafqaziyada bulunan İtaliya heyəti zabitləri namına zati-dövlətlərinə ərzi-təbrikat etməklə müftəxirəm [təbriklərimi bildirməklə iftixar edirəm].

Zati-dövlətlərinə məlumdur ki, İtaliya heyəti zabitləri Azərbaycan xalqının kəndi istiqlalını müdafiə üçün gördüyü ciddi tədbir və hazırlıqları nə qədər böyük bir maraqla təqib edir və bu məmləkət əhalisinin ruhlandığı hissiyyatı nə qədər dərk edir və anlayırlar.

Bilvəsilə [fürsətdən istifadə edərək], ehtiramati-faiqəmin [böyük hörmətlərimin] qəbulunu rica eylərəm, əfəndim.

*İtaliya heyəti rəisi: polkovnik Mişel*

## TELEQRAF XƏBƏRLƏRİ

**İngiltərə Rusiya barəsində**

Ordunun saxlanması barəsində smeta təqdim edərək Çörçill demişdir:

Mümkündür ki, yayın axırlarında İngiltərə qoşunları Rusiyadan geri dəvət edilsin. İngiltərə siyasətinin əsası böylədir ki, Rusiya ruslar tərəfindən xilas edilməlidir. Rusiya demokratik bir məmləkət olmalıdır.

**İsveç sənaəti [sənayesi]**

Stokholmdan verilən xəbərlərə görə, kağız fabrikaları külli miqdarda kağız hazırlamışlar ki, bunları aparmağa yer yoxdur. Mexaniçeski zavodlara sifariş gəlməyir. Parça toxuyan zavodlar qapanmaqdadır. Kimyəvi şeylər Amerika mallarından ucuzdur.

**8 saatlıq iş**

Stokholmdan xəbər verirlər ki, Aşağı Palatada uzun müzakiratdan sonra əmələlərin [fəhlələrin] 8 saatlıq işi barəsində qanun qəbul edilmişdir. Həman gün qanun layihəsi Yuxarı Palataya idxal edilmişdir. Fəqət orada müzakirə edilib 70 səslə 40 səsə qarşı olaraq rədd edilmişdir. Bu münasibətlə Baş vəzir bəyan eyləmişdir ki, növbədə Yuxarı palatanın buraxılması məsələsi qoyulmuşdur.

**Müttəfiqlər və Kolçak**

Fransa Hökuməti Kolçakın cavabını son dərəcə məmnuniyyətbəxş ədd [hesab] edir. Kolçak Müttəfiqlərin bolşeviklərə zidd olan rus hökumətini təsdiq etmələri təklifini qəbul etmişdir. Fransa Hökuməti iki qeyd eyləmişdir. Bunların biri Məclisi-Müəssisan, digəri özlərini müstəqil elan edən rus oblastları haqqında. Məlum deyil ki, bu cavab Vilsonu razı salacaq, ya yox. Ola bilər ki, Vilson Kolçakın şərtlərini əvvəlki siyasətə qayıtmaq arzusu hesab etsin.

**Kolçakın Müttəfiqlərə notası**

Liondan xəbər verirlər ki, Kolçak Müttəfiqlərə təqdim etdiyi notada deyir ki, onun birinci məqsədi Məclisi-Müəssisan intixabatına şüru etməkdir [seçkilərinə başlamaqdır]. Müttəfiqlər Kolçaka təklif eyləmişdir ki, hərgah yeni intixabat mümkün olmasa, 1917-ci ildə intixab edilən üzvlər dəvət edilsin. Kolçak buna zidd olaraq demişdir ki, 1917-ci ildə Məclisi-Müəssisan qeyri-adi bir surətdə intixab edilmişdir. Polşa məsələsi Kolçakın bəyanatına görə, müşküllük törətməyir. Polşanın istiqlaliyyəti qəbul edilmiş, sərhəd təyini məsələsi hər iki tərəfin rizası ilə həll edilir. Kolçak bəyan edir ki, Oktyabr inqilabından əvvələdək Rusiya hökumətinin olan borclarını təsdiq edir.

**Kolçak nümayəndəsi Londonda**

Londondan teleqraf edirlər ki, "Tayms" qəzetəsinin məlumatına görə, Kolçakın nümayəndəsi buraya varid olmuşdur [gəlmişdir].

**Odessada fransız gəmiləri**

Yekaterinodar - Novorossiyskdən xəbər verilir ki, Odessa iskələsinə [limanına] bir neçə fransız gəmiləri gəlmişdir. Şura Hökuməti paroxodların komandasından nə səbəbə gəldiklərini soruşmuşdur. Paroxod komandanı bu təklifi rədd edib demişdir ki, bu barədə heç bir cavab verə bilməzlər, çünki məsələ Fransız Komandanlığına aiddir.

**Rusiya haqqında**

Petroqrad - "Tayms" qəzetəsinin xüsusi teleqrafında denilir (bu teleqrafın başı alınmamışdır):

Mümkündür ki, bolşeviklər bizə mükafat hazırlasınlar. Bu gün mən Şimali Rusiya general-qubernatoru [Yevgeni-Lüdviq Karloviç] Miller ilə görüşdüm. General dedi ki, Petroqrad və Moskvanı almaq üçün bizə müavinət ediniz və sonra biz bütün Rusiyanı bolşeviklərdən azad edəriz. Gəmiləri təmir edən ustaların təbliğatı bizə əngəl törədir. Bunlar Arxangelskdə bolşevizm olduqda məmur imişlər.

## SÜLH ƏTRAFINDA

**Almaniya əks-təklifinə cavab**

İngiltərə mətbuatı xəbər verir ki, hələliyə hərçənd saziş hüsula gəlməmişsə də, Dördlər Şurası bu günlərdə Almaniya əks-təklifinə cavab hazırlayıb qurtaracaqdır. Zərərlərin verilməsi şəraitinin nə tövr dəyişiləcəyini xəbər verirlər. Məbləğ hələ müəyyən edilməyəcəkdir. Bu məsələyə baxan Beynəlmüttəfiq Komisyon [Müttəfiqlərarası Komissiya] öz işini üç-dörd ay müddətində qurtaracaqdır. Bu barədə məzkur [deyilən] komisyona müəyyən ixtiyarlar verilmişdir. Bu qərar üzrə Almaniyanın zərərlər əvəzində verəcəyi məbləğ noyabr ayına qədər məlum olacaqdır. Bu yaxınlarda Vilson həman komisyona Amerika nümayəndəsini təyin edəcəkdir. Almaniya 4 maddənin güzəşt edilməsini tələb edir. Sülh müahidənaməsində [sazişində] bundan sonra imza edəcəyini şərt qoyur.

Həman maddələr bunlardır:

1) Yuxarı Sileziyada olan kömür mədənlərinin bir hissəsi Almaniya nəfinə [xeyrinə] olaraq təmin edilsin;

2) Zərərlərin verilməsini təyin edən komisyon heyətinə Almaniya nümayəndəsi qəbul edilsin;

3) Almaniya hökuməti Cəmiyyəti-Əqvamda [Millətlər Cəmiyyətində] iştirak edən millətlər cümləsinə daxil edilsin;

4) Almaniya müstəmləkələrindən birinə mandat verilsin.

- Axırıncı alınan xəbərlərə baxmayaraq, almanların cavabı hələ hazırlanmamışdır. Amerika nümayəndələrinin rəyinə görə, gələn həftə Müttəfiqlərin Almaniyaya cavabı verildikdə axırıncı söz deyiləcəkdir.

Amerika nümayəndələrindən birinin dediyinə görə, Almaniyaya sülh müahi-dənaməsini [sazişini] imza etmək üçün az bir vaxt veriləcəkdir. Fransa nümayəndələri böylə təsəvvür edirlər ki, hərgah 4 maddə üçün güzəşt olmasa, almanlar sülh müahidənaməsini imzadan imtina edəcəklərdir. Yəqin edildiyinə görə, bu maddələr haqqında güzəşt olmayacaqdır. Cəmiyyəti-Əqvam komitəsi Almaniyanın Cəmiyyəti-Əqvama daxil ediləcəyi müddətin azalmasını müzakirə etməkdən ötrü şənbə günü cəm olacaqdır.

Almaniyanın qərbi sərhədlərini təyinedici komisyonun bu günlər iclası olacaqdır. Təsəvvür edildiyinə görə, müahidənamə ilə Yuxarı Sileziyanın Polşaya məxsus edilmiş hissəsi rəyi-amm [referendum] ilə Almaniyaya qaytarılacaqdır. Ancaq bu şərtlə ki, seçkilərə almanlar tərəfindən təzyiq edilməsin.

**Ordu tərxisi**

Sülh müahidənaməsi imza edilən kimi Reyndə olan işğal əsgərlərinin miqdarı azalacaqdır.

**Lloyd Corc Almaniya haqqında**

Londondan xəbər verirlər ki, Lloyd Corc Amyendə olan Uels firqəsi [diviziyası] əsgərlərinə müraciət edib demişdir ki:

Almanların izhar etdiklərinə [bildirdiklərinə] görə, sülh müahidənaməsini [sazişini] imza etməyəcəklərdir. Biz isə cavab verdik ki, siz gərək sülh müahidənaməsini imza edəsiniz. Hərgah siz onu Versalda imza etməsəniz də, Berlində imza edərsiniz. Biz güzəştdə bulunmaq xəyalında deyilik. Dünyanın gələcəyi o sülhdən asılıdır ki, biz onu imza etməyə məcbur etməliyiz. Hərgah sizin Berlin üzərinə getməyiniz lazım olsa, hərgah sizin məzuniyyətiniz təbdil edilib [dəyişdirilib] Londona getməyiniz təxirə salınsa, biliniz ki, bir tək mən məsulam. Ona görə siz təqib ediniz ki, yazılmasına kömək etdiyiniz sənədə möhür qoyulsun.

**Almanlar sülh haqqında**

Almaniya nümayəndəsi Rantsau Versaldan çıxıb Berlinə əzimət edərkən [gedərkən], Almaniya heyəti üzvlərini dəvət edib demişdir ki:

*"Onlara deyiniz, hərgah sülh şəraiti [şərtləri] təbdil edilməsə [dəyişdirilməsə], mən Berlində onları imza etməkdən imtina edəcəyəm. Başqaları sülh müahidə-naməsini [sazişini] imza etsələr də, mən heç vaxt imza etmərəm."*

**İngiltərə Sülh Şurası sədrinin protestosu**

İngiltərə Sülh Şurasının sədri Çarlz Tredelyan "Mançester" qəzetəsində sülh şəraitinə qarşı etiraz eyləmişdir:

*"Bu sülh müahidənaməsi [sazişi] müharibənin müvəqqəti surətdə dayandırılmasından başqa bir şey deyildir. Beynəlmiləl bir sülh aparatı kimi onu tələqqi etmək [qiymətləndirmək] olmaz. Beynəlmiləl demokratiya öylə bir sülhə ümidvar idi ki, o, Vilsonun 14 maddəsində müəyyən və aşkar göstərilirdi. İndiki sülh müahidənaməsinin böyük tənqidə ehtiyacı vardır."*

Protestoda denilir ki:

*"Cümhuri Almaniyaya [Almaniya Respublikasına] verilmək istənilən indiki sülh müahidənaməsini vücuda gətirmək olmaz. Saar hövzəsi barəsində olan qətnamə öylə bir xətadır ki, onun mislini 1871-ci ildə Prussiya eyləmişdi. Şərqi Prussiyanı ayırmaq, Dansiq barəsində olan siyasət almanların hissiyyati-milliyyələrini təhqir edir. Mandat maskası altında müxtəlif surətdə ilhaqlar [birləşdirmələr] vardır. İlhaq edilən, yaxud mandat altına al[ın]maq istənilən yerlərin istiqlaliyyəti var demək olmaz."*

Etiraz bu sözlərlə qurtarır:

*"Heç kim inanmaz ki, bu sülh müahidənaməsi əbədilik olacaqdır. Ona görə də bu müahidənamə hər bir demokrat və beynəlmiləliyyətçi tərəfindən rədd edilməlidir. Ola bilər ki, aclıq düşməni sülhnaməni imza etməyə vadar etsin. Fəqət beynəlmiləlçilər beynəlmiləl demokratiyaya istinad edərək bu müahidənamənin təbdil [dəyişdirilməsinə] və müzakirə edilməsinə çalışmalıdırlar."*

## ŞİMALİ QAFQAZİYADA

Silahlarını tərk etmək istəməyən kommunistlər (bolşeviklər) Verxni Urob hövzəsi tərəfinə sıxışdırılmışlardır. Bunların müxtəsər bir hissəsi Xristianski mövqif[in]dən [stansiyasından] çıxıb meşələrdə gizlənmişlərdir. İnquşistandan bolşevizm hərəkatı Kabardaya sirayət etmişdir [yayılmışdır]. Oraya kabardin bolşevikləri keçib üsyan qalxızmışlardır. Ona görə də rotmister Serebryakov cəza dəstələri təşkil etməyə başlamışdır. Çijok dairəsində Kovalenkonun təhti-idarəsində [idarəsi altında] bir dəstə qarətə başlamışdır. Bu dəstəni məhv etməyə dəstələr göndərilmişdir.

**Qroznıda yanğın**

Qroznı neft mədənlərində vaqe olan axırıncı yanğınlardan 55-56 nömrəli vışkalar [buruqlar] yanmışdır. Xəsarət 10 milyon manatadəkdir.

**Denikin ordusu haqqında**

Dağıstandan gəlmiş və etibara məzhər olan bir zatın [etibarlı bir şəxsin] rəvayətinə görə, Denikin ordusu qayət nizamsız bir haldadır. Petrovskdan Azərbaycan sərhədinədək onların miqdarı 600 nəfərdən ziyadə deyildir. Dabravolların [könüllülərin] miqdarının artmasına şimalda olan bolşeviklər mane olurlar.

Azərbaycan əleyhinə hərbi hərəkatda bulunmaq onlar üçün əbədən mümkün deyildir. Çünki, əvvəla, onlar azdırlar, intizamsızdırlar; saniyən [ikincisi], cənub tərəfindən onlara bolşevik xətrəsi [təhlükəsi] vardır.

Buna görə də dabravolların dostları tərəfindən buraxılan həyəcanlı xəbərləri mübaliğəli sanmalıdır.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

– Rəisi-vükəlanın [Baş nazirin] Maarif naziri müavini təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Şahsüvarovu Maarif naziri və Ədyan [Dini Etiqad] naziri müavinliyinə təyinlə nazirlik vəzifəsinin ifasını ona mühəvvəl etməli [tapşırmalı].

– Maliyyə nazirinin spirt və istehsalatı [spirt və spirt məhsulları] aksizini artırmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

– Maliyyə nazirinin aksizsiz təcili və rəhn qəbulu haqqındakı nizamnamənin dəyişməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

– Maliyyə nazirinin Bakının mədən dəvairindəki [dairələrindəki] fəhlələrin müskirata [spirtli içkilərə] alışması önünü almaq üçün tədabiri [tədbirləri] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

– Rəisi-vükəlanın Məclisi-Məbusanın qətnaməsi üzrə dövləti mühafizə [dövlət mühafizəsi] təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir:

1) Dövləti mühafizədən ötrü təşkil ediləcək heyət "Dövləti Mühafizə Komitəsi" namı [adı] ilə təsmiyə edilsin [adlandırılsın].

2) Dövləti Mühafizə Komitəsi 5 nəfərdən mürəkkəb olur: Rəisi-vükəla, Hərbiyyə naziri, Türuq və Məabir [Nəqliyyat və Rabitə] naziri, Xariciyyə naziri və Ədliyyə naziri.

Qeyd:

a) İclasın qanuni olması üçün həman 5 zəvatdan [şəxsdən] 3-ü isbati-vücud [iştirak] etməlidirlər (kvorum).

b) Sədr özü isbati-vücud etmədikdə, o, öz vəzifəsini xahişi üzrə [öz istəyinə görə] bir nəfər üzvə həvalə edir.

## "DƏRBƏND – DƏMİR QAPI"

Dağıstanda vaqe olan son hadisələr nəticəsində çar həsrətkeşlərinin qara qüvvəsi Dərbəndə kimi gəldi. Bu münasibətlə Azərbaycan xalqının, Azərbaycan türklərinin Parlamanından tutub Hökumətinə və firqələrinə qədər nə kimi həyəcan içinə düşdükləri hamıya bəllidir.

Hökumətimiz tərəfindən görülən tədbirlərə cavabən Denikin nümayəndələri əvvəlcə inandırmışlardı ki, könüllülər Dərbənddən cənuba keçməyəcəklər. Sonralar isə Qızılburun Zaqatalanı son bir xətt nişan vermək istəmişlərdi. Bununla da Denikin ordusu paytaxtımızın can damarı Şollar suyunu əlinə almaq və şimalda Dərbənddən bu yana heç bir möhkəm qalaya malik olmayan Cümhuriyyətimizi təhdid altında saxlamaq istədiyi gizli deyildir. Odur ki, Denikin ordusunun nümayəndələrinə "Könüllü ordusu Dağıstandan çıxmasa, Azərbaycan özünü rahat hiss etməyəcəkdir" deyə Rəisi-vükəla həzrətləri tərəfindən cavab verilmişdi.

Doğrudan da, bu böylədir. Qafqaziyanın əhvali-coğrafiyyəsinə az-çox bələd olanlar bunu təsdiq edərlər ki, Dağıstan, xüsusən Dərbənd, Azərbaycanın son istehkamıdır. Dərbənddə oturanlar istədikləri vaxt Azərbaycanı təhdid altına ala bilərlər. Və Qafqaziya tarixi ilə aşina olanlar da bilirlər ki, Dərbəndin durduğu yer Cənubi Qafqaziya və Yaxın Asiya ilə Şimali Qafqaziya və Şərqi Avropanı birləşdirən dar bir düzəngahın üstündədir. Həzrəti İsanın təvəllüdündən neçə əsr irəlidən bu vaxta kimi bu yer millətlərin güzərgahı olubdur.

Hindistana sığmayan millətlər indiki İran və Azərbaycan təriqi [yolu] ilə gəlmiş və Dərbənd yolu ilə Kaspi kənarı ilə Avropaya keçmişdir. Həmçinin Xita-Altay [Çin-Altay] tərəflərindən çıxıb Ural təriqi ilə Şərqi Avropaya dolan millətlərin də cənuba doğru dönən qismi bu yol ilə Azərbaycana və Anadoluya dola bilmişdir. Sonra yenə İsadan qabaq məşhur İskəndəri-Rumi İranı fəth etdikdən sonra vilayətini, şimalı tutmuş vəhşilərdən mühafizə üçün, rəvayətə görə, Dərbəndi bina etmişdir.

İsanın təvəllüdündən 5-6 əsr sonra Şərqi Avropanı bürüyən türk tayfaları buradan cənuba, İrana, Ruma və başqalarına hücum edərdilər. Türk tayfalarından ən məşhuru və həm də əsrinin ən mədəni bir xaqanlığını qura bilən xəzərlər Cənubi Rusiyanı istila etmiş, Şimali Qafqaziyanı Dərbəndə kimi tutmuşlardı. O vaxt iranilər Dərbəndi, xəzərlər də indiki Şamilqala, sabiqdə Petrovsk adlanan o vaxtın Səməndərini təhkim edirdilər [möhkəmləndirirdilər]. Böylə ki, xəzərlər Azərbaycan və Cənubi Qafqaziyaya hakim olmaq üçün mütləqa əvvəl Dərbəndi tutur, bərkidir, sonra cənuba keçməyə başlayırdı. Eyni surətdə də İran hökuməti Azərbaycanı və İranı mühafizə üçün Dərbəndi zəbt və əldə saxlamağa çalışırlardı. Hətta bu şəhəri əldə saxlamağa hər iki tərəf olmazın hiylələrə müraciət edirmişlər.

7-ci əsrlərdə Dərbəndi almış, Azərbaycanı sərasər, Gürcüstan, Ermənistan və İranı İraqa kimi bürümüş Xəzər türklərini bu yerlərdən çıxarmağa ərəb orduları gəlməyə başladılar. Ərəbistandan gələn əmrlər hamısı "Azərbaycanı təmin üçün Dərbəndi əldə saxlamağa səy ediniz" deyirdi.

Dərbəndin, ya Dəmir qapının tutduğu sövqülceyş [strateji] mövqe sayəsində idi ki, xəzərlər bir çox müddət aləmi kəndilərinə tabe etmiş ərəb ordusu ilə çarpışa bildilər və sonralar ərəblər Dərbəndi aldılarsa da, daha yuxarı gedə bilmədilər. Dərbəndin mövqeyi hərb və sövqülceyş nöqteyi-nəzərincə o qədər əhəmiyyətli idi ki, ərəb əmirləri, o cümlədən xəlifə Harun ər-Rəşid belə buranı ziyarət etmişdi. Rəvayətlərə görə, Harun ər-Rəşidin bir oğlu ələn [indi] Dərbənddə dəfn olunmuşdur.

Dərbənd – Zaqafqaziyanın və Azərbaycanın açarıdır. Doğrudan da, tarixdə səhv olmayaraq Dərbəndin tutduğu yerə Kaspi qapısı, Dəmir qapı, Babül-əbvab [Qapılar qapısı] deyə söyləyirlər. Guya burada, bu dar yolda hakim olanlar bir dəmir qapı qayırmış və bununla əbədi olaraq Cənubi Qafqaziyanı mühafizə və müdafiəyə müvəffəq olmuşdur. Əgər bu, tarixdə olmamışdırsa da, Dərbənd, Dəmir qapı, Kaspi qapıları kimi adlar ancaq coğrafiya nöqteyi-nəzərincə söylənirmişsə, inanalım ki, dəmir qapı olmasa da, dəmir hasar vasitəsilə bu yerdən Azərbaycanı təmin etmək mümkünatdandır. Təbiidir, indi dəniz, hava müxabiratının [rabitəsinin] tərəqqi etdiyi bir zamanda quru yolunun, dəmir qapıların o qədər də əhəmiyyəti yoxdur. Lakin bununla bərabər, Dərbəndi möhkəm saxlamış bir hökumət özündən dəfələrlə artıq qüvvəyə müqabilə edə bilər.

Bu gün İranın şimalı, Gürcüstan, Ermənistanı və Yaxın Asiyanı qurudan şimal ilə, Avropanın şərqi ilə mərbut edən [bağlayan] yol Dərbənd keçidindən, Dəmir qapıdan keçir, gedir. Bu qədər sövqülceyş əhəmiyyətdən əlavə bunu da deməliyiz ki, Dərbənd və nahiyəsi Azərbaycan türkləri ilə məskundur. Dilləri, adətləri, mətbuatları, ədəbiyyatları eyni Azərbaycan türkcəsi ilədir. Bütün bunlar Dərbəndin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu isbat edir. Əgər biz də İskəndəri-Rumi kimi, Qubad, Nuşirəvan, Xəzər qaanları və ərəb xəlifələri kimi Dərbəndin strateji (sövqülceyş) əhəmiyyətini anlamasaq, Azərbaycanımızı şimaldan daimi bir təhlükə altında bulundurmuş olarıq və məmləkətimizi həmişəlik bir zərbəyə və hücuma məruz qoyarıq deməkdir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 15 iyun (Bazar günü) tarixli 204-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Vətənimizin dəmiq qapısı olan Dərbənddə ancaq Dağıstan kimi dost və həmdin bir hökumətin olması bizi sakit və rahat buraxa bilər. Denikin kimi qara fikirli, müstəbid bir generalın orada bulunması bizi həmişə qorxu və həyəcan altında saxlamalıdır.

*Məhəmmədzadə Mirzəbala*

## DAMARLARIMIZDA QAN VARDIR!

Uzun illərdən bəri məzlum türk irqinin qan və kəmikləri [sümükləri] üzərində səltənət quran çarizm bütün həşəmət və daratı [ehtişam və dəbdəbəsi] ilə, bütün amal və istiqbalı ilə yıxıldı. İrqimin yeni bir tarixi doğdu. Fəqət, ey sevgili millətim, çarizmin ənqazı [törtöküntüləri] əski binayi-səltənəti [səltənət binasını] yenidən qurmaq, sənin məsum boynuna yenidən qara həlqələr keçirmək istəyir.

Yaşadığımız zamanlar sənin tarixinin ən yanıq səhifələridir. Lakin unutma ki, sən bilxassə qəhr çəkmək, fəlakət görmək və əziyyət dadmaq üçün dünyaya gəlmiş bir nəsildənsən. Və əsla məyus olmazsan. Əsasən, bu qəhrlərə təhəmmülün [dözümün], şübhəsiz, sərbəst və vəqur [vüqarlı] yaşamaq istədiyin üçündür.

* * *

İstiqlalımız bahar günəşinin ilk şüaları altında açılan və şimdi soyuq, dondurucu ruzigarlara məruz qalan tumurcuqlara bənzəyir. Biz də düşmənə ilk əvvəl hücum edəcək, ilk qurşunlara köks gərəcək nəfərləriz. Vəzifəmiz bayrağımızı əlimizə alaraq irəliləmək, çünki zəfər rayı [bayrağı] irəlidədir!

Biz fəxr və şərəflə ölərsək, millət üçün can vermiş olmaq təsəllisi, ruhlarımızı müəbbədən təziz edəcək [əbədi olaraq şərəfləndirəcək]. Bizdən sonra gələcək nəsillər məzarlarımız qarşısında hörmətlə əyiləcəklər və bizi təqdis edəcəklərdir [müqəddəsləşdirəcəklər].

Rus-japon [yapon] müharibəsi[ndə] Port-Artur qalasına hücum edən japonların yalnız bir eşqi vardı – ölmək! Və vətən yolunda ət və kəmikdən ibarət vücudlarını dəmirdən, çəlikdən toplara ərz etdilər, müqəddəs ölümə atıldılar. Nəhayət, şan və şərəf behiştinin qapıları ilə bərabər, Port-Arturun zəbti imkansız bürcləri də onların önündə açıldı.

Hələ bizim varlığımız önündə müstəhzi [istehzalı] bir təbəssümlə sırıtan [irişən], hələ bizi kölə etmək istəyənlərə ildırımlar yağdıraraq hayqıralım ki, biz dün doğduq, istiqlalın atəşin şərbətini gülrəng qədəhlərdən daha dün içən ağzımız bu gün torpaqla dolammaz!

Əvət, dün doğmuşduq, bu gün məzarımızı qazırlar. Həfr edən [qazan] əlləri qıracağız. Günəş altında kəndimizə layiq mövqeyi təmin üçün hər şeyi yapacağız. Bunun üçün damarlarımızda daşmaq ehtiyacı ilə quduran qüvvətli qan var.

Bir milləti ən əqur təərrüzlərdən [azğın hücumlardan], ən amansız təxriblərdən saxlayan nə "Krupp" topları, nə təyyarələr və nə zirehlilərdir. Ancaq quduran qan, quduran qandır.

Öldürülən qardaşlarımızın yekuni-müdhişi, qırılan nüfuz və şərəfimiz, paymal edilən [tapdalanan] heysiyyətimiz artıq əl verir!

Şimdi istiqlalımız üçün qəlbimizdə alovlanmış bir eşq və düşmənlərimizə əbədi bir kin və xüsumətlə [ədavətlə] bütün maddiyyət və mənəviyyətimiz bəsirətkar və müdəbbir [uzaqgörən və tədbirli] bir hökumətin işarəti ilə bir dinamit kimi patlamalıdır!..

*Həsən M. oğlu*

## EKSPRESS TEATROSU

Bu gün proqramdan əlavə olaraq, Bakıda 28 Mayda olan Azərbaycan istiqlalının səneyi-dövriyyəsi [ildönümü] münasibətilə edilən şənliklərdə alınan şəkillər göstərilir.

## CAVANLARIMIZA

Minlər salam olsun sizə ey millətin gənc ərləri!
Ey bu vətən gülzarının qönçə, müəttər gülləri.
Əhsən sizə! Səd mərhəba! Türkün qoçaq əsgərləri.
Etsin mübarək sizlərə Tanrım bu zəngin yerləri,
Ormanları, dəryaları, məxzənləri, mədənləri.

Ən bir müqəddəs kəlmədir: saygı, sıra, qanun, yasa.
Türkün elində işlənir bu kəlmələr başdan-başa.
Türk elləri bilməz nədir zəngin, xoca, bəy, xan, paşa,
Əsgər doğulmuş cümləsi, bir böylə millət min yaşa!
Türk oğlu sevməz qorxağı, yurda qaçan ərzəlləri!

"Əl-hərbu xud'ə" söyləmiş, oğlum, nəbiyyi-mötəmən,
Bu elmi təhsil et, çalış ol hərbin adabın bilən.
Səndən mədədlər bəkləyir bu ölkə, bu öksüz vətən.
İndi özün bir fikr elə – şıq əlbisə, yaxud kəfən?
Ölməkmi, qalmaqmı, rəva, məhv olsa türkün yerləri?!

Vəqti-zərurətdə gedər əsgər təmiz vicdan ilə,
Əldə silahı hərb edər sarsılmayan iman ilə,
İcab edərsə, can verər, millət yolunda şan ilə,
İştə, igidlik böylədir, qanun ilə, Quran ilə.
Quranda çoxdur Tanrının bu barədə ayətləri.

Sizlərsiniz düşmənlərə bir qəl'ə, bürci-ahənin,
Sizlərsiniz islam üçün haris, kömək, səddi-mətin.
Qoğmaq, vuruşmaq irsdir bizlərdə, ey əsgər, yəqin,
Türk əsgəri dava günü qaçmaz, qaçırdar düşmənin.
Çıxmaz, çıxardar ölkədən qasibləri, xainləri!

Sancağınızda qeyd olub mərdanəlik, fəthü-zəfər!
Parlaqdır istiqbalımız, söylər o kəskin süngülər.
Toplar zəbani-hal ilə söylər: Cavanlar, baxəbər!
Millət gərək əsgər ola, əsgər hamı, söz müxtəsər!
Yoxsa zəmanə məhv edər acizləri, tənbəlləri.

*Hacı Səlim Səyyah*

## AXIRIN FİKİR ETMƏYƏN AQİL DEYİL, DİVANƏDİR!

Rusların Qafqazdakı yüzillik hökmranlığı iki cəhətdən biz müsəlmanları qonşularımızdan geri saxladı: əvvəla, rus işkollarına rəğbətsizlik və ikincisi də, əsgərlik vəzifəsini qəbul etməmək. Burada bəziləri istibdadı və bəziləri də müsəlman ruhanilərini müttəhim edirlərsə də, məncə, məsələlərdə hər iki tərəf günahkardır. Ancaq bais kim olursa olsun, yüzillik hərəkatı ilə Azərbaycan türklərinə böyük uçurumlar hazırlamışdır: hökumət müəssisələrinə yarar yüz minlərcə türk oxumuş və ziyalıları olmadığı halda, bir çox mühüm məmurluqları əcnəbi oxumuşlarına həvalə ediriz, hərçənd bunların da sədaqətinə tamamən etibar etmək olmaz. Bainhəmə [bununla belə], yenə bu gün əcnəbilərə möhtacız, çünki oxumuşlarımız azdır.

Həmçinin, 30 ildən artıq gözlərimizin önündə qonşularımız əsgərlik vəzifələrini öyrəndilər. Saldatlardan generallarına qədər hər mənsəbə hazır oldular. Biz bunlara tamaşaçı və yabançı kəsildik. Sevindik ki, bizdən əsgər naloqu alıb uşaqlarımızı saldat aparmayırlar! Bunun da nəticəsi hamıya məlum olmuşdur. Qonşularımızın təcavüzlərinə qarşı nizami əsgərlərimiz olmadığı cəhətə Mart hadisatı kimi bəzi vaxt mütəəssif [təəssüflü] hallar, macəralar başımıza gəlir. Bərəkət versin ki, böylə ağır böhranların qarşısında millətimiz çaşmayıb, bir çox şühəda [şəhidlər] və tələfatın bahasına, qəsb olunmuş hüququnu geri qaytarır.

Köhnə hökumətdən əsgərlik bizə irs qalmış olsaydı, yəqin ki, bir bu qədər müsəlman kəndləri talan və qarətə giriftar olmazdı. Hələ sairlərin gələcəkdə yapa biləcək təcavüzlərinə qarşı yenə mühəyya [hazır] orduya ehtiyacımız vardır ki, avam təbiri ilə "iki daşın arasında" hazır etməliyiz. Ordumuz sairlərin haqqını qəsb etmək üçün deyil, fəqət məhz millətimizi və vətənimizi müdafiə etmək üçün lazımdır. Müdafiəçilik haqqı şər'ən [qanunən; şəriətə görə] və təbiətən hamı üçün borcdur. Yer üzündə öylə heyvan yaradılmamışdır ki, onun müdafiə hissi olmasın.

Difa [müdafiə] məsələsinə gəldikdə, bu şər'ən hamı üçün vacibdir. İstər qoca olsun, istər cavan. Xəvasından avamına qədər [seçilmişlərdən, yüksək təbəqədən qara camaata qədər], qadınlı-erkəkli hamı dinini, millətini və vətənini müdafiə etməyə Allah hüzurunda və vicdan qarşısında haqlıdır. İştə, bunun nəticəsidir ki, bir ovuc ləzgilərin difası ilə Şeyx Şamil həzrətləri Dağıstanı əlli illərcə dünyanın ən qəvi [qüvvətli] millətlərin[in] təcavüzündən saxlaya bildi. Miqdarda azərbaycanlılardan neçə dəfə az ləzgilərin əlli illik difası bizlərə gərək ibrət dərsi olsun. İki milyon camaat difaya qurşanarsa, bunun öhdəsindən heç bir düşmən gələ bilməz. Səlibiəhmər vəqələrində [Səlib yürüşlərində] də bunu sübut edəcək dəlillər az deyil. Xülasə, hanki bir millətdə difa məsələsi varsa, o millət qiyamətə qədər tələf olmaz.

Dini-islamın az bir vaxtda yer üzünə intişarı [yayılması] əsgərlik əsası ilə bərpa edilmişdir. Xəlifə və səhabələrdən başlayaraq adi ərəblərə qədər hamısı din və millət yolunda qılınc vururdular. Səhabə və kübarın [əsilzadələrin] uşaqları at minmək, ox atmaq, o vaxtın əsgəri təlimləri ilə məşğul olurdular. Ərəblərin cihada o qədər şövq və həvəsləri vardı ki, qılınc və sair yaraqlarını həmişə yanlarında saxlardılar. Xəlifənin cihad əmrini eşitdikləri mövqedən mənzillərinə dönməyərək, birbaş cihad meydanına tərəf yüyürürdülər. Xəlifə xütbəsini minbərdən söyləyərək qılıncını özünə dayaq verirdi. Tariximizi bir dəfə diqqətlə vərəqləyin də, böylə ibrətnüma vəqələri [ibrətamiz hadisələri] on minlərcə nəzərinizə alınız.

Bugünkü Azərbaycanın əsgərlik ehtiyacı hər bir ehtiyacdan əlzəmdir. Sərhədlərimizdə yaşayan qonşularımızın müntəzəm və təlimli qoşunları olduqları halda, biz türklərdəki xudadadi [Allah vergisi] şücaət və qeyrətə ümidvar qala bilmərik. Millətin fitri şücaəti nə payədə olur-olsun, əsgəri [hərbi] təlimi olmasa, nöqsan gətirər.

Hərgah millətimizi və millətimizin hakimiyyətini saxlamaq istərsək, kamali-şövq və zövqlə əsgərliyi qəbul etməliyik. Buna ikinci bir çarə yoxdur. Bir bu qədər başımıza gəlmiş bəlalar məgər əsgərsizliyimizin bəlası deyildimi?

Mart hadisatı, Şirvan talanı, Qarabağ və İrəvan mahallarındakı dağılmış kəndlərin bu hala düşməsinə bais təcavüzkarlara müqabil dura biləcək nizami əsgərlərimizin yoxluğudur. Bundan sonra da müntəzəm ordumuz olmazsa, yəqin ki, sair yerlərimizi də və bəlkə, tamam müqəddəratımızı qaib etmiş olarız.

Əsgərlikdən bu gün fərar edənlər yarın düşmənlərin qapısında nökərlik kimi alçaq və dəni [rəzil, təhqiramiz] vəzifələri də görməyəcəklər. Bu gün Azərbaycanın hakimiyyətinə istinadən övladımız ağalıq edirlər. Bugünkü ağalığı sabahkı nökərçiliyə təşxis verməyən [dəyişmək istəməyən] cavanlarımız öz riza və həvəsi ilə əsgərliyi qəbul etməlidirlər. Namusu və çarəsi olan zəvat [şəxslər] əsgərlikdən qaçmazlar. Çünki başı açıq qalmış ana və bacıların namusunu ancaq nizami əsgərlərimiz mühafizə edə bilərlər.

Bu gün oğlanlarını əsgərlikdən gizlədən atalar sabah arvad və uşaqlarının ismətini qaib edəcəklər. İndi diqqət olunsun ki, oğlunun iki illik əsgərliyini əhlü-əyalının [ailəsinin, arvad-uşağının] namusuna satan atalar nə böyük rəzalət qarşısında bulunurlar.

Hər əsgərliyə gedən həlak olmaz. Təsadüfən həlak olarsa, şühəda zümrəsinə daxil olub, vətəninin və millətinin namusunu öz pak qanı ilə mühafizə etmiş olar. Əlbəttə, fərar edənləri vaxtilə tutub itaətə gətirəcəklər. Ancaq bunlar bir qədər mülahizə etsinlər [fikirləşsinlər] ki, sabahkı şəmatətə [məzəmmətə] hədəf olmasınlar:

*"Axırın fikir etməyən aqil deyil, divanədir."*

*Fərhad Ağazadə*

## PROTESTO NÜMAYİŞLƏRİ

Srağagün həziranın [iyunun] 13-də şəhərdə təntənəli surətdə protesto nümayişləri icra edilib, bir çox yerlərdə mitinqlər vaqe oldu. Mədən dairələrində ümum müsəlman əmələləri birgünlük tətil elan edərək, böyük dəstələrlə nizam və asayiş üzrə şəhərə gəlmişlərdi. Bir çox qeyri-müsəlman əmələləri dəxi protesto nümayişlərində iştirak edirlərdi.

Saat 12 radələrində ümumi mədən dairəsindən əmələlər dəstələrlə Hürriyyət meydanına cəm olub, burada böyük bir mitinq vaqe olmuşdur. Hürriyyət meydanında Azərbaycan milli bayraqları ilə al bayraqlar təməvvüc edirlərdi [dalğalanırdı].

Mitinqi ittifaqla rəyasətə seçilən Məhəmməd Əmin Rəsulzadə cənabları açaraq, böyük bir nitq ilə Şimali Qafqaziya və Dağıstanı işğal edib indi üzərimizə qəsd edən Denikin qara qüvvəsi haqqında və bu münasibətlə bu gün tərtib edilmiş olan protesto nümayişlərinin nədən ibarət olduğu barəsində müfəssəl surətdə məlumat vermişdir. Əhməd bəy Pepinov, Dağıstan nümayəndəsi Amisayev, Cavad Məlik-Yeqanov, Rzaqulu, Yunis, bir çox qeyri natiqlər dəxi nitq söyləyib, axırda Denikin qüvvəsi ilə və Azərbaycan içərisində onun tərəfdarları ilə ciddi surətdə mübarizə edilməsini hökumətdən tələb etmək məzmununda bir qətnamə çıxarılmışdır.

Mitinqdən sonra nümayişçilər həman nizam və asayiş üzrə aram və ahəstə qədəmlərlə Birjevoy, Baryatinski, Olqinski və Naberejnı küçələrlə Hökumət dairəsi qarşısına gəlmişlərdir.

Bir qədərdən sonra Hökumət binası qarşısı on minlərlə camaat ilə dolub, bayraqlar təməvvüc edirlərdi.

Hökumət əzaları [üzvləri], Parlaman məbusları və bir çox ali sahibi-mənsəb şəxslər binanın balkonlarına cəm olub böyük demokratiyanın əzim [əzəmətli] bir kütləsini seyr edirlərdi. Nəhayət, Hökumət rəisi Nəsib bəy Yusifbəyli həzrətləri balkona çıxdıqda camaat gurultulu alqışlar və "yaşasın" sədaları ilə onu qarşıladılar.

Məhəmməd Əmin Rəsulzadə cənabları Hürriyyət meydanında qəbul olunan qətnaməni oxuyub və hökumətin ağır günlərdə nə kimi fəaliyyətdə bulunduğunu camaat namından bilmək istəmiş və camaat "tələb ediriz" deyə təsdiq eyləmişdir. Hökumət rəisi Yusifbəyli həzrətləri böyük bir nitqlə camaatın böylə mərdanəlik göstərib kəndi istiqlaliyyətini var qüvvəsi ilə müdafiə edəcəyinə nəhayətdə məmnun olduğunu bəyanla onu təbrik etmiş və camaatın, ələlxüsus əmələlərin bu dərəcə huşyar [ayıq-sayıq] olduğuna ta əvvəldən şübhə etmədiyini söyləmişdir. Yusifbəyli həzrətlərinin hər bir kəlməsini camaat diqqətlə dinləyib və "ura", "yaşasın" sədaları ilə alqışlamışlardır.

Sonra rəis həzrətləri bir gün əvvəl İngiltərə Komandanlığından almış olduğu rəsmi məktubu oxumuş və məlum etmişdir ki, Londondan alınan əmr mövcibincə [əmrə görə], Denikin ordusu 3-5 gün ərzində Dağıstandan çıxacaqdır. Və bu məktubla bərabər bir də xəritə göstərmişdir ki, o xəritədə Dağıstanın Zaqafqaziya və Azərbaycan tərəfdə qaldığı göstərilir. Həmin xəritədə göstərilən xətt Londondan alınan əmr üzrə Könüllü ordu ilə Azərbaycan Cümhuriyyəti arasında sərhəd olaraq qalır. Şimali Qafqaziya isə həlalik Könüllü orduda qalır. Ancaq Petrovsk iskələsi müvəqqəti olaraq İngiltərə Komandanlığı və Denikin ordusu ixtiyarında qalır ki, bunu da axırda boşlayacaqdır.

Rəisi-vükəladan sonra Məsai naziri [Aslan bəy] Səfikürdlü rus dilində bir nitq söyləyib Rəisi-vüzəranın verdiyi xəbərini təsdiq və ümum demokratiyanı birliyə dəvət etmişdir. Bundan sonra bir neçə natiqlər söz söyləyib, demokratiyanın bir nəfərə kimi Denikin ordusu ilə çarpışmağa hazır olduğunu və can fəda edəcəyini vəd və yəmin etmişlərdir.

Buradan dəstələr İngiltərə ərkanihərb [qərargah] idarəsi qarşısına gəlib uca səslərlə "Yaşasın Azərbaycan", "Yox olsun Denikin", "Var olsun ingilis demokratiyası" demişlərdir. Burada İbrahim Əbilov türkcə bir nitq söyləyib, əmələlərin Azərbaycan istiqlaliyyətini saxlamağa qanları ilə hazır olduqlarını Komandanlığa bəyan etmişdir.

Buradan dəstələr həman nizam və qayda üzrə Nikolayevski küçə ilə Parlaman qarşısına gəlmişlərdir. Burada dəxi Məhəmməd Əmin Rəsulzadə cənablarının sədarəti ilə böyük bir mitinq vaqe olub, Gəncə demokratiyası namından Fərzixanov Gəncə əmələ və kəndlilərinin Azərbaycan istiqlaliyyətini son nəfəslərinə qədər müdafiə və mühafizə edəcəklərini bildirmişdir. Sonra Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə Azərbaycan demokratiyasının bu gün şənlik və tamaşa üçün deyil, kəndi istiqlaliyyəti yolunda bir mücahid, bir mübariz kimi və onun üçün şəhid olmağa hazırlığını göstərməyə gəldiyini söyləmiş və demişdir ki, "Müsavat" demokratiyanı bir çoxlarının dediyi kimi keçən il Mart mübarizəsinə dəvət etməyib və ona səbəb olmamışdır. İndi isə həman firqə üçrəngli bayrağı ilə öz rəisləri başda olmaq üzrə ümum Azərbaycan demokratiyasını mübarizəyə və istiqlaliyyətin müdafiəsinə dəvət edir.

Bundan sonra "Hümmət" namından Ağazadə, iştirakiyyunlar [sosialistlər] tərəfindən Qoqeberidze, Suraxanı əmələləri namından Əflatun, Bibiheybət əmələləri tərəfindən Hüseyn əfəndi Müzəffərov və bir çoxları nitqlər söyləmiş və nəhayət, Parlaman rəisi doktor Həsən bəy Ağayev cənabları camaata müraciətən böyük bir nitq ilə demokratiyanın [xalqın] böylə mütəşəkkil bir surətdə kəndi istiqlaliyyəti uğrunda fədakarlığa hazır olduğunu görüb nəhayət dərəcə məmnun olduğunu bəyanla, Parlaman camaatın olub və camaatın tələbi Parlamanın tələbi olduğunu göstərərək, onun tərəfindən Hökumətə müraciət və mübarizəyə hazırlanmasını tələb etmiş olduğunu göstərmişdir.

Bundan sonra bir çox natiqlər dəxi türk və rus dillərində nitqlər söyləyib, axırda Məhəmməd Əmin Rəsulzadə cənabları nəhayətdə atəşin və hərarətli bir nitq ilə demokratiyanın bu gün göstərmiş olduğu əzm və səbatı ilə heç bir qüvvənin Azərbaycan istiqlaliyyətinə malik olammayacağı ümidini izhar və "Var olsun demokratiya" deyərək məclisi qapamışdır.

Buradan dəstələr Fəhlə Klubu qarşısına gəlib, orada bir neçə natiqlər nitq söylədikdən sonra, dəstələr mədənlərə doğru hərəkət etmişlərdir. Dəstələrlə bərabər bütün gün ərzində könüllü ehtiyat dəstələri dəxi kəndi zabitləri təhti-komandasında [komandanlığı altında] olaraq bayraqları ilə gəzməkdə idilər. Hamısından artıq diqqəti cəlb edən Dağıstan könüllü dəstəsi, Dağıstanın səkkizguşəli, bir çox ulduzlu bayrağı ilə üçrəngli Azərbaycan bayrağı altında marş ilə yürümələri idi. Müxtəlif siniflərdən təşkil edilən ehtiyat könüllü "Yardım alayı"nın min nəfərə yaxın adamdan ibarət dəstələri kəndi komandası altında olaraq al və milli bayraqlarla Parlaman qarşısına gəlib səf çəkmişlərdir. Burada alay namından Mahmud bəy və Mirzə Mehdi Axund müxtəsər nitqlərlə, məcburən deyil, könüllü və öz xahişləri ilə vətən yolunda şəhid olmağa hazır olduqlarını bildirmişlərdir. Dəstələrin içində 80 sinninə [yaşına] qədər qoca ağsaqqal kişilər dəxi var idi. Parlaman rəisi bunların fədakarlığından nəhayətdə məmnun olduğunu bildirib, özünün dəxi onlara mülhəq olub [qoşulub], var qüvvəsi ilə istiqlaliyyət yolunda çarpışacağını bəyan etmişdir.

Buradan dəstələr kəndi nizam və tərtibi ilə Təzəpir məscidinə getmiş, orada dua oxunduqdan sonra evlərinə getmişlərdir. Nümayişlər axşam saat 4 radələrində xitam bulmuşdur. Bütün gün nümayişlər icrası vaxtında nizam və asayiş hökmfərma olub [hökm sürüb], heç bir qeyri hərəkat müşahidə olmamışdır.

## AYIN 13-DƏ ÜMUMİ MİTİNQLƏRDƏ QƏBUL OLUNMUŞ QƏTNAMƏ

Biz Azərbaycanın mütəşəkkil zəhmətkeş xalqı bilafərqi-millət və məzhəb [millət və məzhəb fərqi olmadan], bütün aləm qarşısında qara və qanlı Denikin qüvvətinin inqilab içərisindən doğulmuş cavan Cümhuriyyətimizin hürriyyət və istiqlalını paymal etmək [tapdalamaq] istəməsinə şiddətlə etiraz və tələb ediriz ki:

1) Hökumət bilatərəddüd [tərəddüdsüz] bütün şiddət və qətiyyəti ilə mürtəce Denikin qüvvətinə qarşı mübarizəsində davam eyləsin.

2) Denikinə kömək eyləyən Müttəfiq Komandanlığı qarşısında bu macəra [bu hadisə] protesto edilib, Denikin hücumunun önü alınması qətiyyən tələb olunsun, tainki artıq imperializmin xırda millətlərə qarşı tutduğu məslək ayırd olunsun.

3) Daxildəki Denikin tərəfdarlarına qarşı şiddətli tədbirlər görülsün, casusları tutulsun, düşmən tərəfdarı mətbuat susdurulsun.

4) Bir dənə də olsun düşmən əlinə keçmək ehtimalı olan cəbbəxana Bakıdan xaricə buraxılmasın.

5) Bizi təhdid edən bütün təhlükə bütün Qafqaziya üçün umumidir. Bu ümumi təhlükəyə qarşı bütün Zaqafqaziya demokratiyası alnıaçıq olaraq əl-ələ verməli, Denikinə qarşı bir adam kimi çıxmalıdır.

6) Bütün vətəndaşları silah altına çağırmalıdır.

Bu tələbləri ciddiyyətlə icra edən Hökumət hər zaman zəhmətkeş xalqın etimadını qazanacaqdır. Biz əhd ediriz ki, Hökumətlə birlikdə son damla qanımıza qədər hürriyyətimizi, namusumuzu, istiqlalımızı müdafiə edəcəyiz. Qanını tökməklə mübarizəyə hazır olan Azərbaycan füqərayi-kasibəsinin [proletariatının] bütün firqələrdən tələb eylədiyi budur ki, ümumi düşmən qarşısında bütün firqələr xüsusi hesablarını unutsunlar, bir adam kimi olub düşmənə qarşı qiyam etsinlər. Böylə bir dəvətə qulaq asmayanlar bizim nəzərimizdə dost deyil, düşməndirlər.

## MÜBALİĞƏLİ XƏBƏRLƏR

İstiqlalımız və varlığımız əsasına hər yol ilə olursa olsun, zərbə endirmək xəyalından bir an geri durmayan "Yedinaya Rossiya"çılar ən ufacıq və adi hadisələri də dürlü rənglərə boyayaraq əfkari-ümumiyyəni [ictimaiyyəti] Hökumətimiz əleyhinə qaldırmaq cinayətindən utanmayırlar.

İştə, bu günlər Xaçmaz istasyonunda "eşq və məhəbbət" intriqasından dolayı bir hadisə vaqe olmuş ki, onu "Yediniya Rossiya"çılar kəndi növbəti provokasiyaları üçün bir dəstaviz [bəhanə] edərək: "Axır zamanlar Azərbaycan daxilində gündən-günə artmaqda olan cinayətlər rahati-ümumiyyəni pozduğu kimi, Quba qəzası isə bir anarşi hökmünü almışdır. Həman cinayətlər içində diqqəti cəlb edən Xaçmaz istasyonunda iki rus qadını ilə bir feldşerin müsəlmanlar tərəfindən öldürülməsidir" kimi mübaliğəli və fitnəəngiz [fitnə yayan] xəbərlərlə əfkari-ümumiyyəni zəhərləyib, hökumət məmurları əleyhinə ittihamlar yağdırır və hadisənin guya bir həftədən sonra polis tərəfindən aşkar edildiyini qeyd edir. Həman üç adamın öldürülməsi doğru isə də, həqiqəti-hal "Yedinaya Rossiya" xəbər verdiyi kimi deyildir. Mövsuq [etibarlı] mənbələrdən öyrəndiyim məlumata görə, əhval bərvəchi-zirdir [aşağıdakı kimidir]:

Xaçmazda öldürülən qadınlardan biri kəndi zövci-məşrusunu [qanuni ərini] buraxıb, həman Xaçmazda yaşayan məşuqu feldşerin yanına qaçmış və intiqam atəşi ilə yanan aldanılmış erkək də qadını cəzasına yetirmək üçün bir qaç bədəfkar[ı] [canini] pul ilə tutaraq zövcəsinin əqəbincə [dalınca] Xaçmaza göndərmiş, heysiyyətini tapdalayan zövcəsi ilə rəqibinin öldürülməsinə "müvəffəq" olmuşdur. Polis tərəfindən həmin Xaçmaz meşəsi içində vaqe olan cinayət sabahı günü aşkar edilib və canilərin dərdəst edilməsi [ələ keçirilməsi] üçün şiddətli tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

*H. R.*

## TƏKZİB VƏ TƏSHİH

– Qəzetəmizin 203-cü nömrəsində Bakı xəbəri içində olaraq "Əslihə [silah] tutulması" sərlövhəsi ilə yazılmış olan xəbərdə böylə bir əhvalat nəql edilmişdi ki, guya erməni kəlisası [kilsəsi] altında olan anbardan axtarış əsnasında bir çox əslihə, pulemyot, külli miqdarda patron və qeyriləri tapılmışdır. Bu xəbərin, yəni əslihə tutulmaq fəqərəsinin [hadisəsinin] doğru olub-olmadığı xüsusunda idarəmiz tərəfindən Hökumət nəzdində icra edilmiş olan təhqiqatdan məlum oldu ki, əslihə tutulmaq xəbəri bilkülliyə [tamamilə] əsil və əsassız olub, müfəttinanə [fitnəkarca] şayiələrdir ki, mütəəssifanə [təəssüf ki], qəzetəmizin sütunlarına dəxi keçmişdir.

– Qəzetəmizin 203-cü nömrəsində Azərbaycan Cümhuriyyətinin Dövləti Müdafiə Komitəsinin icbari qərardadında səhv olaraq VII maddə büsbütün buraxılmışdır. Qəzetəmizdə olan VII maddə VIII olaraq oxunmalıdır.

VII maddə budur:

*VII) Səlaməti-ümumiyyə və dövləti asayiş üçün istintaqdan sonra hərəkatı müzirr [zərərli] görülən şəxslər də həmçinin həmin icbari qərardadın VI xüsusunda göstərilən qərar üzrə cəzaya giriftar olacaqlardır.*

– Yenə qəzetəmizin eyni nömrəsində Şahsüvarov həzrətlərinin Maarif Nazirliyinə təyin edilməsi xəbər verilmişdi. Halbuki Şahsüvarov Maarif naziri müavinliyinə təyin edilmişdir.

*İdarə*

## BAKI XƏBƏRLƏRİ

**Dərbənddə**

Alınan məlumata görə, iyunun 11-də Dərbənddə rus qaragüruhunun nümayişi olmuşdur. Nümayişdə iştirak edənlər "Yəhudiləri qır!" şüarı yazılmış milli rus bayraqları ilə soqaqları [küçələri] gəzərək yəhudi qırğını salmaq təşəbbüsatına girişmişlərsə də, qırğın olmamışdır. Zira şəhər əhalisi bunda iştirak etməkdən imtina etmişlərdir.

**Tazəşəhərdə**

Son vaxtlar Tazəşəhərə getmək qadağan edilmişdi. Şimdi alınan məlumata görə, İngiltərə Komandanlığı məlum etmişdir ki, Tazəşəhərə getməkdən ötrü Zakaspi Hökumətindən icazənamə almaq lazımdır. İcazənaməsiz heç kəsi Tazəşəhərə buraxmaq olmaz.

**Əşirə almaq haqqında**

Ticarət və Sənaət [Sənaye] naziri Bakı qubernatoruna müraciətən rica etmişdir ki, türklər tərəfindən kəndlilərdən əşirə (zəkəvat) olaraq taxıl alınması qanunu ləğv edilmişdir. Bu vaxta qədər cəm edilmiş olan taxıl isə hökumətə təhvil verilib xüsusi anbarlarda saxlanılmalıdır.

**Məhkəməyə cəlb**

Bakı Nahiyə Məhkəməsi qubernatora müraciətən məlum etmişdir ki, onun binagüzarlığı [sərəncamı] ilə Muğan uçastoku pristavı Xəlilov xidmətindən sui-istifadə etdiyi üçün məhkəməyə cəlb edilmişdir.

**Məhbusların qaçması**

Bakı həbsxanasında saxlanılan dustaqlar Məsum Dadaşov və Qüdrət Cavadov həbsxana məmurunu aldadıb qaçmışlardır.

**Aşqabadda**

İngiltərə əsgərləri general Malleson başda olmaq üzrə Aşqabaddan çıxmışlar. Petrovskdan gələn dabravollar [könüllülər] onları əvəz etmişlər. Bolşeviklər əleyhinə edilən hərəkati-hərbiyyəyə susuzluq mane olmaqdadır. Birinci zəruri şeylərin qiyməti o qədər artıq deyildir. Şəhər idarəsi qaçqınların xərcini öz öhdəsinə almışdır.

**Yolun xarab olması**

Biləcəri mövqifi [stansiyası] müdirləri Bakı qubernatoruna məlum edir ki, Keşlə ilə Biləcəri mövqifləri arasında birinci yol xarab olduğundan, qatarlar hərəkatı ikinci yol vasitəsilə davam etməkdədir. Yolun təmir edilməsi üçün lazımi tədbirlər görülmüşdür.

**Həbsxana müdiri**

Bir çox sui-istemallarda [sui-istifadələrdə] müttəhim edilən Bakı Mərkəzi Həbsxana müdiri Abdinov qulluğundan əzl [kənar] edilib, yerinə Bayılov Həbsxana[sı] müdiri Bəhrambəyov təyin edilmişdir.

**Qaçaqmallar haqqında**

Bakı Gömrükxanası müdiri qubernatora məlum etmişdir ki, Bakı iskələsindən [limanından] gecələr külli miqdarda qaçaqmal çıxarırlar. Böylə ki, hər gecə müxtəlif körpülərdən mal aparıldığı müşahidə olunmuşdur. Dövlətə zərər olan böylə hərəkətin önü alınmasından ötrü lazımi tədbirlər ittixaz [tədbirlər görülməsi] və iskələdə lazımi miqdarda qarovullar qoyulmasını gömrük müdiri qubernatordan rica edir.

**Əsgərlikdən qaçmaq cəzası**

- Zığ kəndi əhlləri Hüseyn Bala oğlu, Hacı Əmiraslan Lütfəli oğlu, Balabəy Məhəmmədəli bəy oğlu, Durmuş Baxış oğlu öz oğul və qardaşlarını əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim edilərək Balaxanı-Sabunçu qalabəyisi [komendantı] binagüzarlığı [sərəncamı] ilə tövqif [tutulmuş] və həbs edilmişlərdir.

- Mərdəkan kəndi əhlləri Məşhədi Baba oğlu, Vahab Əli oğlu öz oğullarını gizlətməkdə müttəhim edilərək həbsə alınmışlardır.

- Türkan kəndi əhli Məşhədi Əliəsgər oğlu öz oğlunu gizlətməkdə müttəhim və qalabəyi binagüzarlığı ilə həbs edilmişdir.

- Ağdamdan hökumət naminə bir böylə teleqram varid olmuşdur [gəlmişdir]:

Ermənilər əhdşikənanə bir surətdə [xaincə] bizim əsgərlərimiz üzərinə düşüb dörd nəfərini qətl etmişlərdir. İşbu iş Ağdam dairəsi əhalisinin narazılığına səbəb vermişdir. Ağdam əhalisi Azərbaycanın cüzilayənfəki [ayrılmaz hissəsi] olan Qarabağ və Naxçıvanı hər dəqiqə mühafizə etməyə, vətən yolunda ölməyə hazırdır. Erməni millətinin düşməni olan daşnaklar Qarabağ və Naxçıvanı Ararat Cümhuriyyətinin bir hissəsi hesab etməsinlər. Zira Qarabağı fəqət [ancaq] silah zoru ilə və yaxud müsəlmansız almaq mümkün ola biləcəkdir.

*İmzalar: Davud, Bədəlbəyov,*
*Behbudov, Sadıqov, Naibov, Əhmədov, Mirbağırov.*

**Qalabəyinin əzl edilməsi**

Daxiliyyə nazirinin binagüzarlığına [sərəncamına] görə, Balaxanı-Sabunçu qalabəyisi [komendantı] Lütfəli bəy Əmircanov öz qulluğundan əzl edilmişdir [kənarlaşdırılmışdır]. Məzkurun [adı çəkilən şəxsin] yerinə namizəd olaraq üçüncü polis uçastoku müdiri Fərzəlibəyov göstərilir.

**Cinoridzenin sürgün edilməsi**

Aldığımız məlumata görə, "Bakinets" və "Novosti" qəzetələrinin sahib və naşiri olan Qriqori Cinoridze hökumətin binagüzarlığı [sərəncamı] ilə Azərbaycan Cümhuriyyəti torpağından sürgün edilir. Məlum olduğu üzrə, məzkur [adı çəkilən şəxs], Bakıda sükunət edib də [yaşayıb da] Könüllü ordu tərəfdarı olub və açıqdan-açığa onun lehinə təbliğatda bulunmaqda və qəzetəsini həman ordunun tərif və tövsifi [vəsfi] ilə doldururdu. Onun böylə hərəkatı dövlət və istiqlaliyyətə müzirr [zərərli] olduğu üçün həmin cəzaya məhkum edilmişdir.

Eşitdiyimizə görə, Cinoridze qorxub da Gürcüstana getməyir və Könüllü orduya gedəcəkdir.

## MƏŞQƏTƏ KƏNDİNDƏN

İşbu Ramazanül-mübarək ayında hər gün camaat, adəti üzrə məscidi-cameyə cəm olurlar. Kəndimizin üləmaları [ruhani alimləri] moizə və nəsihətdən sonra əhaliyə xitabən hökumətimizin və vətənimizin təhlükələr müqabilində olduğundan bəhs edib və bu təhlükədən qurtarmaq və qara qüvvələrlə mübarizə etmək üçün əhalini dəvət edirlər.

Keçən gün yenə adəti üzrə saat 2 radələrində kənd əhalisi məscidi-cameyə cəm olmuşdu. Mətləb Hüseynzadə əhvalihazirədən, Denikin kimi irticapərəstlərin öz bədtinət [xəbis, alçaq] qədəmləri ilə vətənimizi kəsafətləndirmək [çirkləndirmək] xəyalında olmaqlarını və Rəisi-vükəla [Baş nazir] həzrətlərinin möhtərəm Parlaman əzalarına [üzvlərinə] təfsilən [ətraflı] bəyanatlarından və İngiltərə komandanının bu işə nə nəzərlə baxmaqlarından və bizlərə verdiyi bəzi dayaqsız ümidlərindən və axirüləmr [nəhayət], Parlaman fraksiyalarından əksəriyyətlə formula qəbula keçirməklərin[i] camaata məlumat verəndən sonra bu barədə camaatın nə xəyalda və nə rəydə olmağını soruşdu.

Camaat isə; biz heç bir zənciri-əsarəti təzədən boynumuza salmağı qəbul etməyib heç bir qara qüvvələrə və irticapərəstlərə vətənimizin müqəddəs torpağına ayaq qoymaq imkanı verməyəcəyiz və sentyabr ayında etdiyimizdən gözəl hümmət eyləyib, əlbəəl verib vətən yolunda müharibəyə, ölməyə hazır dayanıb hökumətimizin fərmanını gözləyirik, dedilər.

Zeyldə [burada] yazılan məlumat tam olandan sonra kəndin məşhur vaizlərindən biri camaata hərgünkü adət üzrə moizəyə başlayıb dedi:

– Camaat, bizlərə vacib və lazımdır ki, silaha dolub öz vətən və sərhədimizi mühafizət edək. Əgər müharibə zamanında malidünyaya ehtiyac olsa, hər bir şəxs qüvvəsindən gələn köməyi hökumətə və vətən hifzinə xərc eyləməlidir. Əgər, nəüzibillah [Allah eləməsin], düşmən bizə qalib gələrsə, o zaman nə vətəndən, nə malımızdan və nə özümüzdən bir şey baqi qalmaz. Əgər qalan olsa, zənciri-əsarət altında yaşayacaqdır.

Şəriəti-müqəddəsimiz bizə azad yaşamağı əmr etmiş. Bir də əhəmiyyətli mətləb odur ki, Rusiya irticapərəst generalları işğal etdikləri yerlərdə ümumi səfərbərlik elan eyləyib, əhalini məcburi halda silah altına alıb, bolşeviklər müqabilinə göndərirlər və əsgərlikdən qaçanları edam edirlər. Əvət, biz indi öz vətənimiz yolunda qanımızı, malımızı, canımızı fəda etməzsək, Nikolay generallarının yolunda fəda ediləcəyiz. Əgər rus əsgərlərinin əksəriyyətini [çox olmağını] xəyalınıza gətirirsəniz, Qurani-şərifin ayəsi: "Kəm min fiətin qəlilətin qələbət fiətin kəsirətin" münasibətilə sizə təfsirini bəyan edirəm, necə Allah-taala buyurub: "Çox az qoşunlar çox qoşuna qalib olar."

Nüsrət [zəfər] xaliq əlindədir, çoxluq və azlıqda deyil.

Ağır qiymətə alınan hürriyyət, Azərbaycan istiqlaliyyəti ucuz və fəna qiymətlərə satılmaz. Siz cümlə cahan kəndçilərinə və füqərayi-kasibəsinə [proletariatına] göstərməlisiniz ki, siz müstəqil yaşamağa qabil bir millətsiniz. Və vətənin bugünkü müqəddəratı əsgərlərimizin və siz camaatın hümmətinə bağlıdır.

Xülasə, o gün məclis siyasi moizələrlə saat 5 radələrində tamam oldu.

*Mətləb Hüseynzadə*


**Mərdəkanda**

Bağ icarəyə verilir. Xahiş edənlər hər gün saat 8[-dən] 10-adək bu adresə müraciət edə bilərlər: Vodovoznı küçə, nömrə 5/7. Mim. Sad. Hacızadə.

*10236*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Berlin Darülfününu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı **İ. V. Denisovun** bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

**Apteka və kosmetiçeski malları** N. Liberzon və M. Şvarimanın skladı külli miqdarda satır. Tiflis, Puşkinski küçə nömrə 21. Apteka və kosmetiçeski xarici məmləkət fabrikası malları alınıbdır.

*10233*

**Təzə alınmış**

Amerikanın südü satılır külli miqdarda İ. V. Denisovun bankir kantorasında (Olqinski və Nikolayevski küçələrin küncündə, telefon nömrə 37-75). Az miqdarda isə Qafqazski aptekarski mağazada, Baryatinski, nömrə 6.

*10234*



***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***


## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qəzavətdən***

"Məzkur qəryələrin məsafəsi bir-birindən uzaq olduğu üçün…": bu cümlə qəzetdə müəyyən imla səhvləri ilə getmişdir; bu səhvləri düzəltdik və hər birini ayrı-ayrılıqda qeyd etməyə ehtiyac görmədik.

***Vükəla Şurasında***

"a) İclasın qanuni olması üçün…": bundan sonrakı bənd "b)" kimi işarələndiyi halda, qəzetdə bu bəndin qarşısında işarə yoxdur.

***"Dərbənd – Dəmir qapı"***

"İskəndəri-Rumi": Makedoniyalı İskəndər nəzərdə tutulur.

"Səməndər": VIII əsrdə Xəzər xaqanlığının paytaxtı olmuş şəhər. Bugünkü Mahaçqala şəhərinin yaxınlığında yerləşmişdir.

***Ekspress Teatrosu***

"Ekspress": Bakıda, Olqinski (indiki Məhəmməd Əmin Rəsulzadə) küçəsində kinoteatr olmuşdur.

***"Cavanlarımıza" şeiri (səh. 300)***

üçün lüğət
müəttər: ətirli
səd mərhəba: yüz dəfə afərin; yüz dəfə əhsən
məxzən: xəzinə
ərzəl: ən rəzil, ən alçaq
nəbiyyi-mötəmən: inanılan, güvənilən peyğəmbər
adab: qayda-qanun; bir işin qaydası, yolu
öksüz: yetim
icab edərsə: lazım gələrsə
bürci-ahənin: dəmirdən qala bürcü
haris: keşikçi
səddi-mətin: möhkəm sədd
qasib: qəsbkar
istiqbal: gələcək
zəbani-hal: hal dili
baxəbər: xəbərdar olun, bilin
"Əl-hərbu xud'ə": "Müharibə hiylədir" (hədis)

***Axırın fikr etməyən aqil deyil, divanədir!***

"iki daşın arasında": təcili, tələsik.

***Protesto nümayişləri***

"Srağagün həziranın 13-də": qəzetdə "həziranın" yerinə "mayın" getmişdir.

***Bakı xəbərləri***

"əşirə (zəkəvat)": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan vergi.

***Məşqətə kəndindən***

"Kəm min fiətin qəlilətin qələbət fiətin kəsirətin": "Quran"ın "Bəqərə" surəsinin 249-cu ayəsindən bir hissə.





# Mədəniyyət





● Elm xadimləri

# Bir ömrə sığmayan həyat

**XX əsr Azərbaycan tarixinin ən ziddiyyətli dönəmində yaşamış elə şəxsiyyətlər var ki, onların mənalı ömrü bütövlükdə xalqımızın tərəqqisi, elmi-mədəni yüksəlişi ilə bağlı olmuşdur. Həyatını bütünlüklə xalqına xidmətdə keçirən, xeyirxah əməlləri ilə nəsillərə örnək olan belə ziyalılardan biri də akademik Şəfaət Fərhad oğlu Mehdiyevdir. O, dövrünün gərgin tarixi epoxalarında yaşamış böyük alim idi, rəftar və düşüncəsi insanpərvərliklə əhatə olunmuşdu, bütün ruhu və təbiəti etibarilə əsl ziyalı idi.**



Şəfaət Mehdiyev 1910-cu ildə Güney Azərbaycanının Sərab vilayətinin Şalqun kəndində dünyaya göz açmışdır. Dörd yaşında ikən atasını itirmiş, ağır güzəran içərisində yaşayan anası uşaqları böyük çətinliklərlə boya-boşa çatdırmışdır. Oğlunu elmli, savadlı görmək istəyən ana elə bu məqsədlə kiçik ailəsi ilə birlikdə sənaye şəhəri kimi getdikcə şöhrətlənən Bakıya üz tutmuşdur. Ailə Sabunçuda kiçik bir otaq kirayə etmiş, anası buradakı neft mədənində işə düzəlmişdi.

Fəhlə təşkilatı o zaman Şəfaətin birinci dərəcəli fəhlə məktəbinə daxil olmasına zəmanət vermişdir. Bilikli, bacarıqlı, yazı qabiliyyətinə sahib olan gənc əvvəlcə dördüncü sinfə qəbul edilmiş, sonrakı illərdə isə o, hər ildə iki sinfin imtahanını verib bu nümunəvi məktəbi vaxtından əvvəl əla qiymətlərlə bitirmişdi. Şəfaət, əslində, orta təhsil verən həmin məktəbi qurtardıqdan sonra neft mədənində işə düzəlib işləmək, ev almağa anasına kömək etmək istəyirdi. Elə bu məqsədlə rayon ərazisindəki "Gənc mədənçi" müəssisəsinə gəlir. Əvvəlcə onu işə götürürlər, sonra isə qabaqcıl fəhlə kimi müəssisənin hesabından gəncə ikiotaqlı mənzil verirlər. Artıq ailə kirayənişinliyin daşını atır, Şəfaətin əlindəsə birinci dərəcəli məktəbin əla qiymətli şəhadətnaməsi vardı. Bu, həmin dövrdə o demək idi ki, gənc istədiyi instituta üz tutub imtahansız daxil ola bilərdi.

O, 1930-cu ildə Lassal adına Bakı Dağ-Mədən Texnikumunu bitirəndə artıq əvvəlki Şəfaət deyildi. Gənc geoloqun qəlbində yeni arzular baş qaldırmışdı. Azərbaycanın yeraltı sərvətlərinin sehri onu öz ağuşuna almışdı. Bu aləmə daxil olmaq, yeraltı dünyanın bütün sərvətlərinin sirrini aşkarlamaq bacarıqlı mütəxəssisin ən böyük istəyinə çevrilmişdi. Ona elə gəlirdi ki, yerin altında insanları xoşbəxt edə biləcək böyük sərvətlər var ki, onları Şəfaət tapıb üzə çıxarsa, insanlar kasıblığın, yoxsulluğun daşını atar, hamı xoşbəxt yaşayar. Bu arzu çox çəkmədən gənc geoloqun idealına çevrildi. Ancaq hələ qabaqda illər vardı...

### Çətin yol: ilk addımlar

Şəfaət Mehdiyev 1930-cu ilin yazında təhsilini başa vurub müəssisənin nəzarətçi-geoloqu kimi Sabunçu neft mədəninə gəldi. Bir ay idi yeni vəzifədə çalışırdı. Sübh tezdən bütün sahəni gəzər, bir-bir buruqları yoxlayıb onların "ürək döyüntüsünə" qulaq asardı. 108-ci buruğun yanından keçəndə birdən təlaşla ayaq saxladı. Yerin altından dəhşətli gurultu gəlirdi. "Fontan əlamətidir" - deyə gənc mütəxəssis öz həyatını təhlükədə qoyub buruğa tərəf irəlilədi. Ustanı səslədi. Növbə başsız idi. Sovet dövrünün sərt qanunları vardı. Bu işə görə bütün briqadaya ən ağır cəza verilə bilərdi. Risk edib elektrik sayğacına yaxınlaşdı. Düyməni basıb baltanı dayandırdı. Həyəcan siqnalını işə saldı. Hiss olunurdu ki, təhlükə lap yaxınlıqda idi. Neft fontan vurub böyük fəlakət yaradacaqdı. Bir neçə dəqiqədən sonra təhlükəsizlik xidməti hadisə yerinə gəldi. Mədən müdiri çaşqın halda "Tez olun, tez olun, kömək edin" - deyə haray çəkirdi. Qəzanı zərərsizləşdirmək yolunu yenə Şəfaət göstərdi. Hasilat borusuna əlavə altı xətt pərçimləndi, neftin sayğacdan ötürülmə həcmi tənzimləndi və fontan nefti ümumi xəttə qoşuldu. Üç gündən sonra gənc geoloq "Azərneft" birliyinin kollegiyasına çağırıldı. Ona fəxri fərman və böyük məbləğdə pül mükafatı verildi. Və təhsilini davam etdirmək üçün M.Əzizbəyov adına Neft İnstitutunun Geoloji-kəşfiyyat fakültəsinə göndərildi. Bu, Şəfaət Mehdiyevin ən böyük arzularından idi.

O, harada işləyirdi, oxuyurdusa, özünün elmi-ictimai fəaliyyəti ilə daim diqqət mərkəzində olurdu. İkinci kursda təhsil alanda o, eyni zamanda institut komsomol komitəsi katibinin müavini və "Neft uğrunda" çoxtirajlı qəzetin redaktoru idi.

Rus, ingilis dillərini təmiz öyrənməyə, onlar vasitəsilə dünya elminə çıxmağa çalışırdı. Tələbəlik illərində o, eyni zamanda natiqlik və tərcüməçilik fəaliyyətinə yiyələnmişdir. Bir sıra dərslikləri dilimizə çevirib nəşr etdirirdi. Bu sahədə Şəfaət Mehdiyevin ən böyük uğuru professor R.R.Şuşinskinin "Kristolloqrafiya kursu" adlı məşhur dərsliyin tərcüməsi ilə bağlı oldu. Bu dərsliyin tərcüməsini institutun elmi şurası yüksək dəyərləndirdi. 1932-1936-cı illər ərzində o, komsomol işində çalışdı, redaktorluq fəaliyyəti ilə məşğul oldu. Amma elmə həvəsi, geoloji-axtarış işlərinə əzəli marağı və istəkləri onu bir an rahat buraxmırdı. Bu sahənin ən mühüm tədqiqatları ilə hər gün məşğul olur, Azərbaycanın yeraltı sərvətlərinin aşkarlanmasının aktual problemləri ətrafında öz araşdırmalarını davam etdirirdi.

Şəfaət Mehdiyev ölkədə baş verən siyasi prosesləri diqqətlə izləyir, yaxınlaşmaqda olan 37-nin vahiməsini aydın duyurdu. Elə bu səbəbdən də ideoloji sahədən - komsomol və mətbuat işindən uzaqlaşmaq, öz ixtisası üzrə işləmək arzusunda olduğunu israrla rəhbərliyə bildirirdi. 1936-cı ilin əvvəllərində o, öz istəyinə nail oldu. Pirsaat neft mədənlərinə öz ixtisası üzrə geoloq vəzifəsinə təyin edildi. 1937-1938-ci illərdə Neftçalada geoloji-kəşfiyyat işlərində çalışdı. Elə burada özünün təşkilatçılıq bacarığı ilə yenidən diqqəti cəlb etdi.

### Təzadlı illər, məsuliyyətli dövr

1938-ci ildə Şəfaət Mehdiyevi Azərbaycan Neft Elmi-Tədqiqatları İnstitutuna baş geoloq, direktor müavini vəzifəsinə irəli çəkdilər. O, yenidən yeraltı dünyanın sərvətlərinin sehrinə düşdü. İllər üzünə güldü, uğurlar onu getdikcə şöhrətləndirdi. O, məsul vəzifələri icra edərkən elmi-tədqiqat işləri ilə də ciddi şəkildə məşğul olmağı qərara aldı. Bu məqsədilə İ.M.Qubkin adına Geologiya İnstitutunda aspiranturaya daxil oldu. Elmi-tədqiqat işlərini sistemləşdirdiyi ilk illərdə - 1939-cu ildə SSRİ Geologiya Mərkəzi tərəfindən Azərbaycan Geologiya Fonduna və Azərbaycan Geologiya Birliyinin Abşeron Geoseysmik partiyasına rəis təyin edildi. 1940-cı ildə özünün ən böyük nailiyyətlərini qazandı. Onun tərtib etdiyi "Abşeron yarımadasının geoloji xəritəsi"ni mütəxəssis qrupu yüksək dəyərləndirdi. Ancaq muharibə böyük işləri yarımçıq qoydu. Şəfaət Mehdiyev könüllü olaraq cəbhəyə getdi. 1944-cü ilin martında onu təcili olaraq arxa cəbhəyə çağırdılar. Ən qısa müddətdə Şəfaət Mehdiyev xüsusi tapşırıqla "Abşeron neft yataqlarının geotermikasını" işləyib hazırladı. Burada eyni zamanda yataqların perspektivlərinin praktiki şəkildə mövcudluğunu və zəngin ehtiyatlara məxsusluğunun proqramını verdi. Bunu Dövlət Müdafiə Komitəsinə və "Azərneft" rəhbərliyinə təqdim etdi. Müharibənin sona yetdiyi ərəfədə isə o, həmin mövzunu qapalı namizədlik dissertasiyası kimi müdafiə etdi. Elmi Şura və SSRİ Elmlər Akademiyası tərəfindən yüksək qiymətləndirlən işin dərhal istehsalata tətbiqinə icazə verildi. Abşeron neft yataqlarının öyrənilməsində, Xəzər də daxil olmaqla yeni mərhələ başladı. Bu, Şəfaət Mehdiyevin vətənə çox böyük xidməti idi. Həmin layihə Bakı-Tbilisi-Ceyhanın reallaşmasına bir zaman imkanlar verə biləcək tədqiqatların başlanğıcı idi.

### Axtarışlar, uğurlu nailiyyətlər

Kəşfiyyatçı-geoloqun sonrakı axtarışları Lənkəran-Talış regionunda neft-qaz yataqlarının öyrənilməsi, onların ehtiyat həcmi, buradakı neftin tərkibi, işlənmə imkanları ilə bağlı idi. Bu sahədə əldə etdiyi nailiyyətlər onun 1950-ci ildə müdafiə etdiyi doktorluq tədqiqatının əsasını təşkil etdi. Bu elmi kəşfiyyat işlərinin yekunu son dərəcə əhəmiyyətli olub, əslində, Azərbaycanın Xəzər və Xəzərətrafı regionlardakı neft yataqlarını üzə çıxarmaq sahəsindəki yeni uğuru idi.

Şəfaət Mehdiyev bu illərdə ara vermədən işləyən, Azərbaycanın neft səltənətinin güman edilməyən yataqlarını aşkarlayan, onlar barədə yeni mülahizələr irəli sürən tədqiqatçı geoloq kimi daha çox tanınırdı. Görkəmli alimin respublikanın müxtəlif rayonlarında çoxlu dostları vardı. Akademiki tanıyanlar deyirlər ki, o, insanlarla ünsiyyət saxlamağı, dostluq etməyi bacarırdı. Ötən əsrin 50-ci illərinin əvvəllərində bir yay günü, şənbə axşamı Şəfaət Mehdiyev Qubada dostunun evində qonaq olarkən Qonaqkənd yaylasını görmək üçün dağlar qoynuna səfər edir. Gözəl təbiətli Təngədağa çatanda bir neçə dəqiqəlik maşından düşüb təbiəti seyr etmək istəyir. Az sonra yeraltı səsləri dinləyən geoloq dostlarını qucaqlayıb fərəhlə səslənir:

- Sizin dağların altında neft yataqları var...

Çox keçmədən onun Təngə altında qazılan kəşfiyyat quyusu hələ istismara verilməmiş neft yataqlarının zəngin sərvəti barədə ehtimalları təsdiqləndi. Alimin Xəzər hövzəsinin Quba-Xaçmaz zonasındakı neft yataqları ilə bağlı yeni dəyərli tədqiqatı həmin hadisələrdən sonra meydana çıxdı.

Şəfaət Mehdiyev ötən əsrin 50-60-cı illərində təkcə kəşfiyyat işləri ilə deyil, eyni zamanda analoqu olmayan Azərbaycan neftinin tərkibi, neft yataqlarının yaranması, onların istismara verilmə imkanları barədə geniş araşdırmalar apardı. O, ötən əsrin 50-ci illərindən başlayaraq, bir-birinin ardınca "Azərbaycan neft xəzinəsidir", "Xəzərin neft ehtiyatları", "Göy göl", "Neft layının su ilə basılmasına qarşı mübarizə", "Neft və qaz yataqlarının geotexniki tədqiqi", "Neftin genezisi, neft-qaz laylarının formalaşması" və onlarla başqa dəyərli tədqiqat əsərlərini yazır. Bu əsərlər onu təkcə Azərbaycanda deyil, bütün dünyada şöhrətləndirir.

Şəfaət Mehdiyev əldə etdiyi böyük elmi nailiyyətlərinə görə 1955-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü, 1958-ci ildə akademiyanın həqiqi üzvü seçilir. 1954-cü ildə onun üzərinə daha ağır yük qoyulur. Bir vaxtlar aspirant, laboratoriya müdiri kimi ayaq basdığı Azərbaycan EA-nın Geologiya İnstitutuna direktor təyin edilir. O zaman Şəfaət müəllimin 44 yaşı var idi. Ş.Mehdiyevin böyük alim, xeyirxah insan, vərtənpərvər ziyalı obrazı onu məhz bu instituta rəhbərlik etdiyi qısa bir müddətdə - cəmi 4 ildə sübuta yetirildi.

1958-ci ildə akademik Şəfaət Mehdiyevin həyatında daha bir xoş hadisə baş verir. O, 20 ilə yaxın müddətdə çalışdığı Azərbaycan Dövlət Universitetinə rektor vəzifəsinə təyin edilir. Həmin vəzifədə çalışdığı müddətdə o, qarşısına iki mühüm vəzifə qoymuşdu - Azərbaycan elminin inkişafı üçün çalışmaq və yüksəkixtisaslı kadrlar yetişdirmək. İllərin təcrübəsi göstərdi ki, o, qarşısına qoyduğu hər iki məqsədi layiqincə həyata keçirə bildi.

Böyük alim öz fəaliyyəti dövründə yeraltı sərvətlərimizin üzə çıxarılması, Azərbaycan neftinin dünyada şöhrətlənməsi üçün əlindən gələni etdi. Yüksək intellektə, yazıçılıq qabiliyyətinə və natiqlik mədəniyyətinə malik olan akademik Şəfaət Mehdiyev milli mədəniyyətimizin, tariximizin gözəl bilicisi idi. O, eyni zamanda şair və nasir idi. Onun "Oxu gözəl", "Ötən ötdü", "Könlümü alsaydın" kimi onlarla gözəl şeirləri, "Su pərisi", "Göy adamı", "Keçi əhvalatı" kimi hekayələri ilə yanaşı, çoxlu gözəl miniatürləri, "Mirzə Fətəli", "Ərk qalası", "Vicdan yükü", "Sabir" kimi gözəl hekayələri var.

Akademik Şəfaət Mehdiyevin Azərbaycan neftini şöhrətləndirən tədqiqatları, həzin nəğmələrə çevrilib könülləri oxşayan şeirləri heç vaxt yaddan çıxmayacaq. Onun şərəfli ömrünün unudulmayan səhifələri daim nəsillərə örnək olacaqdır.

***İradə ƏLİYEVA.***
***"Azərbaycan"***

● Sənət dünyası

# Nakam taleli rəssam

**O, bu fani dünyada cəmi 54 il yaşayıb. Bu il onun 100 illik yubileyi tamam olur, vəfatından isə 46 il ötür. Həmişə düşünürəm görəsən niyə fitri istedad sahibləri belə az yaşayırlar?! İstedadlı incəsənət adamları - Bəhruz Kəngərli, Rüstəm Mustafayev, Tofiq Cavadov, Əşrəf Murad, Asəf Zeynallı, Vaqif Mustafazadə, Mikayıl Müşfiq, Əli Kərim yaşasaydılar hələ nələr edərdilər, hansı əsərləri bəşəriyyətə bəxş edə bilərdilər?**



Bu dəfə Əşrəf Murad həyatının səhifələrini vərəqləməyi, onun yaradıcılığının, taleyinin, ömür yolunun işığını paylaşmaq istəyirəm. Hansı ki, istedadlı rəssamın yaşadığı dövrdə nə adı çəkilib, nə də haqqında yazılıb. Nakam rəssamın əsərlərinin nümayiş olunduğu ilk fərdi sərgisi ölümündən beş il sonra -1984-cü ildə təşkil olunub. Rəssamın həyat və yaradıcılığı ilə sağlığında maraqlanan sənətşünaslar Sara Oğuz Nəzirova və Qriqori Anisimov olub. Sənətşünas Qriqori Anisimov haqqında onu vurğulamaq yerinə düşər ki, o, ölkəmizin avanqard istiqamətdə fəaliyyət göstərən rəssamları ilə maraqlanır, onların yaradıcılığını izləməyə çalışırdı. Onun 1978-ci ildə Bakıda rus dilində "Abşeronun əlvan boyaları" adlı kitabı nəşr olunmuşdur. Bundan əlavə olaraq o, 1988-ci ildə "Sovetskiy xudojnik" nəşriyyatında buraxılmış "Bitməmiş tərcümeyi - hallar" adlı kitabında Səttar Bəhlulzadə, Tofiq Cavadov və Əşrəf Muradın həyat və yaradıcılığı haqqında ətraflı məlumat vermişdir.



Əşrəf Muradın ilk dəfə fərdi sərgisinin keçirilməsi, rəssamın əsərlərinin ictimaiyyətə tanıdılması işində Q.Anisimov mühüm rol oynamışdır. Məşhur diplomat və dövlət xadimi Ramiz Abutalıbov qeyd edirdi ki, Moskvada sənətşünasla görüşü zamanı divardan asılmış işlə maraqlandım, o, məndən əsərin müəllifini tanıyırsanmı soruşdu və dedi ki, bu sizin ölkənizin istedadlı rəssamıdır. Onun əsərlərinin sərgisini təşkil etmək lazımdır. Mən o zaman ona söz verdim ki, rəssamın sərgisini təşkil edəcəyik. Bakıya döndüyümdə o zamanlar Azərbaycan Rəssamlar İttifaqının sədri vəzifəsində işləyən, Xalq rəssamı Yusif Hüseynovla görüşdüm və rəssam Əşrəf Muradın sərgisinin təşkil edilməsi barədə onunla danışdım. O, rəssamın psixoloji durumunun yaxşı olmadığını bildirdi. Mən təkid etdim ki, rəssamın sərgisi təşkil olunmalıdır. Və beləliklə, 1984-cü ildə Əşrəf Muradın fərdi sərgisinin açılışını etdik.

Sağlığında rəssamın yaşadıqları acılar, çəkdiyi əziyyətlər çox olub. Əşrəf Murad imkanlı ailənin övladı olub. Onun rəssamlığa xüsusi sevgisi, marağı vardı. Əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil alıb. Rusiyada nüfuzlu ali təhsil ocağına qəbul olunub. İ.Repin adına Leninqrad Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunda professor Rudolf Frensin sinfində ali rəssamlıq təhsilinə yiyələnib.

Əşrəf Murad 1958-ci ildən əsərləri ilə sərgilərdə iştirak etməyə başlayıb. Rəssamın yaradıcılığının birinci dövrünə aid əsərləri sırasında "Bakıxanov və Qriboyedov" , "Azadlıq arzusu", "Yaramaz", "Kolxoza gedən yol", "Gözlənilməz görüş" (1963), "Dənizdə qüllələr", "Oktyabrın 50 illiyi", "Funikulyor", "Atom müharibəsinə yox deyək" və başqalarını qeyd etmək olar. Yaradıcılıq nümunələri respublika və ittifaqəhəmiyyətli sərgilərdə nümayiş olunurdu. Rəssama qonorarlar yazılırdı.

Əşrəf Muradın portret əsərləri mövzunun ciddiliyi ilə nə qədər seçilirsə, rəssamın bədii ifadəetmə və mövzunu bədii şərhetmə baxımından da bir o qədər fərqlənir. Rəssam portretlərini yaratdığı şəxslərin daxili dünyagörüşünü və cizgilərini tamamilə fərdi tərəfdən açıb göstərir. Onun portret əsərləri sırasında "Admiral Uşakov", "Kosmonavt V.Tereşkova", "Lenin Smolnıda", "Tehran konfransı", "Nadejda Krupuskaya" və başqalarının adlarını qeyd etmək olar. Əşrəf Murad yaradıcılığında idman mövzusu qırmızı xətt kimi keçir. Rəssam bu mövzuda bir sıra əsərlər yaratmışdır. Xanım idmançıların həyatı görünür rəssamı daha çox düşündürürdü. "Tennisçi qız", "İdmançı qız", "İdmançı qız", "Qız motosikletlə çimərlikdə" adlı əsərlər rəssamın ən maraqlı işləri sırasındadır.

Əşrəf Muradın yaratdığı mənzərə və natürmort əsərləri özünün kolorit həlli ilə də diqqəti cəlb edir. Rəssamın mənzərə əsərlərində dəniz, meşə zülmət qaranlığa qərq olub. Sənin dənizin niyə qara rəngdədir, axı dəniz mavi rəngdə olur



sualına o, mən dənizə gedib çatanda hava qaranlıqlaşır, mən dənizi, qumlu sahili axşam görürəm və çəkirəm deyə cavab vermişdi. "Xəzər sahilində", "Meşədə", "Dəniz kənarı", "Abşeronda axşam" və "Natürmort yemişlə", "Zanbaqlar", "Qarpız", "Natürmort", "Yemişlər" adlı mənzərə və natürmort əsərləri özünün mükəmməl bədii şərhi və həlli baxımından diqqəti cəlb edir. Sənətşünas Sara Oğuz rəssam haqqında yazırdı: "Əsil-nəcabətli evdən çıxmış böyük istedad sahibi Əşrəf Murad ömrü boyu evsiz yaşadı. Evi də, iş yeri də beş-on addımlıq emalatxanası oldu. Onu da qonşusu Əşrəf ölən kimi boşaldıb qalan rəsmlərindən, etüdlərindən tonqal qaladı. Acı reallıqdır".

Əşrəf Muradın həyatı və yaradıcılığı haqqında müstəqillik illərində kataloq və albomlar nəşr olunmuş, əsərlərindən ibarət sərgilər təşkil olunmuşdur. Bu sırada Sara Oğuz Nəzirovanın Bakıda "Əşrəf Murad. Dəli istək", Qriqori Anisimovun Moskvada "Əşrəf Murad. Magik realizm" adlı albom kitablarını qeyd etmək olar.

2019-cu ildə YARAT Müasir İncəsənət Məkanında rəssamın əsərlərindən ibarət "Əşrəf Murad: "Sevgi və etiraz" adlı rerospektiv sərgi təşkil olunmuşdur. Nakam tale yaşamış Əşrəf Murad yaradıcılığı Azərbaycan təsviri sənət tarixində əbədi yaşayacaq.

***Əsəd QULİYEV,***
***Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünas***

# "Qarabağ irsi" incəsənət dili ilə dünyaya ünvanlanan çağırışdır

**2021-ci ildə yaradılan və Qələbənin birinci ildönümünə həsr olunan "Qarabağ irsi" kolleksiyası mövzusu ilə Nigar Helminin digər işləri arasında xüsusi yer tutur. Bu silsilənin mərkəzində Azərbaycanın işğal dövründə dağıdılmış mədəni irsi dayanır. Təxminən 30 il davam edən işğal ərzində muzeylərə, musiqi məktəblərinə, teatrlara və kitabxanalara ciddi ziyan dəyib, ərazilərdən təxminən dörd milyon kitab çıxarılıb. Dini abidələr də dağıntılardan yan keçməyib, belə ki, onlarla məscid məhv edilib və ya ciddi zərər görüb.**

Bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbətində layihənin müəllifi, rəssam və ictimai xadim Nigar Helmi bildirib.

Onun sözlərinə görə, kolleksiyanın əsas məqsədi bu reallığı təsviri sənət vasitəsilə beynəlxalq auditoriyaya çatdırmaq və bir daha xatırlatmaqdır ki, müharibə şəraitində belə hər hansı ölkənin mədəni irsi məhv edilmə obyektinə çevrilə bilməz və çevrilməməlidir.



"Qürurla deyə bilərəm ki, son dörd il ərzində ekspozisiya İstanbul, Ankara, Kipr, Barselona, Madrid, Nyu York, Boston və Parisdə nümayiş etdirilib. Faktiki olaraq dünyanın yarısını dolaşıb", - deyə Nigar Helmi vurğulayıb.

Rəssam qeyd edib ki, bu il silsilə Qələbənin beşinci ildönümünə həsr olunan tədbirlər çərçivəsində Müasir İncəsənət Muzeyində təqdim olunur. Eyni zamanda kolleksiya davam etdirilib və yeni əsərlərlə zənginləşdirilib. Bu yeni işlər bu gün ölkədə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq proseslərinə, dirçəliş mövzusuna həsr olunub. Onlar artıq təkcə itkinin ağrısını deyil, həm də yenilənmə, həyatın qayıdışı və ümid intonasiyasını da daşıyır.

# Türkyə və Azərbaycan muzeyləri arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**İstanbulun Türk və İslam Əsərləri Muzeyində Azərbaycan muzeylərinə məxsus tarixi eksponatlardan ibarət müvəqqəti sərginin təşkili, burada qədim xalçalarımızın nümayişi, muzeyin vitrinində Azərbaycan xalçasının davamlı şəkildə sərgilənməsi məqsədilə birgə işlərin aparılması məsələsi müzakirə edilib.**



AZƏRTAC xəbər verir ki, bu məqsədlə Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Türk və İslam Əsərləri Muzeyinin rəhbəri Ekrem Aytar ilə görüş keçirib. Görüşdə həmçinin Azərbaycan muzeyləri ilə əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə ortaq fəaliyyətlərin həyata keçirilməsi barədə razılıq əldə edilib. Samir Abbasovun İstanbul proqramı çərçivəsində bu şəhərdə yerləşən Topkapı Mədəniyyət Parkının tərkibindəki türk xalqının tarixini və mədəniyyətini tanıtmaq məqsədilə yaradılan Türk Dünyası Mədəniyyət Parkı ilə Azərbaycan Mədəniyyət Mərkəzi arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Polis Akademiyasında təhsil almaq istəyən abituriyentlər üçün müsabiqə elan edilir

**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan "Hüquqşünaslıq" ixtisasına 500, I qrupdan "İnformasiya təhlükəsizliyi" ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir. Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.**






Xüsusi təhsil müəssisəsinə sənədlərin qəbulu 2026-cı ilin fevralın 22-dək namizədin daimi yaşadığı yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir. Müsabiqədən keçən abituriyentlərin siyahısı "Hüquqşünaslıq" və ya "İnformasiya təhlükəsizliyi" ixtisasları üzrə Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir. Qəbul olunan abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır. Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir. Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunurlar, akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar. Məzunlara "Hüquqşünaslıq və "İnformasiya təhlükəsizliyi" ixtisasları üzrə "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə DİO-da müvafiq vəzifələrə təyin edilirlər.

Qəbul qaydaları haqqında daha ətraflı məlumat əldə etmək üçün (012) 454-12-78, (012) 590-97-76, (012) 590-99-47 nömrələrinə və akademiyanın 88-80 qaynar xəttinə zəng edə, yaxud nazirliyin, eləcə də təhsil müəssisəsinin internet saytlarına, həmçinin sosial şəbəkələrdəki rəsmi səhifələrinə müraciət edə bilərsiniz.

*"Azərbaycan"*

# Səssiz təhlükə

**Soyuq hava şəraitinin hökm sürdüyü payız və qış aylarında insanların gündəlik həyatında istilik cihazlarının rolu əvəzsizdir. Evlərdə qaz sobaları, su qızdırıcıları, kombilər və digər istilik qurğuları fasiləsiz işləyir. Lakin bu cihazlardan düzgün istifadə olunmadıqda, təhlükəsizlik qaydalarına əməl edilmədikdə və texniki baxışlar vaxtında aparılmadıqda, ciddi təhlükə mənbəyi meydana çıxır. Bu təhlükə - dadsız, rəngsiz və qoxusuz olan dəm qazıdır.**

Karbon monoksid kimi tanınan dəm qazı tərkibində karbon olan yanacaqların - təbii qaz, benzin, balon qazı, odun və kömürün yanması və ya tam yanmaması nəticəsində yaranır. Bu qazın əsas təhlükəsi ondan ibarətdir ki, insan onu nə görə, nə duya, nə də dada bilir. Məhz bu səbəbdən dəm qazı çox vaxt hiss edilmədən orqanizmə daxil olur və qısa müddət ərzində ağır zəhərlənməyə, bəzən isə ölümlə nəticələnən faciələrə səbəb olur.

Statistik məlumatlar göstərir ki, hər il payız-qış mövsümündə həm iri şəhərlərdə, həm də bölgələrdə dəm qazı zəhərlənmələri artan xətt üzrə davam edir. Bu hadisələrin əksəriyyəti məişətdə təhlükəsizlik qaydalarına laqeyd yanaşma, qaz cihazlarına qeyri-peşəkar müdaxilələr, tüstü bacalarının tutulması və ya havalandırma sistemlərinin yararsız vəziyyətdə olması ilə bağlıdır. Təəssüf doğuran məqam isə odur ki, bu cür hadisələrin böyük əksəriyyətinin qarşısını vaxtında görülən sadə qabaqlayıcı tədbirlərlə almaq mümkündür. Fövqəladə Hallar Nazirliyinin (FHN) dəm qazı təhlükəsi ilə əlaqədar əhaliyə ünvanladığı müraciətdə bildirilib ki, istismar olunan qaz cihazı saz və standartlara uyğun olmalı, cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı, havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı, hamam otağında ventilyasiya borusu, qapının aşağısında dəliklər düzəltməli, tüstü bacaları ildə iki dəfə təmizlənməlidir. Təhlükə zamanı isə mütləq 112-yə zəng edilməlidir.

## Təhlükəsizlik standartlarına cavab verməyən cihazlardan istifadə edilməməlidir

Qış fəslində havaların kəskin soyuması insanların istiliyə olan tələbatını artırır. Bu isə qaz cihazlarının daha intensiv istifadəsinə gətirib çıxarır. Lakin istilik qurğularının düzgün seçilməməsi, standartlara uyğun quraşdırılmaması və texniki baxışdan keçirilməməsi dəm qazı riskini dəfələrlə artırır. Təhlükəsizlik qaydaları üzrə ekspert Elmar Nurəliyevin sözlərinə görə, qaz cihazlarının quraşdırılması zamanı otağın sahəsi və həcmi mütləq nəzərə alınmalıdır. Onun sözlərinə görə, ikigözlü qaz sobaları üçün otağın sahəsi minimum 8 kvadratmetr, üçgözlü qaz sobası üçün 12 kvadratmetr, dördgözlü qaz sobası üçün isə ən azı 15 kvadratmetr olmalıdır. Əgər həmin məkanda əlavə olaraq su qızdırıcısı da quraşdırılırsa, otağın sahəsi minimum 20 kvadratmetr təşkil etməlidir.

Ekspert bildirib ki, təhlükəsizlik standartlarına cavab verməyən, sertifikasiyası olmayan qaz cihazlarından istifadə ciddi təhlükə yaradır. Belə cihazlar yanma prosesini düzgün həyata keçirmir və nəticədə karbon monoksid əmələ gəlir. Qaz cihazlarının quraşdırılması, texniki qulluğu və təmiri yalnız ixtisaslı mütəxəssislər tərəfindən aparılmalıdır. Qeyri-peşəkar müdaxilələr, boruların özbaşına dəyişdirilməsi və cihazların bir otaqdan digərinə düzgün qaydada köçürülməməsi faciəvi nəticələrə yol aça bilər.



"Dəm qazının yaranmasında tüstü bacalarının vəziyyəti xüsusi əhəmiyyət kəsb edir. Tüstü bacaları ildə ən azı iki dəfə təmizlənməli, onların daxilində dəlik, çat və tutulmaların olmamasına diqqət yetirilməlidir. Bacalarda məişət tullantılarının, quş yuvalarının və ya digər maneələrin toplanması yanma prosesini pozur və qaz tullantılarının çölə çıxmasına əngəl yaradır. Nəticədə dəm qazı otaq daxilində toplanaraq təhlükəli səviyyəyə çatır. Qaz cihazı olan bütün məkanlarda effektiv havalandırma sistemi və nəfəslik mütləq olmalıdır. Xüsusilə mətbəx və hamam otaqları dəm qazının daha çox yarandığı yerlər hesab edilir. Bu səbəbdən həmin məkanlarda təhlükəsizlik qaydalarına əməl edilməsi həyati əhəmiyyət daşıyır. Otaqların həcminə uyğun olmayan qaz cihazlarının istifadəsi, qapalı mühitdə uzunmüddətli yanma prosesi və havalandırmanın olmaması ciddi risk faktorlarıdır", - deyə E.Nurəliyev qeyd edib.

Ekspert qaz sızmasını və dəm qazını aşkarlayan detektorların əhəmiyyətini xüsusi vurğulayıb. Onun sözlərinə görə, qaz sızması əleyhinə detektorlar təhlükə zamanı avtomatik olaraq qazın verilişini dayandırır, dəm qazı detektorları isə yüksək səsli siqnal vasitəsilə istifadəçini xəbərdar edir. Bu cihazlar karbon monoksid yaranan kimi işə düşərək insanların vaxtında tədbir görməsinə imkan yaradır. Detektorların qiymətinin əlçatan olması onların hər bir evdə quraşdırılmasını mümkün edir. Bu sadə, lakin funksional cihazlar minlərlə insan həyatını xilas edə bilər.

## Zəhərlənmə zamanı ilkin tibbi yardımın düzgün göstərilməsi həyati əhəmiyyət daşıyır

Dəm qazı zəhərlənmələri insan orqanizmi üçün son dərəcə təhlükəlidir. Həkim-toksikoloq Aynur Məmmədovanın sözlərinə görə, bu zəhərlənmələr yüngül, orta və ağır dərəcəli olmaqla üç qrupa bölünür. Yüngül dərəcəli zəhərlənmələrdə, adətən, ciddi klinik əlamətlər müşahidə edilmir. Xəstələrdə yüngül başağrıları, halsızlıq və yorğunluq hiss olunur. Bu mərhələdə qanda karboksihemoqlobinin miqdarı 15 faizə qədər olur və əksər hallarda tibbi yardıma ehtiyac yaranmır. Orta dərəcəli dəm qazı zəhərlənmələrində əlamətlər daha kəskin olur. Ürəkbulanma, qusma, güclü başağrıları, halsızlıq və bəzən qısamüddətli huş itirilməsi müşahidə edilir. Bu zaman qanda karboksihemoqlabinin (CoHB) miqdarı 35 faizə çatır. Zərərçəkən çox vaxt kömək olmadan qapalı məkandan çıxa bilmir və bu mərhələdə vaxtında müdaxilə olunmazsa, vəziyyət sürətlə ağırlaşa bilər. Ağır dərəcəli zəhərlənmələr zamanı xəstə huşunu tam itirir, qıcolmalar baş verir, tənəffüs və ürək çatışmazlığı yaranır. "CoHB"nin miqdarı 50-55 faizə çatdıqda ölüm riski son dərəcə yüksək olur. Ağır hallarda isə qeyri-iradi qusmalar baş verir və huşsuz vəziyyətdə olan xəstələrdə qusuntu kütləsi tənəffüs yollarını bağlayaraq boğulmaya səbəb ola bilər. Bu hal aspirasiya adlanır və çox vaxt ölümcül nəticə ilə yekunlaşır.

Həkim-toksikoloq dəm qazı zəhərlənməsi zamanı ilkin tibbi yardımın düzgün göstərilməsinin həyati əhəmiyyət daşıdığını vurğulayıb: "İlk növbədə zərərçəkən dərhal təhlükəli mühitdən uzaqlaşdırılmalı və təmiz havaya çıxarılmalıdır. Yuxarı tənəffüs yolları selikdən təmizlənməli, nəfəs dayanıbsa, suni tənəffüs verilməlidir. Eyni zamanda təcili tibbi yardım çağırılmalıdır".

Mütəxəssis bildirib ki, dəm qazı zəhərlənmələri xüsusilə azyaşlılar, yaşlılar, hamilə qadınlar və xroniki xəstəlikləri olan şəxslər üçün daha təhlükəlidir. Risk qrupuna daxil olmayan insanlar belə bəzən bu zəhərlənmələrin ağır fəsadları ilə üzləşə bilərlər. Bu fəsadlar karlıq, korluq, əqli zəiflik və hərəkət pozğunluğu kimi nevroloji əlamətlərlə özünü göstərə bilər. Beynin hansı hissəsinin zədələnməsindən asılı olaraq bu pozuntular müvəqqəti və ya ömürlük ola bilər.

Aynur Məmmədova soyuq günlərin yeni başladığını nəzərə alaraq vətəndaşları daha diqqətli olmağa çağırıb. O qeyd edib ki, qaz cihazlarından düzgün istifadə, təhlükəsizlik qaydalarına ciddi əməl edilməsi, tüstü bacalarının vaxtında təmizlənməsi və dəm qazı detektorlarının quraşdırılması ilə bu səssiz təhlükənin qarşısını almaq mümkündür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Azərbaycan tranzit marşrutlarında riskləri necə diversifikasiya edə bilər?

**Zəngəzur dəhlizi nəqliyyat marşrutlarının şaxələndirilməsinin mühüm tərkib hissəsidir. Azərbaycan üzərindən keçən tranzit yollar mövcuddur və rəsmi Bakı bu marşrutların həm strateji əhəmiyyətini, həm də yarada biləcəyi riskləri aydın şəkildə dərk edir.**



Nəqliyyat üzrə ekspert Rauf Ağamirzəyev AZƏRTAC-a açıqlamasında bildirib ki, əsas sual mümkün risklər yarandığı halda alternativlərin olub-olmamasıdır.

Onun sözlərinə görə, bu alternativlər mövcuddur və Zəngəzur dəhlizi məhz buna görə prioritetdir. Ekspert bildirib ki, hər hansı risk yaranarsa, Azərbaycan həm sərnişin, həm də yük daşımalarının təhlükəsiz və fasiləsiz həyata keçirilməsi üçün Zəngəzur dəhlizini təklif edir.

"Əgər Zəngəzur istiqamətində də müəyyən risklər meydana çıxarsa, daşımaların Gürcüstan üzərindən yenidən şaxələndirilməsi mümkündür. Ümumilikdə isə Cənubi Qafqaz coğrafi baxımdan kiçik region olsa da, inkişaf etmiş və şaxələnmiş nəqliyyat infrastrukturu sayəsində onun əhəmiyyəti xeyli artır və region qitələrarası bağlantıda mühüm rol oynayır. Bu marşrutlar bir-birini tamamlayır. Həm Gürcüstan istiqamətindən Zəngəzura gedən, həm də Zəngəzurdan Bakı-Tbilisi-Qars və Gürcüstan istiqamətinə uzanan yollar vahid nəqliyyat karkası formalaşdırır", - deyə ekspert vurğulayıb.

Rauf Ağamirzəyevin sözlərinə görə, indiyədək baş vermiş müharibələr bəzi nəqliyyat istiqamətlərinin bağlanmasına səbəb olmuşdu: "Lakin Azərbaycanın 2020-ci ildən sonra atdığı addımlar bu yolların yenidən açılması üçün ciddi zəmin yaradıb. Ölkə son beş ildə bu istiqamətdə ardıcıl və məqsədyönlü işlər həyata keçirir və layihələrin böyük hissəsinin gələn il tamamlanması nəzərdə tutulur. Eyni zamanda, Naxçıvan ərazisində də nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üzrə işlərə yaxın vaxtlarda start verilib. Bu marşrutlar bir-birini tamamlayır. Həm Gürcüstan istiqamətindən Zəngəzura gedən, həm də Zəngəzurdan Bakı-Tbilisi-Qars və Gürcüstan istiqamətinə uzanan yollar vahid nəqliyyat karkası formalaşdırır".

# Hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-6, gündüz 7-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 774 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 7-10 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlamaq ehtimalı var.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə şaxta, dağlıq ərazilərdə 10 dərəcəyədək şaxta, gündüz 7-12 dərəcə isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7 dərəcə şaxta, gündüz 2-7 dərəcə isti olacağı bildirilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlamaq ehtimalı var.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8 dərəcə şaxta, gündüz 2-7 dərəcə isti olacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlaması ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 7-10 dərəcə isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə şaxta, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 7-10 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlaması ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-5, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 0-3 dərəcə isti olacağı bildirilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Zakir Qaralova qardaşı

**TAHİR QARALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4120
Sifariş 2540

Qiyməti 60 qəpik